AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC

# TƏDRİS KATALOQU

BAKI - 2024

# MÜNDƏRİCAT:

Ümumi məlumat ....3
"UNEC – 100" İnkişaf Strategiyası ....5
Akademik təqvim....7
UNEC-də təhsilalanların Universitetdaxili İntizam Qaydaları ....8
UNEC-də təhsilalanların Etik Davranış Kodeksi ....13
Keyfiyyət təminatı sistemi ....15
Tədrisin təşkilində kredit sistemi ....21
İmtahan sessiyasının təşkili və keçirilməsi qaydaları ....23
Yay semestrinin təşkili....24
İstehsalat təcrübəsi ....25
UDİD və Minor proqramları ....26
Tədris Elektron İdarəetmə Modeli (EDUMAN)....28
UNEC Rəqəmsal Texnologiyalar Departamenti....29
İdarəetmə ....30
Qəbul ....32
Əlaqə ....34
**Fakültə, Mərkəz, Məktəblər....35**
Maliyyə və mühasibat fakültəsi ....35
İqtisadiyyat və idarəetmə fakültəsi ....35
Rəqəmsal iqtisadiyyat fakültəsi ....36
Biznes və menecment fakültəsi ....36
Mühəndislik fakültəsi ....37
Türk dünyası iqtisad fakültəsi ....38
SABAH Mərkəzi ....39
Beynəlxalq İqtisad Məktəbi (İSE) ....40
UNEC Dizayn Məktəbi ....41
Rus İqtisad Məktəbi ....42
Qiyabi və Əlavə Təhsil Mərkəzi ....43
Ümumi fənlərin tədrisinin təşkili departamenti ....45
Xarici Dillər departamenti ....47
Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi ....48
UNEC Biznes Məktəbi (MBA) ....49
Ömürboyu Təhsil Mərkəzi....50
**İxtisaslar....**51
Bakalavriatura....52
Magistratura....127
Doktorantura....130
**Filiallar ....**132
Zaqatala filialı ....132
Dərbənd filialı ....133
**UNEC nəzdində kolleclər ....**134
Azərbaycan Maliyyə-İqtisad Kolleci ....134
Qida Sənayesi Kolleci....135
Sosial-İqtisadi Kollec....136
**Beynəlxalq əməkdaşlıq ....**138
İkili diplom və birgə diplom (join) proqramları ....138

# Ümumi məlumat

Azərbaycan Dövlət İqtisad Universitetinin təməli 19 iyun 1930-cu ildə Azərbaycan Ticarət Kooperasiya İnstitutunun yaradılması ilə qoyulmuşdur.

Sovet dövründə sosialist Azərbaycan iqtisadiyyatını iqtisad, maliyyə, statistika, mühasibat və digər sahələr üzrə yüksək ixtisaslı kadrlarla təmin etmək məqsədi ilə fəaliyyət göstərən bu ali təhsil ocağı, 1990-cı ildən Azərbaycan Dövlət İqtisad İnstitutuna çevrilmiş və müstəqil Azərbaycanda da müəyyən müddət bu ad altında fəaliyyətini davam etdirmişdir.

13 iyun 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 349 saylı fərmanı ilə Azərbaycan Dövlət İqtisad İnstitutu və Bakı Əmtəəşünaslıq İnstitutunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradılmışdır. Prezident Heydər Əliyevin 12 iyun 2002-ciil tarixli sərəncamı ilə də Azərbaycan Dövlət İqtisad Universitetinə özünüidarə statusu verilmişdir.

21 iyun 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik Azərbaycan Dövlət İqtisad Universitetinə çevrilməsi yolu ilə yenidən təşkilinə başlanmışdır.

Azərbaycan Dövlət İqtisad Universiteti böyük bir inkişaf yolu keçmişdir. 21 yanvar 2016-cı ildən dövlət qeydiyyatından keçmiş UNEC brendi ilə təhsil xidmətləri bazarında fəaliyyət göstərən Universitet, hazırda Azərbaycan iqtisadiyyatını iqtisadiyyat və idarəetmə ixtisasları üzrə yüksək ixtisaslı kadrlarla təmin edən əsas ali təhsil müəssisəsidir. Bu gün Universitet Bakı şəhərindəki 4 tədris binası və 3 kolleci, Rusiya Federasiyasının Dərbənd şəhərində və Zaqatala rayonundakı filialları və baza məktəbi ilə Qafqazın iqtisad yönümlü ən böyük ali təhsil ocağıdır.

### Fəaliyyət istiqamətləri

*Təhsil.* UNEC subbakalavr, bakalavr, magistr (o cümlədən, MBA), doktorantura, ikinci təhsil və əlavə təhsil proqramları üzrə təhsil xidmətləri göstərir. Hazırda UNEC, ölkədə 4 dildə - azərbaycan, türk, rus, ingilis dillərində - təhsil verən yeganə ali təhsil ocağıdır. "E-universitet" layihəsi əsasında UNEC-də tədris prosesi tamamilə elektronlaşdırılmışdır. Eyni zamanda Azərbaycanda ilk dəfə olaraq, beynəlxalq standartlara cavab verən distant təhsil mərkəzi və 7/24 fəaliyyət göstərən müasir kitabxanaya da malikdir.

Universitetdə nüfuzlu xarici universitetlərlə birgə bir çox ikili diplom proqramları, tələbə və müəllim mübadilə proqramları həyata keçirilir. Əcnəbi tələbələrin UNEC-ə qəbulu prosesi internet üzərindən tamamilə elektronlaşdırılmış qaydada aparılır.

UNEC təhsilin keyfiyyətini artırmaq məqsədilə fasiləsiz olaraq, tədris plan və proqramlarının təkmilləşdirilməsi, tədrisdə müasir texnologiyalardan istifadə və professor-müəllim heyətinin peşə bacarıqlarının artırılmasına xüsusi əhəmiyyət verir.

*Tədqiqat.* UNEC-də elmi tədqiqatlar elmi-tədqiqat institutu, innovativ biznes inkubator, kafedralar, tədqiqat mərkəzləri və laboratoriyalarda həyata keçirilir. Universitetin elmi jurnalları və virtual iqtisadi forumu mövcuddur. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə UNEC Tədqiqat Fondu, differensial əmək haqqı sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma sistemi fəaliyyət göstərir. UNEC alimləri milli və beynəlxalq donor təşkilatların qrantları, ayrı-ayrı dövlət və özəl şirkətlərin sifarişləri əsasında elmi tədqiqat layihələri həyata

keçirirlər. Eləcə də son illər UNEC alimlərinin “Web of Science”, “Scopus” kimi nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap edilən əsərlərinin sayı sürətlə artır.

UNEC tədqiqat potensialını artırmaq və tədqiqat universitetinə çevrilmək məqsədilə tədqiqat infrastrukturunun yaxşılaşdırılmasına, nüfuzlu nəşrlərdə elmi əsərlərin nəşrinə, elmi-tədqiqat qrant layihələrinin həyata keçirilməsinə, magistratura və doktorantura təhsilinin inkişaf etdirilməsinə və əqli mülkiyyət hüquqlarının qorunmasına böyük önəm verir.

*Sosial xidmət.* UNEC-də fəaliyyət göstərən UNEC həmkarlar təşkilatı, Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, “İqtisadçı tələbələrə dəstək” İctimai Birliyi, “İqtisadçı tələbələrin elmi fəaliyyətinə yardım” İctimai Birliyi və digər tələbə təşkilatları hər il çoxlu sayda müxtəlif sosial məsuliyyətlilik layihələri həyata keçirirlər.

Universitetin “İnkluziv təhsil mərkəzi” əlilliyi olan tələbələrin cəmiyyətə inteqrasiyası, onlar üçün bərabər təhsil imkanlarının yaradılması məqsədilə vaxtaşırı tədbirlər və layihələr icra edir.

UNEC ayrı-ayrı sosial problemlərlə bağlı QHT-lərlə əməkdaşlıq çərçivəsində çoxlu sayda maaarifləndirmə tədbirləri, kompaniyalar aparılır. Eləcə də çoxsaylı ekspert heyəti ilə müntəzəm olaraq mətbuatda iqtisadi maarifləndirmə işini həyata keçirir.

## Resurslar

*İnsan resursları.* Azərbaycanda iqtisad elmi üzrə alimlərin əsas hissəsi UNEC-də fəaliyyət göstərir. Eyni zamanda texniki və texnoloji ixtisaslar, dizayn ixtisası üzrə peşəkar müəllimlər də UNEC-in akademik heyətinin bir hissəsini təşkil edir. Son illər xaricdə təhsil almış yüzlərlə gənc UNEC-də elmi-pedaqoji fəaliyyətə cəlb edilmişdir. UNEC, əməkdaşlarının peşə bacarıqlarının təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verir və bu məqsədlə ilboyu müxtəlif seminarlar, təlimlər, qış və yay məktəbləri təşkil edir. Bundan başqa hər il onlarla UNEC müəllimi nüfuzlu xarici universitetlərlə təcrübə mübadiləsi proqramlarında iştirak edir.

*İnformasiya resursları.* UNEC-in “www.unec.edu.az” ünvanlı internet səhifəsi “Webometrics” agentliyi tərəfindən müəyyən edilən ölkənin ali təhsil müəssisələrinin internet səhfələrinin reytinqi cədvəlində ilk sıralardadır. Zəngin informasiya resurslarına malik olan bu səhifədən həm universitetdaxili istifadəçilər, həm də kənar istifadəçilər geniş istifadə edir.

Universitetin bütün binaları geniş zolaqlı internetlə təmin edilmişdir. UNEC-də tətbiq edilən “E-universitet” və “E-sənəd dövriyyəsi” sistemləri universitetdə bütövlükdə tədris prosesini və sənəd dövriyyəsini 100% elektronlaşdırmağa imkan vermişdir.

Universitet əməkdaşlarının “Web of Science”, “Ebsco” kimi elmi platformalara çıxış imkanı təmin edilmişdir. Eyni zamanda UNEC-də 7/24 saat işləyən müasir kitabxana sistemi də fəaliyyət göstərir.

*Maliyyə resursları.* UNEC-in maliyyə resursları üç əsas mənbədən formalaşır: 1) Dövlət sifarişli tələbələr üçün dövlətin ödədiyi təhsil haqları; 2) Ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqları; 3) Qanunla nəzərdə tutulmuş digər gəlirlər.

*İnfrastruktur.* UNEC-in Bakı şəhərində yerləşən 4 tədris binası, yeməkxanaları, idman zalları və poliklinikası var. Eyni zamanda Quba rayonu ərazisində “Quba tədris, idman və istirahət kompleksi”nə sahibdir. Universitetin bütün tədris binalarında müasir konfrans zalları mövcuddur.

# "UNEC – 100" İnkişaf Strategiyası

*UNEC - uğurlu yolun başlanğıcı...*

Bu gün Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) özünün böyük tarixi keçmişi və mövcud potensialına dayanaraq, gələcəyə doğru addımlayır. Ölkədə təhsilin və iqtisadiyyatın inkişaf strategiyalarının tələblərinə uyğun olaraq, 100 yaşını qeyd edəcəyi 2030-cu ilə qədərki dövr üçün "UNEC 100" İnkişaf Strategiyasını təqdim edir.

Universitetimiz "UNEC 100" İnkişaf Strategiyasında nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəfin reallaşdırılması ilə 100 yaşını qeyd edəcəyi 2030-cu ildə dünyanın ən yaxşı 500 universiteti sırasına daxil olmağı hədəfləyir. UNEC- in artan potensialı, ölkəmizin günü-gündən inkişaf edən iqtisadiyyatı və güclənən beynəlxalq nüfuzu bu vizyonun reallığa çevriləcəyinə olan əminliyimizi müəyyən edən əsas amillərdir. UNEC kollektivinin, tərəfdaşlarımızın, çoxsaylı məzunlarımızın birgə səyləri ilə reallaşdıracağımız bu Strategiya, 2030-cu ildə 100 yaşını qeyd edəcək UNEC-i yüksək keyfiyyətli ali təhsil verən, orijinal tədqiqatlar aparan, geniş sosial xidmətlər göstərən, bizneslə səmərəli əlaqələr quran, effektiv menecment sisteminə sahib olan, beynəlmiləlləşmiş və yüksək beynəlxalq reytinqli modern universitetə çevirməyi nəzərdə tutur.

**Missiyamız**

"Ölkəsi və insanlıq naminə universal dəyərlərə əsaslanaraq, yüksək keyfiyyətli tədqiqatlar aparmaq, təhsil vermək və sosial xidmətlər göstərmək"

**Gələcəyə baxış**

"100 yaşında dünyanın ən yaxşı 500 universitetindən birinə çevrilmək"

**Əsas dəyələr**

UNEC missiyasını layiqli şəkildə yerinə yetirmək və müəyyən etdiyi vizyonunu reallığaçevirə bilmək naminə aşağıdakı dəyərlərə sadiqdir:

*Akademik azadlıq*: UNEC üzvləri tədqiqat, tədris və sosial xidmət fəaliyyətində elmi prinsiplərə sadiqdirlər.

*Akademik etika*: UNEC bütün fəaliyyətində akademik etikanı qoruyur və müəlliflik hüquqlarına hörmətlə yanaşır.

*Layiqlilik*: UNEC akademik və inzibati vəzifələrin tutulmasında hər kəs üçün bərabər imkanlar yaradır və daha layiq olana üstünlük verir.

*Şəffaflıq*: UNEC fəaliyyətini bütün maraqlı tərəflərinin müşahidəsinə açıq şəkildə həyatakeçirir.

*Mükəmməllik*: UNEC üzvləri bütün fəaliyyətində daim mükəmməl olanı əldə etməyə çalışır.

*Keyfiyyətlilik:* UNEC bütün fəaliyyətində yüksək keyfiyyət prinsipinə sadiq qalır.

*İştirakçılıq*: UNEC səmərəli idarəetmə naminə üzvlərinin idarəetmənin bütün mərhələlərində aktiv iştirakını təmin edir.

*Fərqliliklərə hörmət:* UNEC bütün maraqlı tərəflərinin fərqli fikirlərinə hörmətlə yanaşır.

*Cəmiyyət mənafeyini düşünmək:* UNEC bütün fəaliyyətini ilk növbədə cəmiyyət mənafeyini düşünərək həyata keçirir.

*Ekologiyaya həssaslıq:* UNEC üzvləri dayanıqlı inkişaf naminə ekoloji tarazlığın qorunmasına səy göstərir.

**Strateji məqsədlər, hədəflər və fəaliyyətlər**

- Yüksək keyfiyyətli ali təhsil ocağına çevrilmək
- Tədqiqat universitetinə çevrilmək
- Sahibkar universitetə çevrilmək
- Sosial xidmətlərdə aparici universitetə çevrilmək
- Beynəlmiləl universitetə çevrilmək
- Daha çevik və yüksək səmərəliliyə malik universitet idarəetmə sisteminə sahib olmaq
- Yüksək beynəlxalq reytinqli universitetə çevrilmək.

# Akademik təqvim

Hər tədris ilinin əvvəlində UNEC-in rəsmi internet səhifəsində akademik təqvim elan olunur. Akademik təqvim aşağıdakı məlumatları ehtiva edir:

- fərdi tədris planlarının tərtib edilməsi və dəyişikliklərin tarixləri;
- semestrin başlama və bitmə tarixləri;
- təhsil haqlarının ödənməsi tarixləri;
- sərbəst iş və layihələrin təqdim edilməsi tarixləri;
- ara və yekun imtahanların tarixləri;
- tələbələrin təcrübələrinin başlanma və bitmə tarixləri;
- Yekun Dövlət Attestasiyasının tarixləri;
- yay semestrinin başlama və bitmə tarixləri və s.

*Ətraflı: https://unec.edu.az/application/uploads/2024/09/Akademik-t%C9%99qvim-20242025-layih%C9%99-1-2.pdf*

# UNEC-də təhsilalanların Universitetdaxili İntizam Qaydaları

## I. ÜMUMİ MÜDDƏALAR

**1.1.** "Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) Təhsilalanların Universitetdaxili İntizam Qaydaları" (bundan sonra - Qaydalar) Azərbaycan Dövlət İqtisad Universitetində (bundan sonra-UNEC) təhsil alan bütün təhsilalanların UNEC daxilində ümumi davranışında və tədris prosesi iştirakçıları ilə real və virtual müstəvidə qarşılıqlı münasibətlərində yol verməməli olduğu intizam pozuntularını və müvafiq intizam məsuliyyətini müəyyən edən normalardan ibarətdir.

**1.2.** Bu Qaydalar Azərbaycan Respublikasının Konstitusiyasına, "Təhsil Haqqında" Qanununa, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydalarına", "Təhsil prosesi iştirakçılarının etik standartlar modeli"nə və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

**1.3.** Bu Qaydaların tətbiqində əsas məqsəd təhsilalanlar arasında təlim-tədris intizamını möhkəmləndirmək və onlarda tədris prosesinə şüurlu yanaşmanı formalaşdırmaqdır.

**1.4.** Bu Qaydalar UNEC-ə daxil olduğu andan etibarən bütün təhsilalanlar üçün məcburi xarakter daşıyır.

**1.5.** Bu Qaydaların pozulmasına görə təhsilalanlara intizam tənbeh tədbirləri tətbiq edilir.

**1.6.** Bu Qaydalar bərabərlik, ədalətlilik və humanizm prinsiplərinə əsaslanır.

**1.6.1.** intizam qaydalarını pozmuş təhsilalanlar irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, maddi vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına, başqa ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq bərabərlik prinsipi əsasında intizam məsuliyyətinə cəlb olunurlar;

**1.6.2.** intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbeh tədbiri intizam pozuntusunun xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə və onun törədilməsi hallarına uyğun olaraq ədalətli olmalıdır;

**1.6.3.** intizam qaydalarını pozmuş təhsilalana tətbiq edilən intizam tənbeh tədbiri humanizm prinsipi əsaslanaraq təhsilalanın şəxsi keyfiyyətləri də nəzərə alınmaqla, onun yoldaşları arasında nüfuzunu, şərəf və ləyaqətini alçaltmaq məqsədi daşımamalıdır.

## II. İNTİZAMIN POZULMASINA GÖRƏ MƏSULİYYƏT

**2.1.** Universitetdaxili intizam qaydalarının pozulmasına görə təhsilalanlara xəbərdarlıq verilə və ya aşağıdakı intizam tənbehi tədbirlərindən biri tətbiq edilir:

- töhmət;
- sonuncu xəbərdarlıqla şiddətli töhmət;
- UNEC təhsilalanları sırasından xaricedilmə.

**2.2.** Təhsilalan eyni intizam qaydasını təkrar pozduqda ona bir sonrakı daha ağır intizam tənbehi tətbiq edilir.

**2.3.** İntizam tənbehi verilərkən aşağıdakılar nəzərə alınır:

- törədilən hadisənin ağırlıq dərəcəsi;
- vurulan ziyanin dəyəri;

- hadisənin baş vermə faktı və halları;
- intizam tənbehini yüngülləşdirən və ağırlaşdıran hallar;
- hadisənin qəsdən və ya ehtiyatsızlıqdan törədilməsi;
- hadisənin baş verməsinə təsir edən səbəb və şərait;
- təhsilalanın şəxsi keyfiyyətləri;
- təhsilalanın müvəffəqiyyət göstəriciləri.

**2.4.** Xəstəlik, tətil, akademik məzuniyyət, hamiləlik və ya doğuşa görə məzuniyyət vaxtı təhsilalanın barəsində intizam tənbeh tədbiri təqbiq edilmir və UNEC-dən xaric edilməsinə yol verilmir.

## **III.** XƏBƏRDALIĞIN EDİLDİYİ HALLAR

**3.1.** Xəbərdarlıq təhsilalanın universitetdaxili intizam qaydalarına daha diqqətli əməl etməsi barədə yazılı və ya şifahi şəkildə elan edilən rəsmi bildirişdir. Xəbərdarlıq intizam tənbehi sayılmır.

**3.2.** Xəbərdarlıq aşağıdakı hallarda verilir:

**3.2.1.** başqalarına qarşı kobudluq və hörmətsizlik etdikdə;

**3.2.2.** başqalarını narahat edəcək şəkildə ucadan danışdıqda, qışqırdıqda, mahnı oxuduqda, musiqiyə qulaq asdıqda və səs-küy saldıqda;

**3.2.3.** ətrafın təmizliyinə riayət etmədikdə;

**3.2.4.** UNEC-in səlahiyyətli şəxsləri tərəfindən verilən sorğuları üzürlü səbəb olmadan vaxtında cavablandırmadıqda;

**3.2.5.** UNEC-də müəyyən olunmuş yerlər xaricində elanlar asdıqda;

**3.2.6.** UNEC-in müvafiq strukturlarının icazəsi ilə asılmış elanları qopardıqda, dəyişdirdikdə, qaraladıqda və ya yararsız hala saldıqda;

**3.2.7.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularına yol verdikdə.

## **IV.** TÖHMƏTİN ELAN EDİLDİYİ HALLAR

**4.1.** Töhmət təhsilalanın hərəkət və davranışlarında yol verdiyi intizam pozuntuları barədə yazılı şəkildə elan edilən rəsmi bildirişdir.

**4.2.** Töhmət aşağıdakı hallarda verilir:

**4.2.1.** UNEC-in səlahiyyətli şəxsləri tərəfindən tələb olunan məlumatları onlara məqsədli şəkildə natamam və yanlış şəkildə bildirdikdə;

**4.2.2.** hərəkətləri və davranışı ilə mühazirə, seminar, laboratoriya işləri, elmi konfrans, mədəni tədbir və s. gedişini pozduqda;

**4.2.3.** UNEC-də divarlara və əşyaların üzərinə yazı yazdıqda, işarələr qoyduqda, şəkil çəkdikdə, onları korladıqda;

**4.2.4.** dərs vaxtı auditoriyada mobil telefonlardan istifadə etdikdə;

**4.2.5.** UNEC daxilində icazəsiz olaraq elanlar və digər yazılı məlumatlar yaydıqda;

**4.2.6.** imtahanlarda köçürməyə cəhd göstərdikdə;

**4.2.7.** başqalarına qəsdən sözlə və hərəkətlə sataşdıqda

**4.2.8.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## V. SONUNCU XƏBƏRDARLIQLA ŞİDDƏTLİ TÖHMƏTİN ELAN EDİLDİYİ HALLAR

**5.1.** Sonuncu xəbərdarlıqla şiddətli töhmət təhsilalanın yol verdiyi intizam pozuntusu da qeyd olunmaqla yazılı şəkildə elan edilən rəsmi bildirişdir.

**5.2.** Sonuncu xəbərdarlıqla şiddətli töhmət aşağıdakı hallarda verilir:

**5.2.1.** UNEC daxilində siyasi və dini təbliğatla məşğul olduqda;

**5.2.2.** intizam qaydalarının pozulması ilə bağlı aparılan təhqiqata mane olduqda;

**5.2.3.** UNEC-dən rəsmi şəkildə aldığı və ona aid olan sənədi istifadə üçün başqasına verdikdə və başqasına aid olan sənədi özü üçün istifadə etdikdə;

**5.2.4.** mühafizə xidmətinin tələbinə əsasən UNEC-ə tələbə bileti təqdim etmədən daxil olmaq istədikdə və ya başqasının tələbə bileti ilə UNEC-ə daxil olmağa cəhd etdikdə;

**5.2.5.** UNEC daxilində və xaricində, o cümlədən də sosial şəbəkələrdə insanların şərəf və ləyaqətini alçaldan, həqiqətə uyğun olamayan şifahi və ya yazılı formada məlumatlar yaydıqda;

**5.2.6.** UNEC daxilində spirtli içki içdikdə və ya UNEC-ə içkili vəziyyətdə gəldikdə;

**5.2.7.** UNEC daxilində qadağan olunmuş yerlərdə siqaret çəkdikdə;

**5.2.8.** imtahanlarda köçürmək və ya köçürməyə şərait yaratdıqda;

**5.2.9.** buraxılış işləri, dissertasiya və s. yazılışında müəllif hüquqlarını kobud şəkildə pozduqda;

**5.2.10.** təkbaşına və ya qrup şəklində müəllim və rəhbər işçilərin qəbul etdikləri qərarlara qarşı çıxdıqda və bununla əlaqədar təhsilalanlar arasında həmin şəxslərə qarşı təbliğat apardıqda və ya belə hərəkətlərə cəhd etdikdə;

**5.2.11.** dilinə, irqinə, dininə, cinsinə, milli mənsubiyyətinə görə tələblə yoldaşları arasında ayrı-seçkiliyə yol verdikdə və dini məzhəb kimi əlamətlərə görə qütbləşmələr yaradacaq fəaliyyət göstərdikdə;

**5.2.12.** UNEC-dəki əşyalara, qapı, pəncərə, divar və digər yerlərə ideoloji və ya siyasi xarakterli yazılar yazdıqda, şəkil, emblem və s. yapışdırdıqda;

**5.2.13.** UNEC və ona bağlı qurumlarda, cavabdeh şəxslərdən icazə almadan müxtəlif tədbirlər təşkil etdikdə və ya belə tədbirlərdə iştirak etdikdə;

**5.2.14.** UNEC-i və ya onun hər hansı bir qurumunu təmsil etmək səlahiyyəti olmadığı halda özünü səlahiyyətli şəxs kimi göstərərək bəyanatlar verdikdə;

**5.2.15.** UNEC binaları və ərazisində qadağan olunmuş yerlərə daxil olduqda;

**5.2.16.** qeyri-qanuni təşkilatlara üzv olduqda və ya bu təşkilatların lehinə fəaliyyət göstərdikdə;

**5.2.17.** UNEC-in əməkdaşına (və ya əməkdaşlarına) qarşı xüsusi kampaniya apardıqda, onun peşəkar nüfuzuna, şərəf və ləyaqətinə xələl gətirəcək məlumatlar yaydıqda, bu məqsədlə təhsilalanlar arasında imza topladıqda, onları təşkilatlandırdıqda və ya buna cəhd etdikdə;

**5.2.18.** təhsilalan dərsdə (və ya dərslərdə) iştirak etməyərək öz əvəzinə başqa şəxsin dərsdə iştirak etməsinə şərait yaratdıqda, həmçinin təhsilalan başqa təhsilalanın

yerinə dərsdə (və ya dərslərdə) iştirak etdikdə;

**5.2.19.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntusuna yol verdikdə.

## VI. UNEC TƏHSİLALANLARI SIRASINDAN XARİCEDİLMƏ HALLARI

**6.1.** UNEC təhsilalanları sırasından xaricedilmə təhsilalana bu barədə yazılı şəkildə bildirişin elan edilməsidir.

**6.2.** UNEC təhsilalanları sırasından xaricedilmə aşağıdakı hallarda tətbiq edilir:

**6.2.1.** UNEC daxilində narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə etdikdə və ya UNEC-ə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadə etmiş halda gəldikdə;

**6.2.2.** UNEC əməkdaşları və təhsilalanlarına hədə-qorxu gəldikdə;

**6.2.3.** UNEC əməkdaşları və təhsilalanlarına zor tətbiq etdikdə;

**6.2.4.** güc tətbiq edərək işçiləri və ya təhsilalanları UNEC xaricinə çıxarmaq, onların öz vəzifələrini icra etməsinə mane olmaq, başqalarını belə hərəkətlərə təhrik etdikdə;

**6.2.5.** bilərəkdən, planlı şəkildə UNEC-in nüfuzuna xələl gətirən tədbirlər keçirmək, iclaslar, mitinqlər və nümayişlər təşkil etmək, təbliğatlar apardıqda;

**6.2.6.** UNEC əməkdaşlarının şərəf və ləyaqətini, şəxsiyyətini ağır şəkildə təhqir etmək;

**6.2.7.** imtahan zalında nəzarətçinin müvafiq göstərişlərinə məhəl qoymadıqda və imtahan prosesini kobud şəkildə pozduqda;

**6.2.8.** UNEC-də oğurluq etdikdə;

**6.2.9.** UNEC-in bina və inventarlarını yararsız hala salmaq və informasiya sisteminə ciddi zərər vurduqda;

**6.2.10.** imtahanlarda hədə-qorxu gələrək köçürmək və köçürən təhsilalanların imtahan otağından uzaqlaşdırılmasına mane olmaq;

**6.2.11.** təhsilalan bilərəkdən öz əvəzinə başqasının imtahan verməsinə şərait yaratdıqda və ya başqa təhsilalanın əvəzinə imtahan verməyə cəhd etdikdə;

**6.2.12.** imtahan suallarının bir qismini və ya bütövlükdə, hər hansı bir qeyri-qanuni yolla əldə etdikdə;

**6.2.13.** UNEC-ə aid olan rəsmi sənəddə səlahiyyətli şəxsin imzasını saxtalaşdırdıqda;

**6.2.14.** UNEC sənədlərində dəyişikliklər etdikdə, başqalarını buna təhrik etdikdə;

**6.2.15.** UNEC-in informasiya bazasına girərək özünün və ya başqasının lehinə qanunsuz əməliyyatlar aparmaq;

**6.2.16.** auditoriyalarda elektron tribunalara, həmçinin elektron jurnala müdaxilə etdikdə;

**6.2.17.** UNEC əməkdaşlarını müxtəlif yollarla (rüşvət, hədiyyə, tapşırıq, hədə-qorxu, şantaj, aldatma və s.) ələ almaq məqsədi daşıyan davranışlara yol vermək;

**6.2.18.** auditoriyaya soyuq silah sayıla biləcək əşyalarla (bıçaq, digər kəsici-deşici alət, bədənə xəsarət yetirə biləcək küt alət, beşbarmaq və. s. kimi) daxil olduqda və aşkarlandığı halda həmin əşyaların təhvil verilməsindən imtina etdikdə;

**6.2.19.** yuxarıda qeyd olunmamış digər oxşar intizam pozuntularınana yol verdikdə.

## VII. KOLLOKVİUM, İMTAHAN VƏ MÜDAXİLƏ NƏTİCƏLƏRİNİN LƏĞV EDİLMƏSİ

**7.1.** Təhsilalanlar kollokvium və imtahanlarda köçürmə ilə bağlı intizam pozuntularına yol verdikdə və akademik nəticələrinin əks olunduğu sənədlərə (yazılı və ya elektron) müdaxilə etdikdə, onlar haqqında müvafiq intizam təhbehi qərarı verilməklə yanaşı, kollokvium, imtahan və müdaxilə nəticələri də ləğv edilir.

## VIII. İNTİZAM MƏSULİYYƏTİNƏ CƏLBETMƏ PROSEDURU

**8.1.** Təhsilalana intizam tənbehinin tətbiq edilməsi fakültə dekanının yazılı təqdimatı ilə rektorun əmrinə əsasən həyata keçirilir. Təhsilalan 3 gün ərzində rektorun müvafiq əmri ilə tanış edilir.

**8.2.** İntizam tənbehi müvafiq hadisənin baş verməsinin aşkar olunduğu gündən 2 ay keçənədək tətbiq edilə bilər.

**8.3.** Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat onun şəxsi işinə və transkriptinə qeyd edilir.

**8.4.** Təhsilalana tətbiq edilən intizam tənbehi haqqında məlumat onun təhsil aldığı fakültənin elanlar lövhəsində yerləşdirilir.

## IX. İNTİZAM TƏNBEHİNDƏN APELLYASİYA ŞİKAYƏTİNİN VERİLMƏSİ QAYDASI

**9.1.** İntizam tənbehi ilə bağlı rəsmi əmr haqqında təhsilalana məlumat veriləndən 3 iş günu müddətində təhsilalan apelyasiya şikayəti verə bilər.

**9.2.** Apelyasiya şikayəti rektora ünvanlanır.

**9.3.** Apelyasiya şikayəti ilə bağlı rektor tərəfindən apelyasiya komissiyası yaradılır və 5 iş günü müddətində araşdırma aparılır. İlkin araşdırmada iştirak edən şəxslər apelyasiya komissiyasının üzvü ola bilməzlər.

**9.4.** Apelyasiya komissiyası şıkayəti araşdırır və intizam tənbehi ilə bağlı verilən qərarın qüvvədə saxlanması, ləğv edilməsi və ya ona dəyişikliklər edilməsi barədə rekora tövsiyələrini verir.

**9.5.** Apelyasiya komissiyasının tövsiyələrinə əsasən rektor son qərar verir və bu qərar qətidir.

**9.6.** Təhsilalana intizam tənbehi tətbiq edildiyi gündən 1 il ərzində yenidən intizam məsuliyyətinə cəlb edilməmişsə, intizam məsuliyyətinə ümumiyyətlə cəlb edilməmiş sayılır.

**9.7.** Dərslərində və davranışlarında yaxşı göstəricilərə görə intizam tənbehi 6 aydan sonra vaxtından əvvəl götürülə bilər.

## X. YEKUN MÜDDƏALAR

**10.1.** Qaydaların həyata keçirilməsinə UNEC Rektoru nəzarət edir.

**10.2.** Qaydalara əlavə və dəyişikliklər UNEC Elmi Şurasında müzakirəyə çıxarılır və Elmi Şuranın qərarı ilə təsdiq olunur.

***10.3.*** Qaydalar UNEC Elmi Şurasında təsdiq edildiyi gündən qüvvəyə minir.

# UNEC Təhsilalanlarının Etik Davranış Kodeksi

UNEC təhsilalanları universitetdə qeydiyyatdan keçdiyi andan etibarən aşağıda qeyd edilən etik dəyər və prinsipləri real və virtual müstəvidəki bütün fəaliyyətlərində rəhbər tutacaqlarına şərəf sözü verirlər:

1. Başqalarının fikir və düşüncələrini ifadə azadlıqlarına hörmət göstərmək;
2. Ayrı-seçkilik etmədən fərqliliklərə hörmət etmək, baqşalarına qarşı şərəf və ləyaqəti alçaldıcı davranışlara yol verməmək; Universitetin professor-müəllim və inzibati heyətinə və digər təhsilalanlara qarşı hörmətlə davranmaq;
3. Söz və ya hərəkətlərlə başqalarına qarşı zorakılığa və təhqirə yol verməmək;
4. Başqasının akademik və şəxsi məlumatlarını həmin şəxsin icazəsi olmadan əldə etməmək və yaymamaq;
5. Ətraf mühitə və canlı aləmə zərər vermədən, yaşadığı və fəaliyyət göstərdiyi ərazini təmiz saxlayaraq, səs və görüntü kirliliyi yaratmadan və məhdud resurslardan səmərəli istifadə edərək kampüsdə keyfiyyətli həyatın davamlılığını təmin etməyə çalışmaq;
6. Dərslərə davam etmək və keçirilən imtahanlarda iştirak etmək. Ev tapşırığı, sərbəst iş, hesabat hazırlama və.s. öhdəlikləri vaxtında yerinə yetirmək;
7. Qiymətlərini və akademik vəziyyətini daim diqqətdə saxlamaq;
8. Akademik təqvimi və qaydaları bilmək, diqqətdə saxlamaq və onlara əməl etmək;
9. Aşağıdakı elmi plagiat və digər akademik dürüstlük prinsiplərinə əməl etmək:
   - Bütün akademik fəaliyyətlərdə qiymətləndirmələrin yalnız öz intellektual əməyinin nəticələri əsasında aparılacağını, başqasının fikir, təklif və düşüncələrini mənbə göstərmədən, qismən və ya bütövlükdə köçürmənin və / və ya tərcümə etmənin yolverilməzliyini dərk etmək;
   - Nəşr edilmiş və ya əlyazma formasında olan hər hansı bir mənbədən (məsələn, məqalə, kitab, hesabat, baqşa bit təhsilalanın tədqiqatı, internet mətni və.s.) istifadə edərkən müvafiq qaydada istinadlar vermək;
   - Başqası tərəfindən edilmiş və / və ya başqasına etdirilmiş tədqiqatı öz tədqiqatı kimi təqdim etməmək;
   - İmtahanlarda köçürməmək və başqalarına bu işdə kömək etməmək;
   - Elektron sənədlər də daxil olmaqla, heç bir sənəddə özünün və başqalarının lehinə / və ya əleyhinə təhriflərə yol verməmək;
10. Haqsız rəqabətə gətirib çıxaran davranışlara yol verməmək və dəstək göstərməmək;

11. Təhsil aldıqları müddət ərzində öyrəndikləri bütün bilikləri və qazandıqları bütün bacarıqları yalnız insanlığın faydası üçün istifadə etmək;
12. Təyin edilən görüşlərə vaxtında gəlmək;
13. Tədbirlərdə iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat vermək;
14. Üzvü olduğu seçkili strukturların seçki proseslərində aktiv iştirak etmək;
15. Özü ilə bağlı məlumatların yeni və dürüst olmasına görə məsuliyyət daşımaq və bu istiqamətdə zəruri addımları atmaq.

# Keyfiyyət Təminatı Sistemi

## UNEC Keyfiyyət Təminatı Sisteminin məqsəd və hədəfləri:

**Keyfiyyət təminatı -** ali təhsil standartlarının və keyfiyyətin ali təhsilin tələblərinə və normalarına uyğun olmasını yoxlamaq üçün Universitet tərəfindən həyata keçirilən idarəetmə və təşkilati prosesləri təsvir edir.

**Keyfiyyətin yüksəldilməsi -** davamlı təhsil, tədqiqat və ictimai xidmətin ölçülərini təkmilləşdirmək üçün Universitet tərəfindən həyata keçirilən idarəetmə və təşkilati prosesləri təsvir edir.

UNEC Keyfiyyət Təminatı əsas korporativ dəyərlərimizi və strateji planımızın məqsədlərini əks etdirən missiyamız əsasında UNEC-100 "İnkişaf strategiyası" - na "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"-nə, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar (ESG) standartlarına və beynəlxalq təcrübəyə əsaslanır. UNEC öz missiyasını, vizyonunu və dəyərlərini yerinə yetirə bilən idarəetmə yanaşması əsasında yaratdığı idarəetmə strukturundan asılı olaraq işlərini davam etdirir və inkişaf etdirir.

UNEC təhsil proqramlarında və tədqiqatlarında müvafiq standartların əldə edilməsini və qorunub saxlanmasını təmin etmək, milli və beynəlxalq standartlara uyğun yüksək keyfiyyətli təhsil vermək öhdəliyini qarşısına məqsəd qoyur. Həmin məqsədlərə tələbələri cəmiyyətdə fəal vətəndaş olmağa və gələcəkdə karyera qurmağa (məşğulluq imkanlarına tövhə verməklə) hazırlanması, şəxsiyyət kimi inkişaf etmələrinə töhfə verilməsi, müasir və geniş biliklər bazasının yaradılması, tədqiqat və innovasiyaların stimullaşdırılması da daxildir.

Təlimat universitetimizin məqsədlərinə və arzu olunan nəticələrə nail olmaq üçün bütün universitetdə davam edən ***keyfiyyət təminatı mədəniyyətinin*** və keyfiyyətin yaxşılaşdırılması proseslərinin inkişafına töhfə verəcək tədqiqatlara rəhbərlik etməyi hədəfləyir.

### UNEC Keyfiyyət Təminatı Sisteminin prinsipləri və inkişafı prosesi

UNEC Keyfiyyət Təminatı Sistemi universitetin missiya və vizyonuna uyğun olaraq universal dəyərlərə, akademik muxtariyyətə, cəmiyyətlə qarşılıqlı əlaqəyə əsaslanır; akademik, təhsil və tədqiqat fəaliyyətlərinin keyfiyyətinin artırılması, lazımi standartların təmin edilməsi, bütün maraqlı tərəflərin iştirakı və məmnunluğu, davamlı təkmilləşdirmə və davamlılıq prinsipini qəbul edən bir sistemə əsaslanır.

Universitetdə keyfiyyət təminatının inkişafı və keyfiyyət mədəniyyətinin formalaşmasında aşağıdakı prinsiplər nəzərə alınır.

- Keyfiyyət təminatının yaxşılaşdırılması - Tədrisin, təlimin, tədqiqatın və akademik fəaliyyətlərini ən yüksək keyfiyyətini təmin etmək universitet strategiyasının bir hissəsidir.
- Əməkdaşlıq yanaşmasına (bütün maraqlı tərəflərin iştirakı vacibdir) əməl edilir. O, universitetin bütün sahələrini və ona töhfə verən bütün maraqlı tərəfləri əhatə edir.
- Universitetin bütün sahələrində keyfiyyətin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlər sənədləşdirilir, monitorinq edilir, nəzərdən keçirilir və qiymətləndirilir.
- Keyfiyyət Təminatı Sistemi şəffaf, sistemli və ədalətlidir. Universitetdə dəstəklənən bir prosesesdir.

Universitetdə keyfiyyət təminatının inkişafı işləri Keyfiyyət təminatı şöbəsi tərəfindən həyata keçirilir. Keyfiyyət təminatı şöbəsi ali təhsil müəssisəsində tədris və sosial xidmətlərin keyfiyyətinin təminatı, yüksəldilməsi və inkişaf konsepsiyalarının həyata keçirilməsi üzrə təkliflərin hazırlanması və icrası,

tələbəyönlü tədris mühitinin formalaşmasına dəstək və tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə və dövlət standartlarının tətbiqinə nəzarət kimi funksiyaları, Avropa təhsil standartlarına inteqrasiya şəraitində universitetin fəaliyyət istiqamətlərinə uyğun digər dövlətlərin qabaqcıl təcrübəsini öyrənmək, onun tətbiqi sahəsində fəaliyyəti həyata keçirtmək və bu istiqamətdə universitet rəhbərliyinə təkliflər vermək, keyfiyyət təminatı modeli əsasında tədrisin keyfiyyətinin qiymətləndirilməsi və yerli və xarici akkreditasiyanın keçirilməsinə hazırlıq prosesinin təşkilinin təmin edilməsinə nəzarəti həyata keçirən və birbaşa rektora tabe olan funksional struktur bölmədir. Bu kontekstdə Keyfiyyət təminatı şöbəsinin bütün universitetdə keyfiyyət təminatı mədəniyyətini təbliğ edərkən müxtəlif prinsipləri nəzərə alır. Bu prinsiplər:

- Universitetin keyfiyyət təminatının təkmilləşdirilməsi üçün strategiyaları, siyasəti, sistemləri, prosedurları və təcrübələri təşkil etmək;
- Universitet daxilində akademik keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsi;
- Təlim, tədris və tədqiqatda akademik mükəmməlliyi təşviq etmək üçün bütün universitetdə universitetin keyfiyyətinin, onun keyfiyyət təminatının inkişaf strategiyalarının monitorinqi, nəzərdən keçirilməsi, auditi, qiymətləndirilməsi və davamlı olaraq təkmilləşdirilməsi;
- Universitetin bütün səviyyələrində keyfiyyət təminatının inkişafı tədqiqatları çərçivəsində xarici qurum və təşkilatlar tərəfindən həyata keçirilən proqram akkreditasiya proseslərinə dəstək vermək;
- Keyfiyyətin daxili qiymətləndirmə proseslərinə nəzarət etmək, nəzərdən keçirmək, qiymətləndirmək və davamlı olaraq təkmilləşdirmək;

### Fəaliyyət İstiqamətləri

Keyfiyyət təminatı meyarlarının müəyyən olunması və göstəricilərin təyin olunması UNEC-də ilk öncə fəaliyyəti zamanı nəzərə alınmalı məsələlərin qısa xülasəsinin təqdim olunması baxımından faydalıdır. Əlavə olaraq təhsilin idarə edilməsi modelinin tərkib hissəsi olaraq resurslar proses və nəticəlilik baxımından icra edilə bilən strateji elementləri özündə əks etdirir.

**Meyar və İndikatorlar**

**1. İşə götürənlər: Dövlət və özəl sektor, ictimaiyyət - Təhsil proqramı və işəgötürənlər arasında uyğunluğun təmin olunması**

1.1 Işəgötürənlərin ehtiyaclarının nəzərə alınması
1.2 Sənaye ehtiyaclarının qarşılanması və təhsil prosesinin son trendlərə uyğunluğunun təmin olunması
1.3 İşəgötürənlərlə əməkdaşlıq
1.4 Cəmiyyətə faydalılıq

**2. Tələbələr - Proqramla tələbə əlaqəsinin Nəzəri və səriştə əsaslı qiymətləndirilməsi, tələbələr və onlar məzun olduqdan sonra işlə təminat məsələlərini barədə məlumatın mütəmadi toplanma mexanizmlərinin qiymətləndirilməsi**

2.1 Proqramın təbliği və məlumatlandırma
2.2 Yeni tələbələrin UNEC ilə tanışlığı (qəbul sonrası)
2.3 Tələbə ehtiyaclarına diqqət – inzibati, akademik, sosial rifah və kurrikulum dəstəyi (təhsil müddətində)
2.4 Tələbə performansının qiymətləndirilməsi
2.5 Tələbə məmnunluq səviyyəsinin ölçülməsi (proqram və əlavə xidmətlər barədə)
2.6 Məzunlarla iş

**3. Təhsil sistemi (proqramları və kurrikulum) - Kurrikulumun proqram tələblərinə uyğunluğu ilə yanaşı tədris təminat fəaliyyətləri və üsullarının yoxlanması və Kurrikulumun məqsəd yönlüyü və optimal inkişafı və nəticəliyinin təmin olunması.**

3.1 Kurrikulumun hazırlanma metodologiyası
3.2 Kurrikulumun uyğunluğu
3.3 Pedaqoji üsulların effektivliyi
3.4 Kurrikulumun tətbiqi üçün təminat avadanlıqların mövcudluğu və yararlılığı

**4. Fakültə (akademik heyət) - Akademik heyətin işə qəbulu və peşəkar inkişaf etdirilməsi ilə bağlı mühitin formalaşdırılması üçün əvvəlcədən müəyyən olunmuş mexanizmlərin mövcudluğu.**

4.1 Akademik heyətin işə qəbulu
4.2 Akademik koordinasiya
4.3 Fəaliyyətin qiymətləndirilməsi
4.4 Bilik və bacarıqların mütəmadi təkmilləşdirilməsi

**5. İdarəetmə (inzibati menecment) - Proqram keyfiyyət təminatının monitorinqini dəstəkləyən təşkilatı struktur və təminat mexanizmlərinin mövcudluğu.**

5.1 Təşkilat
5.2 Keyfiyyət təminatı sistemi

**Məqsədlər (Objectives) (4 İllik)**

**1. İşə götürənlər: Dövlət və özəl sektor, ictimaiyyət:**

a. İxtisaslar üzrə sənaye müəssisələri ilə 90% real əməkdaşlıq əlaqələrinin qurulması (Tədris, təlim, tədqiqat, təcrübə müqavilələri);
b. Sənaye (biznes dünyası) ehtiyaclarının öyrənilməsi üçün tədqiqat mexanizminin qurulması;
c. Sənaye (biznes dünyası) ehtiyaclarına xidmət edən qısa müddətli sertifikasiya proqramlarının qurulması;
d. Sənaye (biznes dünyası) ilə birgə (1) kommersiya müəssisəsinin qurulması üçün mexanizmin işlənib hazırlanması
e. 4 Sosial layihə mexanizminin uğurlu icrasının həyata keçirilməsi

**2. Tələbələr:**

a. Beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələrin qurulması (Silk Road School);
b. Tələbə qəbulu üzrə orta keçid balının I qrup üzrə 450 bal, II qrup üzrə 500 bal, III qrup üzrə 500 bal, IV qrup üzrə 350 bal, V qrup üzrə də 250 balın üzərinə çıxarılması;
c. Tələbə inkişafı (nəzəri) - imtahan prosesinə sənaye meyarlarının cəlb olunması;
d. Tələbə inkişafı (təcrübi) - beynəlxalq şirkətlərdə təcrübə keçən tələbələrin sayının 70%-a çatdırılması;
e. Məzun olduqdan sonra birinci ildə işlə təminatın (işə qəbul indeksi) 90%-a çatdırılması; f. Məzunlarla işin təşkili üçün mexanizmin işlənib hazırlanması;

**3. Təhsil sistemi (proqramları və kurrikulum):**

a. İxtisaslar üzrə kurrikulumların beynəlxalq standartlara uyğunluğunun (70%) təmin olunması;
b. Xarici dilin tədrisində dünya təcrübəsinin tətbiqi.
c. Dərslərin keçirilmə metodologiyası ilə bağlı təkliflər sənədinin hazırlanması
d. İxtisaslar üzrə 2li diplom proqramlarının sayının 70%ə çatdırılması.
e. Fənlər üzrə distant tədris proqramının hazırlanması

**4. Fakültə (akademik heyət):**

a. Akademik heyətin performansının artırılması;
b. Akademik heyətin semestr üzrə təlimlərdə iştirak göstəricisinin 80%-ə çatdırılması;
c. Əcnəbi elmi rəhbərlərin cəlb olunma mexanizminin qurulması;
d. Tədqiqata dəstək mexanizmlərinin işlənib hazırlanması;
e. Sahələr üzrə çevik tədqiqat qruplarının yaradılması; f. Əcnəbi müəllimlərin cəlb olunma mexanizminin işlənib hazırlanması;

**5. İdarəetmə (inzibati menecment):**

a.İngilis dilli ixtisasların (3) akkreditasiyasının 2023-cü ilin sonuna kimi tamamlanması;
b.İngilis dilli ixtisasların (hamısının) akkreditasiyasının 2026-cü ilin sonuna kimi tamamlanması;
c.Daxili keyfiyyət təminatı sisteminin planlama, tətbiqi, monitorinqi və yenidən tətbiqi üçün pilot fakültə ilə işlərin başlanması;
d.Daxili keyfiyyət təminatı üzrə monitorinqin həyata keçirilməsi üçün fəaliyyətlərin idarə olunması elektron sistemlərin tətbiqi (2023-cü ilin sentyabr ayına kimi);
e.İnzibati heyətin diferensial əməkhaqqı sisteminin yaradılmasına dəstək göstərilməsi və 2023-cü ilin yanvar ayından etibarən tətbiqinə başlanması. f. KT sahəsində ən son təcrübənin öyrənilməsi üçün əlaqələrin genişləndirilməsi və beynəlxalq səfərlərin təşkili. g. KT üzrə təlimat kitabının hazırlanması

**UNEC Keyfiyyət Təminatı Sistemi Standartları və Əsas Prinsipləri**

1. **Keyfiyyət Təminatı Sistemi**

**Standart:** Universitet ictimaiyyət üçün açıq olan və starteji idarəetmənin bir hissəsini təşkil edən ***keyfiyyət təminatı Sisteminə*** malikdir. Universitetin idarəetmə, təhsil, tədqiqat və ictimai xidmətlə bağlı bütün Sistem və təcrübələri keyfiyyətin təminatına, keyfiyyətin yaxşılaşdırılmasına və ya müvafiq xarici standartlara (xarici akkreditasiyası üçün proqram standartları) uyğunluğunu tam və ya qismən tətbiq edir.

Keyfiyyət Təminatı Sisteminin və tələblərinin həyata keçirilməsi ilə bağlı məsuliyyətlər universitet rəhbərliyi tərəfindən müəyyən edilmişdir. Nəticədə:

**Rektorluq,** Universitetin bütün fəaliyyətlərində keyfiyyətin idarə olunması, keyfiyyət təminatı və ali təhsil standartlarına uyğunluğun təmin edilməsinə cavabdehdir.

**Keyfiyyət Komissiyası,** idarəetmə sahələrində müvafiq ali təhsil standartlarına uyğunluq, keyfiyyətin yüksəldilməsi və keyfiyyətin təminatı üçün məsuliyyət daşıyır.

**Dekanlar/Məktəb və Mərkəz direktorları** akademik və inzibati fəaliyyətlərə rəhbərlik etmək və fakültələrinə/məktəblərinə/mərkəzlərinə uyğun olaraq lazımi standartların və qaydaların hazırlanmasını təmin etmək üçün məsuliyyət daşıyırlar.

**Fakültə /Məktəb Şuraları** və **Keyfiyyət Komissiyasının** nümayəndələri problemlərin aidiyyəti bölmələrə çatdırılması və universitetin keyfiyyət Sisteminə əməl olunmasına nəzarət edilməsinə cavabdehdir.

**Maliyyə departamenti,** maliyyə sahələrində müvafiq ali təhsil standartlarına uyğunluğa cavabdehdir.

Universitetin bütün strukturları universitetin Sistem və təcrübələrində, vəzifə təlimatlarında və vəzifə təsvirlərində qeyd edildiyi kimi, bilavasitə təhsil sahələri ilə əlaqəli olduğundan, Universitetin keyfiyyət sisteminin həyata keçirilməsinə, keyfiyyətin təmin edilməsinə və təkmilləşdirilməsinə, ali təhsil standartlarına uyğunluğuna cavabdehdir.

Tələbələr universitetdə keyfiyyətin təmin edilməsinə və keyfiyyətin yüksəldilməsinə töhfə vermək üçün məsuliyyət daşıyırlar.

Xarici maraqlı tərəflər universitetdə keyfiyyət təminatının dəstəklənməsinə cavabdehdirlər.

**UNEC Keyfiyyət Təminatı Sistemini - Planla – Tətbiq et – Nəzarət et -Tədbir al (PİNT tsikli) konsepsiyasına əsaslanır.**




Universitetin bütün fəaliyyətlərinə daxil edilmiş PİNT tsiki çərçivəsində davam edən keyfiyyətin təkmilləşdirilməsi işi aşağıda müəyyən edildiyi kimi dövri sistemdir və universitetin keyfiyyət təminatı sistemi Sisteminə daxil edilmiş bütün fəaliyyətlərin əsas alətidir.

**Planla:** Standartlar, tədbirlər, göstəricilər, hədəflər daxil olmaqla keyfiyyəti qorumaq və ya yaxşılaşdırmaq və nəticələrə nail olmaq üçün planların, Sistemlərin, proseslərin və məsuliyyətlərin müəyyən edilməsi;

- Nə edəcəyimizi və necə edəcəyimizin planlaşdırılması;
- Tədbirlər;
- Təlimlər;
- Qaydalar;
- Tövsiyələr

**İcra et:** Planda olan tədbirlərin icra edilməsi;
İrəliləyiş/ fəaliyyət / nəticələrin müntəzəm monitorinqi və planlaşdırılmış tədbirlərin, o cümlədən hesabatların həyata keçirilməsi.

**Nəzarət:** Planın icrasına nəzarət edilməsi və ilkin planın həqiqətən işlədiyinin yoxlanılması
Planlaşdırılmış düzəlişlərin effektivliyinin və təsirinin qiymətləndirilməsi də daxil olmaqla, planlaşdırılan düzəlişlərin nə qədər arzu olunan effektivliyin dəlillərə əsaslanan araşdırması və qiymətləndirməsi.

**Tədbir al:** Monitorinq nəticələrinin qiymətləndirilməsi və sapmaların səbəblərinin aşkarlanması.

**Bu döngənin (PİNT) əhatə edən sahələr,**

**İdarəetmə:** Keyfiyyətin idarə edilməsi Sistem və prosedurları effektiv şəkildə inkişaf etdirmək, həyata keçirmək və monitorinq etmək, akademik və inzibati vahidlərin və xidmətlərin keyfiyyətini yüksəltmək məqsədi daşıyır. Universitetdə keyfiyyət təminatının əsasını təşkil edən prinsiplər inkişaf xarakteri daşıyır və universitet daxilində və xaricində bütün müvafiq tərəflərin iştirakı ilə davamlı təkmilləşməni təmin edir. Davamlı təkmilləşdirmə keyfiyyət təminatının həm vasitəsi, həm də nəticəsidir. UNEC-də

hər bir işçi keyfiyyət təminatında rol oynasa da, əsas fəaliyyətlər universitet daxilində müxtəlif komissiyalar/komitələr/şuralar tərəfindən həyata keçirilir.

**Təhsil:** Tələbə yönümlü təhsil-tədris anlayışının mənimsəməklə, müəssisə tələbənin öyrənməsini dəstəkləmək üçün lazımi resursların yetərliyini və proqramların aktuallığını təmin etmək, özünə güvənən, bərabərlikçi, intellektual, zəngin iş axtaran deyil, iş üçün axtarılan, təşəbbüskar və yenilikçi məzunların yetişdirilməsini təmin edir. Universitet tələbələrə təşəbbüskar vətəndaşlar və məsuliyyətli liderlər olmağa imkan verən, həmçinin xidmət etdiyimiz icmalar üçün iqtisadi və sosial rifahı gücləndirən mükəmməl universitet təhsili verməyə çalışır.
UNEC, orta ixtisas, bakalavr, magistr (o cümlədən, MBA), doktorantura, ikinci təhsil və əlavə təhsil proqramları üzrə təhsil xidmətləri göstərir. Hazırda UNEC, ölkədə 4 dildə - azərbaycan, türk, rus, ingilis dillərində - təhsil verən yeganə ali təhsil ocağıdır. "E-universitet" layihəsi əsasında UNEC-də tədris prosesi tamamilə elektronlaşdırılmışdır. Eyni zamanda Azərbaycanda ilk dəfə olaraq, beynəlxalq standartlara cavab verən distant təhsil mərkəzi və 7/24 fəaliyyət göstərən müasir kitabxanaya da malikdir. Universitetdə nüfuzlu xarici universitetlərlə birgə bir çox ikili diplom proqramları, tələbə və müəllim mübadilə proqramları həyata keçirir. Əcnəbi tələbələrin UNEC-ə qəbulu prosesi internet üzərindən tamamilə elektronlaşdırılmış qaydada aparılır. UNEC təhsilin keyfiyyətini artırmaq məqsədilə fasiləsiz olaraq, tədris plan və proqramlarının təkmilləşdirilməsi, tədrisdə müasir texnologiyalardan istifadə və professormüəllim heyətinin peşə bacarıqlarının artırılmasına xüsusi əhəmiyyət verir.

**Tədqiqat:** UNEC-də elmi tədqiqatlar elmi-tədqiqat institutu, innovativ biznes inkubator, kafedralar, tədqiqat mərkəzləri və labaratoriyalarda həyata keçirilir. Universitetin elmi jurnalları və virtual iqtisadi forumu mövcuddur. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə UNEC Tədqiqat Fondu, differensial əmək haqqı sistemi və nüfuzlu jurnallarda məqalə nəşrinə görə mükafatlandırma sistemi fəaliyyət göstərir.UNEC alimləri milli və beynəlxalq donor təşkilatların qrantları, ayrı-ayrı dövlət və özəl şirkətlərin sifarişləri əsasında elmi tədqiqat layihələri həyata 5 keçirirlər. Eləcə də son illər UNEC alimlərinin "Web of Science", "Scopus" kimi nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap edilən əsərlərinin sayı sürətlə artır.

**Sosial xidmət:** UNEC-də fəaliyyət göstərən "İqtisadçı tələbələrin elmi fəaliyyətinə yardım" İctimai Birliyi, Tələbə Elmi Cəmiyyəti, Tələbə-gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, "İqtisadçı tələbələrə dəstək" İctimai Birliyi və digər tələbə təşkilatları hər il çoxlu sayda müxtəlif sosial məsuliyyətlilik layihələri həyata keçirirlər. Universitetin "İnkluziv təhsil mərkəzi" əlilliyi olan tələbələrin cəmiyyətə inteqrasiyası, onlar üçün bərabər təhsil imkanlarının yaradılması məqsədilə vaxtaşırı tədbirlər və layihələr icra edir. UNEC ayrı-ayrı sosial problemlərlə bağlı QHT-lərlə əməkdaşlıq çərçivəsində çoxlu sayda maarifləndirmə tədbirləri, kompaniyalar aparılır. Eləcə də çoxsaylı ekspert heyəti ilə müntəzəm olaraq mətbuatda iqtisadi maarifləndirmə işini həyata keçirir.

# Təhsilin təşkilində kredit sistemi

Tədris ili iki semestrdən (payız və yaz) ibarətdir. Bundan əlavə, yay tətili müddətində 6 həftədən çox olmayaraq yay semestri də təşkil oluna bilər.

Ali təhsilin hər iki səviyyəsində (bakalavr/magistratura) əyani təhsilalma forması üzrə tədris ili 40 həftədir. Hər semestr 20 həftədən (o cümlədən, 5 həftə imtahan sessiyası) ibarətdir. Bir semestrə, tədrisə tam cəlb olunan (fulltime) tələbəyə 30 (tələbənin prerekvizit fənn və ya fənlərdən akademik borcu qaldığı halda, kreditlərin sayı az ola bilər), tədrisə qismən cəlb olunan (parttime) tələbəyə 20-yə qədər kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir (yay semestri istisna olmaqla). Buraxılış işinin, magistr dissertasiyasının hazırlanmasına və müdafiəsinə, eləcə də buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir.

Qiyabi təhsilalma forması üzrə tədris ili 32 həftədir. Hər semestr 16 həftədən (o cümlədən, 1 həftə imtahan sessiyası) ibarətdir və hər semestrə 24 kredit müəyyənləşdirilir.

İxtisasın (ixtisaslaşmanın) təhsil müddətindən asılı olaraq, tələbələrə bakalavriatda 240-300 kredit, magistraturada təhsilin normativ müddəti 1,5 il olduğu halda 90, 2 il olduğu halda isə 120 kredit müəyyənləşdirilir. Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir.

Tədrisə tam cəlb olunan (fulltime) tələbəyə əlavə fənn (fənlər) də seçməyə icazə verilir. Bu halda təhsil haqqının ödənilməsi bu kreditlərə uyğun həyata keçirilir. Dövlət sifarişi ilə təhsil alan və bütün təhsil müddətində ayrı-ayrı fənlərdən göstəricisi 81-100 bal arasında olan tələbələrə əlavə ödəniş etmədən təhsil aldığı ixtisas üzrə əlavə fənn (fənlər) seçməyə icazə verilir. Bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

Tələbəyə bakalavriat səviyyəsində gələcək peşə fəaliyyətində istifadə etməsi və ya oxşar ixtisas üzrə (təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi eyni olduğu halda) əlavə təhsil alması məqsədi ilə, ödənişli əsaslarla müvafiq ixtisasların fənnini (fənlərini) seçmək hüququ da verilir. Bu şərtlərlə əlavə təhsil alanlara həmin ixtisas üzrə bakalavr dərəcəsi və müvafiq diplom verilir.

Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə görə fənn üzrə müvəffəq qiymət almış tələbə həmin fəndən kreditləri qazanmış hesab olunur. Cari və aralıq qiymətləndirmənin ümumi nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə qeyri-müvəffəq qiymət almış, eləcə də üzrlü və ya üzrsüz səbəbdən imtahanda iştirak etməmiş tələbə bu fəndən kreditləri qazanmır, yəni həmin fənn üzrə akademik borcu qalır. Cari və aralıq qiymətləndirmənin nəticələrinə, habelə aralıq qiymətləndirmənin nəticəsinə görə, eləcə də üzrsüz səbəbdən imtahanda iştirak etmədiyinə görə akademik borcu yaranmış tələbəyə həmin fənn (fənlər) üzrə təkrar imtahan vermək və ya fənni (fənləri) yenidən dinləmək üçün şərait yaradılmalıdır. Bu halda fənni (fənləri) yenidən dinləmədən kreditləri qazanmaq istəyən tələbə bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddətdə həmin fənn (fənlər) tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək və ya növbəti semestrlərdən birində imtahan sessiyası zamanı) istifadə edə bilər. Tələbə (üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr istisna olmaqla) hər semestrdə fənni (fənləri) dinləmədən ümumilikdə iki fənn üzrə (hər fəndən bir dəfə olmaqla) imtahanda iştirak edə bilər. Üzrlü səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən tələbəyə isə növbəti semestrin dərsləri başlanana qədər bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Bu imkandan istifadə etməyən tələbə üzrsüz səbəbdən imtahanda iştirak etməyən tələbə hesab olunur. Bütün hallarda təkrar imtahan

verən tələbənin ümumi qiymətləndirilməsi zamanı onun fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin nəticələri nəzərə alınır və qazandığı kreditlər tədris planı üzrə həmin fənni (fənləri) dinlədiyi semestrə aid olunur. Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə növbəti semestrin dərsləri başlanana qədər imtahanda iştirak etdikdə, həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir, digər hallarda isə tələbənin imtahan üçün ödəniş haqqı kreditlərə uyğun həmin fənn üçün müəyyən edilən məbləğin 25 faizini təşkil edir. Bütün digər hallarda akademik borcu olan tələbə fənni yenidən dinləməli və həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun (onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir. Bu halda təhsil haqqının ödənilməsi kredit haqlarına uyğun həyata keçirilir.

Tələbə ali təhsil müəssisəsini bitirmək üçün tələb olunan kreditləri ixtisasın normativ təhsil müddətindən sonrakı 3 ildə (həqiqi hərbi xidmət müddəti nəzərə alınmamaqla) toplaya bilmədiyi halda o, məzmununda əsaslı dəyişikliklər edilən peşə hazırlığı fənlərindən əvvəllər qazandığı kreditləri itirir. Tələbə həmin kreditləri tədrisin təşkili haqqında qaydaların tələblərinə uyğun olaraq yenidən yığmalıdır.

Fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbə həmin fəndən imtahana buraxılmır.

Hər bir təhsilalan növbəti tədris ili üçün öz fərdi tədris planını iyulun 5-dən 15-dək fakültəyə təqdim etməlidir.

# İmtahan sessiyasının təşkili və keçirilməsi qaydaları

Hər tədris ilinin payız və yaz semestrlərinin sonunda 5 həftə ərzində imtahan sessiyası təşkil olunur. İmtahanların keçiriləcəyi dövr tədris ilinin əvvəlində akademik təqvimdə təsdiq olunur və UNEC-in saytında elan olunur.

İmtahanlar bakalavriat səviyyəsində test və yazılı üsullarda, habelə qabiliyyət imtahanı kimi, magistratura səviyyəsində isə yazılı üsulda keçirilir.

İmtahanda qazanılan balların maksimum miqdarı 50 baldır. Tələbənin imtahandan topladığı balın miqdarı minimum 17 bal olmalıdır. Əks halda tələbənin imtahan balı semestr ərzində topladığı digər ballarla cəmlənmir və onun həmin fəndən akademik borc yaranır.

Test üsuluda keçirilən imtahanlarda tələbəyə proqram təminatı tərəfindən seçilmiş 50 ixtiyari test təqdim olunur. Hər doğru cavablandırılmış test 1 bal formalaşdırır. Yanlış cavablandırılmış testə görə imtahan balı azaldılmır.

Yazılı üsulda təşkil olunan imtahanlarda semestrin əvvəlində tələbələrə təqdim edilən suallardan 3-ü asan, 3-ü orta, 1-i isə çətin sual olmaqla ümumilikdə 7 sual təqdim olunur. Tələbələr onlara təqdim olunan 7 sualdan 5 sual seçir və istədiyi sualdan başlayaraq cavablandırır. Bir qayda olaraq çətin sual üzrə seçim imkanı verlmir.

Cavablandırılan hər bir sual 10 bal üzərindən qiymətləndirilir. Çəkidən asılı olaraq asan sualın hər biri maksimum 5 bal, orta sualın hər biri 10 bal, çətin sual isə 20 bal formalaşdırır. İmtahan müddəti 100 dəqiqə müəyyən edilir.

Qabiliyyət tələb edən fənlər üzrə imtahanlar hər bir fənnin özünəməxsus xususiyyətləri nəzərə alınmaqla praktik əl işlərinin yerinə yetirilməsi əsasında keçirilir. İmtahan müddəti 120 dəqiqə müəyyən edilir və əl işləri bu məqsədlə hər tədris ilində yaradılan komissiya tərəfindən qiymətləndirilir.

İmtahanın keçirilməsi üsulundan asılı olmayaraq qiymətləndirmədən və ya sualların (testlərin) tərtibatından narazılığı olan təhsilalanlar imtahan nəticələri elan edildiyi gündən sonrakı 3 gün ərzində şəxsi kabinetlərindən elektron apelyasiya müraciəti edə bilərlər.

Üzrlü səbəbdən imtahanda iştirak etməyən bakalavr və magistarntlara növbəti semestrin dərsləri başlayana qədər bir dəfə həmin fəndən imtahan vermək imkanı yaradılır. Üzrsüz səbəbdən imtahanda iştirak etməyən təhsilalanların həmin fənn(fənlər) üzrə akademik borcu yaranır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14 iyun 2017-ci il tarixli 257 nömrəli qərarı əsasında üzrsüz səbəbdən imtahanda iştirak etməyən və ya nəticəsi qeyri-müvəffəq olan təhsilalanlara akademik borcu yaranmış fəndən təkrar imtahan vermək imkanı yaradılır. Bu halda fənni(fənləri) yenidən dinləmədən kreditləri qazanmaq istəyən bakalavr və magistrantlar bu imkandan təhsil proqramı ilə müəyyən olunmuş müddət ərzində həmin fənn(fənlər) tədris olunduğu semestrdə (akademik borcu yaranan semestrdə imtahan sessiyasından sonra növbəti semestr başlayanadək və ya növbəti semestrin birində imtahan sessiyası zamanı) istifadə edə bilər.

Hər semestrdə fənni(fənləri) dinləmədən ümumilikdə iki fəndən (hər fəndən bir dəfə olmaqla) imtahan keçirilir. Bu zaman tələbənin fənni (fənləri) dinlədiyi semestrdəki cari qiymətləndirilmənin nəticələri nəzərə alınır və onun qazandığı kreditlər tədris planı üzrə həmin fənni(fənləri) dinlədiyi semestrə aid olunur.

Üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbə həmin fənn üzrə təkrar imtahan üçün ödəniş etmir, digər hallarda isə tələbənin imtahan üçün ödəniş haqqı, həmin fənn üçün müəyyən edilən kredit haqqı məbləğinin 25 faizinədək həcmdə ödənilir. Bütün digər hallarda akademik borcu olan tələbə fənni yenidən dinləməli və həmin fəndən (fənlərdən) dərslərdə iştirak etməklə, onun(onların) mənimsənilməsinə qoyulan tələbləri tam yerinə yetirməlidir.

# Yay semestrinin təşkili

Yay semestri könüllülük prinsipi ilə ödənişli əsaslarla həyata keçirilir. O, aşağıdakı məqsədlərlə təşkil olunur:

- akademik borcların ləğv edilməsi;
- fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;
- müvəffəq qiymət alınmış fənn üzrə qiymətin yüksəldilməsi;
- ali təhsil müəssisəsinin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisəsi tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması.

Yay semestri yaz semestri başa çatdıqdan sonra təşkil olunur və onun başlanma müddəti ali təhsil müəssisəsi tərəfindən müəyyən edilir. Yay semestrinin (nəzəri təlim və imtahanlar) müddəti 6 həftədir. İmtahan müddəti 1 həftədən artıq olmamaqla, yay semestrinin sonuncu həftəsində təşkil edilir.

Yay semestrində tələbənin götürdüyü fənlər üzrə kreditin ümumi həcmi 10-dan artıq olmamalıdır.

Yay semestri üzrə imtahanlar növbəti semestrin başlanmasına 2 həftə qalanadək başa çatdırılır.

Yay semestrində üzrlü səbəbdən imtahanda iştirak etməyən tələbələr üçün növbəti semestrin başlanğıcına qədər bir dəfə imtahan təşkil olunur.

Sessiya imtahanlarında müvəffəq qiymət alınan fənn üzrə qiyməti yüksəltmək məqsədi ilə tələbəyə yenidən imtahan verməyə icazə verilmir. O, qiyməti yüksəltmək üçün yay semestrində həmin fənni yenidən dinləməklə imtahan verə bilər. Tələbə öz məqsədinə nail olmadıqda, onun əvvəl qazanmış olduğu  bal qüvvədə qalır.

Müvafiq qaydaların tələblərinə uyğun olaraq, imtahana buraxılmayan tələbə semestrdə fənn (fənlər) üzrə müəyyən edilmiş dərslərin 50 faizindən çoxunda iştirak etdiyi halda o, həmin fənni (fənləri) yay semestrində iştirak etmək hüququna malikdir.

Yay semestrində tələbənin fənn üzrə bir kreditinin ödənişi müvafiq qaydaların tələblərinə uyğun olaraq müəyyən edilir.

Yay semestrində fənn üzrə qrupda tələbələrin sayını ali təhsil müəssisəsi maliyyə imkanlarını nəzərə alaraq müəyyənləşdirir.

Yay semestrinə müəllimlər könüllü surətdə cəlb olunurlar. Bu zaman müəllimin fəaliyyətinin ödəniş məbləği saathesabı qaydada həyata keçirilir. Bundan əlavə müəllimlərə fənn üzrə qrupdan əldə olunan vəsaitin hesabına əlavə ödəniş verilir. Həmin ödənişin məbləği ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

# İstehsalat təcrübəsi

Təcrübənin təşkili şöbəsi Azərbaycan Dövlət İqtisad Universitetinin struktur bölməsidir və UNEC rektorunun 02 noyabr 2016-cı il tarixli 751/3/2016 saylı əmri ilə yaradılmışdır.

Şöbə ali təhsilin iki pilləli strukturunda tələbələrin istehsalat təcübəsini və layihə işini, magistrantların elmi-tədqiqat və elmi-pedoqoji təcrübələrini təşkil edir.

Universitetdə istehsalat təcrübəsi hər il Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən istiqamətlər üzrə və tədris planlarına uygun olaraq həyata keçirilir.

Təcrübənin təşkili şöbəsi öz fəaliyyətini mövcud qanunvericiliyə uyğun olaraq dövlət, özəl və xarici müəssisələrlə bağlanmış sazişlər və müqavilələr əsasında həyata keçirir.

Şöbənin məqsədi və vəzifəsi ali təhsilli, yüksək ixtisaslı, peşəkar mütəxəssislərin hazırlanması istiqamətində nəzəriyyə ilə təcrübənin inteqrasiyasına nail olmaq və onu müasir standartlara uyğunlaşdırmaq, tələbələrə və magistrantlara istehsalat, elmi-tədqiqat və elmi-pedaqoji təcrübə keçməkdə və gələcək iş yerlərinin müəyyənləşdirməkdə yardım göstərmək, dünyanın aparıcı universitetlərinin və xarici şirkətlərin bu sahədə olan təcrübəsindən effektiv istifadə imkanlarını ortaya çıxarmaqdır.

Şöbənin fəaliyyət istiqamətləri bütün növ cari və gələcək təcrübələrin planlaşdırılmasını həyata keçirilməsi, bütün növ təcrübələrin təşkili məsələləri üzrə sənədləşmə işlərinin aparılması və müvafiq strukturlar üzrə koordinasiyasını həyata keçirilməsi, habelə təcrübə prosesinin pozulmasının qarşısını almaq, səbəblərini müəyyən etmək və operativ tədbirlər görməkdən ibarətdir.

# UDİD və Minor proqramları
## UDİD proqramı

Universitet Daxili İki Diplom (UDİD) proqramı təhsil aldığı müddətdə bakalavrlara unikal imkan yaradan üstünlükdür. Proqram tələbəyə dörd il ərzində iki ayrı ixtisas üzrə diploma sahib olmaqla, gələcəkdə əmək bazarında layiqli yer tutmaq və onun tələblərinə çevik uyğunlaşmaq imkanı verəcək.

UDİD proqramının məqsədi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn tələbləri icra etmək, bakalavrlara qəbul olunduğu ixtisasla yanaşı, ikinci ixtisas üzrə də bakalavr dərəcəsi vermək, tələbələri rəqabətədavamlı mütəxəssis kimi yetişdirmək, gələcəkdə əmək bazarında layiqli yer tutmaq və onun tələblərinə çevik uyğunlaşmaq üçün imkan yaratmaqdan ibarətdir.

Hər hansı iki ixtisas üzrə UDİD proqramının açılması üçün həmin ixtisasların təhsil proqramlarında nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 70 faizi eyni olmalıdır. UDİD proqramının tətbiq olunduğu ixtisasların siyahısı UNEC-in Elmi Şurasının qərarı ilə təsdiq edilir.

UDİD proqramı açılan fakültələrdə ixtisaslar üzrə qəbul planı, proqramın işçi tədris planı və qeydiyyat tarixləri hər tədris ilinin başlanğıcına bir ay qalmış tələbələrə elan edilir. Proqrama qəbul planı hər bir ixtisas üzrə universitetə həmin ildə bu ixtisasa tələbə qəbulunun 10%-dən çox ola bilməz. Tələbə UDİD proqramına qəbul üçün ikinci semestrin sonunda müraciət edə bilər.

UDİD proqramında təhsil müddətində birinci ixtisas üzrə nəzərdə tutulan fənlər üzrə kreditləri qazanan və ilin sonuna ÜOMG - si 71-100 bal arasında olan I kursu bitirmiş tələbələr iştirak edə bilər.

UDİD proqramına qəbul edilən tələbələr üçün əlaqədar ixtisasların təhsil standartları, tədris planları, ixtisas üzrə məzunlarının əldə etməli olduğu bilik, bacarıq və vərdişlər, tədrisi nəzərdə tutulan fənlərin sillabusları dəyərləndirərək, xüsusi tədris qrafikləri hazırlanır. Bu qrafiklər əsasında hər bir tələbə üçün akademik məsləhətçilərin köməyi ilə semestr başlamazdan əvvəl fərdi tədris planları tərtib olunur ki, burada tələbənin həm birinci, həm də ikinci ixtisasda dinləməsi tələb olunan bütün fənlər qeyd olunur.

UDİD proqramında iştirak ödənişlidir. Tələbələrin ikinci ixtisas üzrə dinlədiyi fənlər üzrə təhsil haqqının məbləği fənlərin kredit sayına uyğun olaraq həmin ixtisas üzrə bir kredit üçün müəyyənləşdirilir.

UDİD proqramında iştirak edən tələbələr ikinci ixtisas fənnlərinin kreditlərini yalnız UNEC-də toplamalıdır. Tələbə UDİD Proqramı üzrə müvəffəqiyyətsiz olduğu fənni bu fənnin açılacağı ilk semestrdə təkrarlayır. Tələbə müvəffəqiyyətsiz olduğu seçmə fənnin yerinə akademik məsləhətçinin köməyi ilə yeni fənn seçə bilər. UDİD proqramı tələbəsi yay semestrində də iştirak edə bilər.

Əsas ixtisas proqramı üzrə akademik məzuniyyət verilən tələbə isə UDİD proqramı üzrə də akademik məzuniyyətdə hesab edilir.

UDİD proqramı üzrə təhsil alan tələbə ikinci ixtisas üzrə təqaüd müsabiqəsində iştirak edə bilməz.

Tələbənin I ixtisas proqramı ilə II ixtisas proqramı ayrılıqda dəyərləndirilir. UDİD proqramı üzrə nəticələr tələbənin I ixtisasdan məzun olmasına təsir etmir. I ixtisasdan məzun olan tələbəyə I ixtisas üzrə bakalavr diplomu verilir. Əsas ixtisas proqramı üzrə məzun olan və UDİD proqramını tamamlayan tələbəyə UDİD proqramı üzrə bakalavr diplomu verilir. Əsas ixtisas proqramı üzrə məzun ola bilməyən tələbə UDİD proqramı üzrə məzun ola bilməz.

UDİD proqramının məzunlarına I və II ixtisas proqramları üçün ayrı-ayrılıqda akademik transkript verilir.

Ardıcıl iki semestr üzürsüz səbəbdən UDİD proqramı üzrə qeydiyyatdan keçməyən tələbə proqramdan çıxarılır. UDİD proqramından çıxarılan tələbə bu proqrama təkrar qəbul edilə bilməz.

*Universitet Daxili İki Diplom Proqramı (UDİD)*
*http://unec.edu.az/application/uploads/2021/07/UDID-QAYDALAR-ES_yeni.pdf*

# İxtisas üzrə Minor Təhsil Proqramı

Minor proqramında tələbələr öz ixtisas qrupu daxilində 4, ixtisas qrupları arasında isə 5 fənn götürməklə Minor ixtisasını qazanacaqlar. Minor proqramını tamamlayan tələbələrə universitet tərəfindən müvafiq sertifikat və transkript təqdim olunacaq. Əldə olunan sertifikat əmək bazarında məzunlara üstünlük yaradacaq.

Proqrama UNEC-də əyani formada təhsil alan bakalavr tələbələri müraciət edə bilər.

Minor Proqramı ixtisasları: UNEC-də tədrisi həyata keçirilən 5 ixtisas qrupu üzrə 22 ixtisas

Tədris dili: azərbaycan, rus, ingilis, türk;

Müraciət:

- əyani - ən tez III, ən geci V semestr,

Müraciət şərti: bütün fənlərdən müvəffəqiyyət qazanmalı və ÜOMG 65-də yuxarı olmalı;

Ödəniş: Proqramda iştirak ödənişlidir. UDİD ixtisası üzrə bir kredit üçün nəzərdə tutulmuş təhsil haqqına əsasən fənlərin kredit sayına uyğun olaraq müəyyənləşdirilir.

Proqramın modeli: Tələbə eyni ixtisas qrupundan olan Minor ixtisası üzrə 4 fənn, fərqli ixtisas qruplarından olan Minor ixtisası üzrə 5 fənn dinləyir;

Proqramı bitirən məzunun əldə etdiyi sənədlər:

- Sertifikat
- Akademik transkript

Email: *udidminor@unec.edu.az*

*İxtisas üzrə Minor Təhsil Proqramının Qaydaları*

*http://unec.edu.az/application/uploads/2021/07/Minor-QAYDALAR_yeni.pdf*

# Tədris Elektron İdarəetmə Modeli (EDUMAN)

UNEC Elektron Universitet Modeli (EDUMAN) kredit sisteminin effektiv şəkildə tətbiq edilməsi üçün qurulmuş elektron platformadır. Bu platforma vasitəsi ilə UNEC tələbələri www.kabinet.unec.edu.az keçidinə daxil olmaqla aşağıdakı məlumatları əldə edə bilərlər:

- dərs cədvəlləri;
- zoom cədvəli;
- onlayn və hibrid dərslərə birbaşa keçid;
- onlayn və hibrid dərslərin video yazılarına baxma imkanı;
- imtahan cədvəli;
- imtahan nəticələri;
- imtahan testləri/sualları;
- tədris materialları (fənlərin sillabusları, mühazirə mətnləri, təqdimatlar və imtahan sualları);
- elektron jurnallar;
- sərbəst işlər/ev tapşırığı;
- məsləhət müzakirə paneli;
- fərdi tədris planları;
- kollokvium və imtahan cədvəlləri;
- apellyasiya müraciətləri;
- məmnunluq anketi;
- bir pəncərə xidməti;
- e-kitabxana;
- təhsil tələbə kredit fondu və s.

# UNEC Rəqəmsal Texnologiyalar Departamenti

*UNEC Rəqəmsal Texnologiyalar Departamentinə aiddir:*

UNEC Extern mərkəzi

*Təhsil və təlim texnologiyaları şöbəsi*

İnformasiya texnologiyalarına dəstək şöbəsi

Şəbəkə texnologiyaları və informasiya təhlükəsizliyi şöbəsi

Tədbirlərin texniki təminatı bölməsi

UNEC Extern Mərkəzinin 2018-ci il noyabrın 1-də açılışı olub. Dünyanın aparıcı universitetlərinin təcrübəsi əsasında hazırlanan mərkəzdə 6 tədris studiyası (auditoriya), 12 inzibati və 1 müzakirə otağı var. Tərtibatı və təchizatı ən müasir tələblərə cavab verən bu studiyaların hər birindən eyni anda 1000 tələbəyə yüksək ixtisaslı müəllimlər tərəfindən təhsil vermək imkanı mövcuddur. Hazırkı infrastruktur bu göstəricini artırmağa, 3 və ya 4 növbəli təhsil vermək imkanlarına malikdir.

Mərkəzin dizaynı distant təhsil fəlsəfəsinə uyğun qurulub. Onlayn tədrisin aparılacağı studiyalarda elektron kürsü, xüsusi sensor lövhə, monitor, HD kamera və səs avadanlıqları quraşdırılıb. İstifadə olunan proqram təminatında da tələbə və müəllimlərin rahatlığı tam nəzərə alınıb. Tələbələrin qeydiyyatının, davamiyyətinin, qiymətləndirilməsinin və attestasiyasının elektron universitet modeli olan "EDUMAN" proqramı tərəfindən aparılır. Distant təhsilə həm ölkə ərazisindən, həm də xaricdən tələbələr qoşula bilərlər. Studiyalardakı bütün tədris prosesi xüsusi kameralar vasitəsilə çəkilir ki, bu da sonradan tələbələrə istədikləri dərsə yenidən baxmağa imkan verir. Tələbələr istənilən vaxt hər hansı bir dərsi yenidən dinləmək və ya izləmək imkanı qazanırlar. UNEC-in Elektron universitet sistemi və UNEC Exten Tədris mərkəzində yaradılmış müasir standartlara uyğun infrastruktur, distant təhsilin tam əyanidəki kimi aparılmasına imkan verir. UNEC Extern həm də bir sıra kənar təşkilatların müraciətləri əsasında orada çalışan əməkdaşlar üçün onlayn təlimlər, sertifikat proqramları həyata keçirir.

UNEC-də dərslər nəzərdə tutulan akademik təqvim üzrə UNEC Extern Mərkəzinin texniki bazası əsasında, ölkədə ilk dəfə olaraq distant formada tələbələrin biliyinin qiymətləndirilməsi məqsədilə distant imtahanlar keçirilmişdir.

# İDARƏETMƏ

**Rektor**

**Rektorluq**

- Tədris üzrə prorektor
- Elm üzrə prorektor
- İnzibati və təşkilati məsələlər üzrə prorektor
- Tələbələrlə iş üzrə prorektor
- Rəqəmsallaşma üzrə prorektor
- İqtisadi məsələlər üzrə prorektor
- Beynəlxalq əlaqələr və proqramlar üzrə prorektor
- Rektorun müşaviri
- Elmi Katib

## Elmi Şura

Elmi Şura UNEC-in ali idarəetmə orqanıdır. Elmi Şuranın yaradılması, səlahiyyətləri və fəaliyyətinin təşkili qaydası Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsdiq etdiyi müvafiq əsasnamə və bu Nizamnamə ilə müəyyən olunur. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şuranın vaxtından əvvəl yenidən yaranması onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə həyata keçirilə bilər.

Elmi Şuranın tərkibinə ali təhsil müəssisəsinin rektoru (sədr), tədris işləri üzrə prorektoru (sədr müavini), prorektorlar, elmi katib, fakültə, departament, mərkəz, şöbə rəhbərləri, kafedra müdirləri, ali təhsil müəssisəsinin tərkibində fəaliyyət göstərən elmi-tədqiqat institutlarının direktorları, həmkarlar təşkilatının sədrləri (əməkdaşların və tələbələrin), tələbə təşilatlarının sədrləri daxildir.

UNEC-in Elmi Şurasının 27 yanvar 2023-cü il Qərarı ilə Elmi Şuranrun tərkibində fəaliyyət göstərən komissiyaların tərkibi təsdiq edilmişdir.

*Elmi Şuranın tərkibində fəaliyyət göstərən komissiyalar:*

Elm  komissiyası

Tədris komissiyası

Sosial məsələlər komissiyası

Attestasiya komissiyası

Əmək bazarı ilə əməkdaşlıq komissiyası

Təhsilalanlarla iş üzrə komissiya

**Departamentlər**

- Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamenti
- Beynəlxalq əməkdaşlıq departamenti
- UNEC Rəqəmsal Texnologiyalar departamenti
- Xarici Dillər departamenti
- Ümumi fənlərin tədrisinin təşkili departamenti
- Maliyyə və təminat departamenti

**Mərkəzlər**

- UNEC Kitabxana İnformasiya mərkəzi
- Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzi
- Tərcümə mərkəzi
- UNEC Biznes Mərkəzi
- Karyera mərkəzi
- UNEC İmtahan mərkəzi
- İnklüziv təhsil mərkəzi
- UNEC Psixoloji xidmət mərkəzi
- Yaradıcılıq Mərkəzi

**Şöbələr**

- İnsan resursları şöbəsi
- Ümumi şöbə
- İctimaiyyətlə əlaqələr şöbəsi
- Hüquq şöbəsi
- Daxili audit şöbəsi
- Hərbi və xüsusi şöbə
- Təcrübənin təşkili şöbəsi
- Tədqiqat mərkəzlərinin işinin əlaqələndirilməsi və təşkili şöbəsi
- Keyfiyyət təminatı şöbəsi
- Təsərrüfat şöbəsi
- Əməyin mühafizəsi və texniki təhlükəsizlik şöbəsi

# Qəbul

**Bakalavriatura səviyyəsi üzrə**

Ali təhsil müəssisələrinə qəbul olmaq hüququna tam orta, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış şəxslər malikdirlər.

Bakalavriat səviyyəsində təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinə əsasən, dövlət ali təhsilin hər bir səviyyəsində təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu abituriyentlərin müvafiq tədris ilində biliyin qiymətləndirilməsi üzrə mərkəzləşdirilmiş qaydada iki mərhələdə keçirilən imtahanda (qəbul imtahanında) əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.

Qəbul imtahanlarını uğurla başa vurub universitetimizdə təhsil almaq hüququ qazanmış çağırışçı-tələbələr universitetdə qeydiyyatdan keçərək, universitetin tələb etdiyi sənədləri qəbul olduğu fakültəyə təqdim edirlər. Əyani fakültəyə qəbul olunan çağırışçı-tələbələrə hərbi xidmətdən möhlət hüququ verilir. Universitetin Hərbi və xüsusi şöbəsi tərəfindən 4 il müddətində onların qeydiyyatda olduqları müvafiq qurumlara Forma-10 arayışı göndərilir.

**Magistratura səviyyəsi üzrə**

Magistratura səviyyəsinə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən aparılır və qəbul qaydaları "Magistr" jurnalında yerləşdirilir. Müəyyən olunan qaydalara əsasən, magistr pilləsində təhsil almaq istəyən məzun bakalavrlar I mərhələdə xarici dil, məntiq, informatika fənlərindən; II mərhələdə isə ixtisas fənnindən test üsulu ilə imtahan verirlər.

Qəbul imtahanlarını uğurla başa vurub universitetimizin magistraturasında təhsil almaq hüququ qazanmış magistrantlar, Dövlət İmtahan Mərkəzinin elan etdiyi müddət ərzində universitetdə qeydiyyatdan keçməlidirlər. Qeydiyyat zamanı universitetin tələb etdiyi sənədləri Qəbul komissiyasına təqdim etməlidirlər. Magistraturaya qəbul hərbi xidmətdən möhlət hüququ verir. Könüllülük əsasında hərbi xidmət keçmək istəyənlər təhsillərini bir illik dondurmalı, hərbi xidmətə getdikdən sonra müvafiq arayışı hərbi şöbəyə göndərməlidirlər. Bu arayış əsasında həmin magistrantlara hərbi xidmətdə olacaqları müddət ərzində akademik möhlət verilir. Hərbi xidmətdən qayıtdıqdan sonra magistrantlar əsgərliyini başa vurması ilə bağlı müvafiq sənədləri (hərbi xidməti başa vurmaq haqqında arayışı – hərbi bileti) universitetin hərbi şöbəsində qeydiyyatdan keçirərək, yenidən magistrantlar sırasına bərpa edilirlər.

**Doktorantura səviyyəsi üzrə**

Azərbaycan Respublikasında yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrların hazırlanması ali təhsilin ən yüksək səviyyəsi olan doktorantura (hərbi təhsil müəssisələrində — adyunktura) yolu ilə həyata keçirilir və müvafiq elmi dərəcələrin (elm sahələri göstərilməklə, fəlsəfə doktoru və elmlər doktoru) verilməsi ilə başa çatır.

Doktoranturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə həyata keçirilir. Doktoranturada təhsilalma əyani (istehsalatdan ayrılmaqla) və qiyabi (istehsalatdan ayrılmamaqla) formalar üzrə həyata keçirilir. Doktorantura təhsilini həyata keçirən ali təhsil müəssisələri, elmi müəssisə

və təşkilatlar elmi kadr hazırlığını dissertantlıq (dissertantura) yolu ilə də reallaşdırır. Doktoranturada təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

**Təkrar ali təhsil**

Təkrar ali təhsilə tələbə qəbulu elektron qaydada həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar.

Təkrar ali təhsilə qəbul olunan tələbələrin adları elektron sənəd qəbulunun bitdiyi tarixdən sonrakı həftə ərzində sənəd qəbulu komissiyası tərəfindən elan olunur. Qəbul olunan tələbələr elanda qeyd olunan sənədlərin notarial qaydada təsdiq olunmuş surətlərini əsli ilə birgə Qiyabi və əlavə təhsil mərkəzinə şəxsən təqdim etməlidirlər.

**Əcnəbilərin qəbulu**

Əcnəbi tələblərin qəbulu elektron formada həyata keçirilir. Əcnəbi abituriyentlər www.kabinet.unec.edu.az internet səhifəsi vasitəsilə müraciət etməlidirlər. Onlar ixtisas və tədris dili seçimini edərək tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təhsil alma hüququnu qazanırlar. Əcnəbi vətəndaşlardan müvafiq sənədlərlə yanaşı, tövsiyə məktubu da tələb olunur.

Bəzi hallarda abituriyentlər “Skype” və ya telefon vasitəsilə müsahibəyə dəvət edilir.

# Əlaqə

*Sayt:*

unec.edu.az

*Rəsmi sosial şəbəkələr:*

Rəsmi Facebook səhifəsi: *https://www.facebook.com/*

Rəsmi Tvitter səhifəsi*: https://twitter.com/UNECeduaz*

Rəsmi Linkedin səhifəsi: *https://www.linkedin.com/school/azerbaijan-state-university-of-economics/*

Rəsmi İnstagram səhifəsi: *https://www.instagram.com/accounts/login/?next=/uneceduaz/*

Rəsmi Youtube səhifəsi: *https://www.youtube.com/channel/UCWlqMLpR7aGLW2IiadrF0Jg*

*E-mail:*

unec@unec.edu.az

*Telefon:*

Qaynar xətt: 18-46

(+99412) 492-59-03 (daxili: 11-99)

*Ünvan:*

I korpus: Bakı şəhəri, İstiqlaliyyət küçəsi, 6

II korpus: Bakı şəhəri, H.Əliyev küçəsi, 135

III korpus: Bakı şəhəri, M.Muxtarov küçəsi, 194

IV korpus: Bakı şəhəri, A.Səhhət küçəsi, 45a

# FAKÜLTƏ, MƏRKƏZ, MƏKTƏBLƏR

## Maliyyə və mühasibat fakültəsi

Maliyyə və mühasibat fakültəsi 2015-ci ilin sentyabrında 2 fakültənin – Maliyyə və Uçot-iqtisad fakültələrinin birləşməsi nəticəsində yaranmışdır.

2024/2025-ci tədris ilində fakültəyə 523 tələbə qəbul olunub, 28 tələbə 600 və daha yuxarı bal toplayıb. 2024/2025-ci tədris ili üzrə keçirilən qəbul imtahanlarında ən yüksək nəticə 674,80 bal oub. Fakültəyə qəbul olan tələbələrdən 14 nəfərin əcnəbi vətəndaşdır. Hazırda fakültədə ümumilikdə 1954 tələbə təhsil alır.

*Fakültə üzrə ixtisaslar:*

- Maliyyə
- Mühasibat

*Fakültə üzrə təhkim edilən kafedra:*

“Maliyyə və audit”

## İqtisadiyyat və idarəetmə fakültəsi

UNEC-in Elmi Şurasının 29.02.2016-cı il tarixli qərarının icrasını təmin etmək məqsədilə Beynəlxalq iqtisadi münasibətlər, İqtisadiyyat və sənaye fakültələrinin bazasında 13.07.2016-cı il tarixli əmrinə əsasən İqtisadiyyat fakültəsi yaradılmışdır.

28.06.2022-ci ildə Elmi Şuranın qərarı ilə İqtisadiyyat fakültəsinin adı dəyişdirilərək, İqtisadiyyat və idarəetmə fakültəsi adlandırılıb.

Fakültənin və onun tərkibində olan kafedraların xarici ölkələrin universitetləri ilə sıx elmi əməkdaşlığı mövcuddur. Qarşılıqlı əməkdaşlıq müqavilələrinə uyğun olaraq, fakültənin professor-müəllim heyəti və tələbələri xarici ölkələrin universitetlərində olur, təcrübə mübadiləsi aparır, elmi konfranslarda çıxış edir, elmi əsərlərini nəşr etdirir, yay məktəblərində iştirak edir, təhsillərini davam etdirir və müxtəlif xarakterli görüşlər keçirirlər.

2024/2025-ci tədris ilində fakültəyə “İqtisadiyyat”, “Ekologiya”, “Sosial iş”, “Beynəlxalq münasibətlər”, “Statistika”, “Dövlət və bələdiyyə idarəetməsi” ixtisasları üzrə 702 tələbə qəbul olub. 2023-cü illə müqayisədə 2024-cü ildə fakültəyə keçid balları artıb. Fakültə üzrə ən yüksək nəticə “İqtisadiyyat” ixtisası üzrə 628.8 bal olub. Hazırda fakültədə 2511 tələbə təhsil alır.

*Fakültə üzrə ixtisaslar:*

– İqtisadiyyat
– Dövlət və bələdiyyə idarəetməsi
– Ekologiya
– Sosial iş
- Statistika
- Beynəlxalq münasibətlər

*Fakültəyə təhkim edilən kafedralar:*

”İqtisadiyyat”

“İctimai idarəetmə və sosial innovasiyalar”

“Riyaziyyat və statistika”

# Rəqəmsal iqtisadiyyat fakültəsi

UNEC-in Elmi Şurasının qərarına əsasən 19.10.2020-ci il tarixində Texnolgiya və dizayn fakültəsinin bazasında Rəqəmsal iqtisadiyyat fakültəsi yaradılmışdır.

Rəqəmsal iqtisadiyyat fakültəsinin və onun tərkibində olan kafedra respublikanın və xarici ölkələrin Universitetləri - AMEA-nın İdarəetmə İnstitutu və İnformasiya Texnologiyaları İnstitutu və Yüksək Texnologiyaları Parkı, Çexiyanın Prague Business School, Macarıstanın University of Dunaújváros və Litvanın Mykolas Romeris University və Vilnius Gediminas Technical University, həmçinin Hindistanın Aligarh Muslim Universit və Karadeniz Teknik Üniversitesi (KTÜ) ilə sıx elmi əməkdaşlıq edir.

UNEC-də Mühəndislik və Rəqəmsal iqtisadiyyat fakültələrinin nəzdindəki laboratoriyaların işinin səmərəli idarə edilməsinin təmin olunması üçün “Laboratoriyaların işinin təşkili mərkəzi” yaradılmışdır.

2024/2025-ci tədris ilində fakültəyə 5 ixtisas üzrə 354 tələbə qəbul olub, onlardan 224 nəfəri 600-dən, 53 nəfəri isə 650-dən yuxarı bal toplayıb. Unversitet üzrə ən yüksək bal (692,8) Rəqəmsal İqtisadiyyat fakültəsinin “İnformasiya təhlükəsizliyi” (ingilis dilində) ixtisası üzrə olub.

*Fakültəyə təhkim edilən kafedra:*

Rəqəmsal texnologiyalar və tətbiqi informatika

*Fakültə üzrə ixtisaslar:*

İnformasiya texnologiyaları
İnformasiya təhlükəsizliyi
Kompüter elmləri
Kommunikasiya sistemləri mühəndisliyi
Kompüter mühəndisliyi

# Biznes və menecment fakültəsi

UNEC-in Elmi Şurasının 14.07.2016-cı il tarixli iclasının qərarının icrası təmin edilərək ləğv edilmiş Kommersiya, Biznes inzibatçılığı, İnformatika və idarəetmə (Menecment ixtisası) fakültələrinin bazasında 25.07.2016-cı il tarixdən Biznes və menecment fakültəsi yaradılmışdır.

Fakültənin beynəlxalq əlaqələri coxistiqamətlidir və ildən-ilə genişlənir. Hazırda fakültə və onun tərkibində olan kafedralar Türkiyənin İstanbul Universiteti, Sakarya Universiteti, Hacettepe Universiteti, Mərmərə Universiteti ilə qarşılıqlı əməkdaşlıq müqavilələri əsasında fəaliyyət göstərirlər. Həmin universitetlər ilə tələbə, magistr və aspirantların hazırlanmasında, tədris-metodiki materialların birgə işlənilməsində, TEC konfranslarının kecirilməsində, elmi məqalə və tezislərin nəşr edilməsində əməkdaşlıq edilir. Onlarla tələbə xarici ölkələrdə təhsillərini davam etdirirlər.

2024/2025-ci tədris ilində fakültəyə "Biznesin idarə edilməsi", "Menecment", "Marketinq", "Beynəlxalq ticarət və logistika" ixtisasları üzrə 516 nəfər tələbə qəbul olunub, fakültədə bütün ixtisaslar üzrə keçid balları keçən illə müqayisədə yüksəlib. Fakültədə ən yüksək nəticə "Biznesin idarəedilməsi" ixtisası üzrə 609.6 bal olub. Hazırda fakültədə 2092 tələbə təhsil alır.

*Fakültə üzrə təhkim edilən kafedra:*

"Biznes və logistika"

*Fakültə üzrə ixtisaslar:*

- Biznesin idarə edilməsi
– Menecment
– Marketinq
– Beynəlxalq ticarət və logistika

# Mühəndislik fakültəsi

UNEC-in Elmi Şurasının qərarına əsasən, 19.10.2020-ci il tarixində Ekspertiza və standartlaşdırma fakültəsinin bazasında Mühəndislik fakültəsi yaradılmışdır.

UNEC-də Mühəndislik və Rəqəmsal iqtisadiyyat fakültələrinin nəzdində yaradılan laboratoriyaların işinin səmərəli idarə edilməsinin təmin olunması üçün "Laboratoriyaların işinin təşkili mərkəzi" yaradılmışdır.

2024/2025-ci tədris ilində "Sənaye mühəndisliyi", "Qida mühəndisliyi", "Materiallar mühəndisliyi", "Ekologiya mühəndisliyi", "Maşın mühəndisliyi", "Elektrik və elektronika mühəndisliyi" ixtisasları üzrə fakültəyə 339 tələbə qəbul olunub. Ən yüksək nəticə "Sənaye mühəndisliyi" ixtisası üzrə 595,6 bal olub.

2024-cü ildə UNEC ilə Ege Universitetinin "Qida mühəndisliyi" ixtisası üzrə iki diplom proqramına 20 tələbə qəbul olunub. 2023-cü ildə bu proqram üzrə qəbul olunan II kurs tələbələri hazırda Eğe Universitetində təhsillərini davam etdirirlər.

Hazırda ümumilikdə fakültədə 1366 tələbə təhsil alır.

*Fakültə üzrə təhkim edilən kafedra:*

"Mühəndislik və tətbiqi elmlər"

*Fakültə üzrə ixtisaslar:*

*Təhsilin I və II illəri üzrə:*

Materiallar mühəndisliyi
Ekologiya mühəndisliyi
Qida mühəndisliyi
Qida mühəndisliyi (Ege universiteti ilə ikili diplom)
Sənaye mühəndisliyi
Elektrik və elektronika mühəndisliyi
Maşın mühəndisliyi

*Təhsilin III və IV illəri üzrə:*

İstehlak mallarının ekspertizası və marketinqi
Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi
Qida məhsulları mühəndisliyi
Çoxişlənən malların texnologiyası mühəndisliyi
Texnoloji maşın və avadanlıqlar mühəndisliyi

## Türk Dünyası İqtisad Fakültəsi

Türk Dünyası İqtisad Fakültəsi (TUDİFAK), Türk Dünyası Araşdırmalar Vəqfinin rəhbəri Prof. Dr. Turan YAZGAN tərəfindən 1992-ci ildə Bakıda Azərbaycan Xalq Təsərrüfatı İdarəetmə İnstitutunun tərkibində yaradılmışdır. Fakültə 2001-ci ildən Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzninə keçirilmiş və Türk Dünyası İqtisad fakültəsi kimi fəaliyyətini davam etdirmişdir. Fakültədə təhsil Türkiyə türkcəsindədir ve Türkiyə türkcəsində dil hazırlığı Türkiye Yunus Emre Enstitüsü tərəfindən həyata keçirilir.

Fakültənin Türkiyə Respublikasında ekvivalentliyi vardır və bu Türkiyədə təhsilini davam etdirmək istəyən tələbələr üçün həm mübadilə proqramları, həm də akademik karyera baxımından geniş imkanlar yaradır. Gənc müəllim kollektivi olan TUDİFAK universitet akademik fəaliyyətinin qiymətləndirilməsi sistemində ardıcıl olaraq 4 il birinci yeri tutmuşdur. Təhsilə innovativ yanaşması və Türk Dünyası anlayışı fakültədə milli dəyərlər və çağdaş prinsiplərin birgə inkişafına imkan verir.

Fakültənin ali məqsədi fakültədə olan istiqamətlər üzrə beynəlxalq standartlara cavab verən ixtisaslaşmış kadr hazırlığıdır.

TÜDİFAK tələbələrinə 4 illik bakalavr təhsillərinin sonunda diplomla birlikdə Türk Dünyası Araşdırmaları Vəqfi adından fakültə dekanı və UNEC rektoru tərəfindən imzalanmış Türkiyə türkcəsində "Məzuniyyət Belgesi" verilir.

Fakültəyə qəbul DİM-in Azərbaycan vətəndaşları üçün keçirdiyi universitetə qəbul imtahanı ilə həyata keçirilir. Türkiyə Respublikası vətəndaşları isə Türk Dünyası Araşdırmaları Vəqfinin tövsiyəsi ilə orta məktəb məzunu olmaq şərti ilə müraciət edə bilərlər.

*Fakültə üzrə təhkim edilən kafedra:*
"İqtisadiyyat və işlətmə"

*Fakültə üzrə ixtisaslar:*

– Maliyyə
– Marketinq
– İqtisadiyyat
– Mühasibat
– Biznesin idarə edilməsi
– Beynəlxalq ticarət və logistika
– Dövlət və bələdiyyə idarəetməsi
– Beynəlxalq münasibətlər

# SABAH Mərkəzi

SABAH ali təhsildə təhsilin keyfiyyətinin yüksəldilməsi, müasir tələblərə uyğun kadr hazırlığının təmin edilməsi və ali təhsil sistemində yeni mühitin yaradılması məqsədilə Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəsissələrində Savadlı, Bacarıqlı və Hazırlıqlı (SABAH ) tələbələrdən ibarət qruplar zənciridir. 2014-cü ildə yaradılıb. Layihənin əsas məqsədi ali təhsil sahəsində davamlı, uzunmüddətli, hərtərəfli və əhatəli keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi üçün zəruri mühitin yaradılması, Azərbaycan gənclərinin fərdi və peşəkar inkişafına dəstək olmaq, dünyanın aparıcı universitetləri ilə əməkdaşlıq layihələri, elmi-tədqiqat, təcrübə və tələbə mübadilələrinin genişləndirilmsi və əmək bazarının tələblərinə uyğun olaraq Savadlı, Bacarıqlı və Hazırlıqlı mütəxəssislərin yetişdirilməsidir.

SABAH tələbələri hər il müxtəlif mübadilə proqramlarında iştirak edirlər. UNEC ilə Fransanın Montpellier Universiteti ilə həyata keçirilən ikili diplom Proqramında, Macarıstanın Szeged Universitetində, Cənubi Koreyanın Solbridge Biznes Məktəbində, Erasmus+ Mübadilə proqramı çərçivəsində Latviya Universitetində, Almaniyanın Siegen Universitetində, Kordoba Universitetində və s.

Hazırda UNEC-in SABAH qruplarında 908 tələbə, elektron kommersiya ixtisasında 230 magistr təhsil alır.

*Fakültə üzrə ixtisaslar:*

İqtisadiyyat
Menecment
Biznesin idarə edilməsi
Qida mühəndisliyi
Beynəlxalq ticarət və logistika

SABAH qruplarında “Maliyyə” və “Mühasibat” ixtisaslarının tədrisi 2024/2025-ci tədris ilindən Qarabağ Universitetində aparılır.

# Beynəlxalq İqtisad Məktəbi (ISE)

20.10.2014-cü il tarixində UNEC-də İngilis Dilində Tədris Mərkəzi (İDTM) yaradılmışdır. Mərkəz daha sonra məktəbə (fakultə) çevrilərək Beynəlxalq İqtisadiyyat Məktəbi (ISE) adı ilə fəaliyyətini davam etdirmişdir. Məktəbin əsas xüsusiyyəti tədrisi aparılan bütün ixtisasların ingilis dilində olmasıdır. Burada tədris edilən fənlərin sillabusları dünyada tanınmış nüfuslu universitetlərin proqramına uyğun tərtib edilmişdir. Məktəbin bir digər xüsusiyyəti akademik heyətlə bağlıdır. Belə ki, tədrisin ingilis dilində aparılmasına görə burada fəaliyyət göstərən müəllimlər dünyanın müxtəlif ölkələrinin tanınmış universitetlərində təhsil almış mütəxəssislərdir. Bu ölkələr arasında ABŞ, İngiltərə, Almaniya, Fransa, İsveç və digər ölkələr yer alır. Müəllimlər tədris prosesini nəzəri biliklərlə bərabər, daha çox praktiki yanaşmalarla zənginləşdirir. Məktəbin tələbələri UNEC ilə Fransanın Montpellier Universiteti ilə həyata keçirilən ikili diplom Proqramında, ERASMUS+beynəlxalq mübadilə proqramlarında, yerli və xarici müsabiqələrdə (ABCC, ENACTUS və s.) daim fərqlənir.

Beynəlxalq İqtisadiyyat Məktəbində (İSE) Azərbaycan vətəndaşı olan gənclərimizlə bərabər xarici vətəndaşlar da təhsil alır.

Beynəlxalq İqtisadiyyat Məktəbinin məzunları UNEC-i bitirəndən sonar öz təhsillərini Copenhagen Business School, Norwegian Business School, George Washington University, Vrije de Bruxelles, Kiel University, Univeristy of Bonn, University of York, Drexel University və müxtəlif Şərqi və Mərkəzi Avropanın tanınmış xarici universitetlərdə davam edirlər.

Məktəbin məzunları Deloitte, KPMG, EY, PWC, SOCAR AQS, PAŞA Bank, Rabitəbank, Baker Tilly Azərbaycan, Kapital Bank, Paşa Həyat Sığorta ASC, Mcdonalds Azerbaijan, P&G, Grant Thornton Azerbaijan və diqər şirkətlər tərəfindən işə dəvət olunublar.

2024/2025-ci tədris ilində ISE-yə "Maliyyə", "Mühasibat", "İqtisadiyyat", "Beynəlxalq ticarət və logistika", "Biznesin idarə edilməsi" ixtisasları üzrə üzrə ümumilikdə 179 tələbə qəbul olub ki, onlardan 151 nəfəri (84 faiz) 600-dən yuxarı bal toplayıb. Həmin tələbələr bir semestr boyu UNEC-in xüsusi təqaüdünü alırlar. Ən yüksək nəticə "Maliyyə" ixtisası üzrə 681.6 bal olub. Fakültəyə qəbul olan tələbələrdən 14 nəfəri əcnəbi vətəndaşdır. Hazırda fakültədə 760 nəfər tələbə təhsil alır.

*Fakültə üzrə təhkim edilən kafedra:*

Beynəlxalq iqtisadiyyat və biznes

*Fakültə üzrə ixtisaslar:*

– Maliyyə
– Mühasibat
– Beynəlxalq ticarət və logistika
– İqtisadiyyat
– Biznesin idarə edilməsi

# UNEC Dizayn Məktəbi

UNEC-in Elmi Şurasının 31 may 2020-ci il tarixli iclasının EŞ 172 №-li və 14 sentyabr 2020-ci il tarixli iclasının EŞ 173 №-li qərarlarının icrasını təmin etmək məqsədilə 19.10.2020-ci il tarixindən ləğv edilmiş “Dizayn” kafedrasının bazasında UNEC Dizayn məktəbi yaradılmışdır.

UNEC Dizayn məktəbində təhsil proqramı üzrə 050306 – Dizayn ixtisası daxilində dörd istiqamət üzrə kadr hazırlığı aparılır. Tələbələr məcburi fənlərin öyrənilməsi ilə yanaşı, dörd seçmə ixtisas blokunun hərəsindən bir fənn seçərək müstəqil olaraq öz tədris planlarını formalaşdırırlar.

Dizayn - sənaye məhsullarının estetik xüsusiyyətlərinin layihələndirmə fəaliyyətidir. Əşyaların layihələndirilməsi insanın əmək, məişət və istirahət şəraitinin əlverişliliyini nəzərə almaqla onların estetik cəhətdən harmonikliyini təmin edən fəaliyyət sahəsidir. Dizayn – zamanın tələblərinə cavab verən məmulatların erqonomiklik, funksionallıq, zahiri görünüşünə gözəllik kimi xüsusiyyətlərin verilməsi yolu ilə kütləvi istehlak cəmiyyətində sənayenin və bazarın qarşılıqlı bağlılığının idarə edilməsi sistemidir, marketinqin, istehlakçı və istehsalçı arasında kütləvi kommunikasiyanın bir formasıdır. Müasir dünyada dizayn, onun mürəkkəb daxili strukturu və cəmiyyətdəki bir sıra funksiyaları dünya mədəniyyətinin hərtərəfli və çox ölçülü fenomeninə çevrilmişdir.

“Dizayn” ixtisası üzrə təhsil pillələrində tələbələr peşəkar yaradıcı fəaliyyət üçün vacib olan bir sıra biliklərlə təmin edilir. Bu biliklər əsasında gələcək mütəxəssislərdə keyfiyyətli və yüksək bədiiliyə malik dizayn işlərinin rəqabətə davamlılığına zəmin yaradan bacarıq, vərdişlər sistemi formalaşdırılır. Həmçinin, bu onların peşəkar fəaliyyətlərinə yaradıcı nöqteyi-nəzərindən yanaşmalarına da şərait yaradır.

“Dizayn” ixtisasını bitirən tələbələr kütləvi istehsal ilə bərabər fərdi fəaliyyət göstərən bir sıra sənaye və yeyinti şirkət və müəssisələrində - moda evlərində, geyim və tekstil müəssisələrində, mebel fabriklərində, reklam şirkətlərində, mətbəələrdə, gida sektorunda və s. dizayner fəaliyyəti ilə məşğul ola bilərlər - modelyer; stilist; geyim sektorunda trend, imic və üslub üzrə məsləhətçi, satış mərkəzlərində vizual təqdimat və dizayn sahəsində mütəxəssis; teatr, film və televiziya sahəsində geyim və aksesuarların dizayneri; qrafik dizayner və s. Fəaliyyət zamanı tədris müddətində əldə etdikləri bilik və bacarıqları innovativ şəkildə tətbiq etmək imkanı qazanırlar.

UNEC Dizayn Məktəbinin təşkilatçılığı ilə mütəmadi olaraq müxtəlif mövzularda sərgilər təşkil olunur. Sərgilərdə dizayn ixtisası üzrə təhsil alan tələbələrin rəsm əsərləri, dekorativ-tətbiqi sənət nümunələri nümayiş olunur.

“Dizayn” ixtisası üzrə qəbul V ixtisas qrupu üzrə aparılır. Təhsil müddəti – 4 ildir (Əyani). Təhsil azərbaycan və rus dillərində aparılır. Hazırda fakültədə 770 tələbə təhsil alır.

*Fakültəyə təhkim edilən kafedra:*
Dizayn

*Fakültə üzrə ixtisas: Dizayn (sahələr üzrə)*
*Sahələr:*
Qrafik dizayn
Sənaye dizaynı
Mühit dizaynı
Geyim dizayn

# Rus İqtisad Məktəbi

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Şurasının qərarına əsasən 14.07.2016-cı il tarixində UNEC-də Rus dilində Tədris Mərkəzi yaradılmışdır. 22.05.2017-ci il tarixdən mərkəzin adı dəyişilərək Rus İqtisad Məktəbi adlanır. UNEC-in iqtisadyönümlü bütün ixtisasları üzrə rus bölmələri Rus İqtisad Məktəbində toplanıb.

Məktəbin yaradılmasında məqsəd rusdilli təhsil məkanına inteqrasiya edərək, bu məkanın üstünlüklərindən bəhrələnməklə yanaşı, həm də rusdilli əcnəbi tələbələri UNEC-ə cəlb etməkdir. Eyni zamanda rus dilində iqtisadi təhsili təcrübəyə yönəltmək qarşıya məqsəd kimi qoyulub. Buna görə də RİM-də daha çox təcrübəyönümlü tədris planı əsasında yüksək ixtisaslı iqtisadçı kadrların yetişdirilməsi həyata keçirilir. RİM-də UNEC müəllimləri ilə yanaşı, həm də rusdilli təhsil məkanının və Qərbin aparıcı iqtisadçı alimləri və ekspertləri dərs deyirlər. Rusiyanın və Qərbin tanınmış iş adamları, top menecerləri master-klasslar və seminarlar keçirlər. Fakültə tələbələri Rusiyanın nüfuzlu korporativ strukturlarında istehsalat təcrübəsinə göndərilir.

Rus bölməsində tədris edilən təhsilin vahid məkandan idarəedilməsi UNEC-də rus dilində təhsilin səviyyəsinin yüksəldilməsi, idarəetmənin təkmilləşdirməsi, ixtisaslararası inteqrasiyanın inkişafı və tələbə-müəllim mobilliyinin artırılması istiqamətində faydalıdır. Bu da yüksək keyfiyyətli ixtisaslaşmış iqtisadçı kadrların hazırlanmasına xidmət edir.

Məktəbdə tədris rus dilində aparılır.

2024/2025-ci tədris ilində fakültəyə “Maliyyə”, “Mühasibat”, “İqtisadiyyat”, “Ekologiya”, “Sosial iş”, Beynəlxalq ticarət və logistika”, “Biznesin idarə edilməsi”, “Menecment”, “Marketinq”, “Beynəlxalq münasibətlər” ixtisasları üzrə 381 tələbə qəbul olub. Fakültə üzrə ən yüksək nəticə “Maliyyə” ixtisası üzrə 612 bal olub. Hazırda fakültədə 1500 tələbə təhsil alır.

*Fakültə üzrə təhkim edilən kafedra:*

Tətbiqi iqtisadiyyat

*Fakültə üzrə ixtisaslar:*

- Maliyyə
- Mühasibat
- İqtisadiyyat
- Ekologiya
- Sosial iş
- Beynəlxalq ticarət və logistika
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Beynəlxalq münasibətlər

# Qiyabi və Əlavə Təhsil Mərkəzi

UNEC Qiyabi və əlavə təhsil mərkəzi UNEC-in Elmi Şurasının qərarına əsasən UNEC rektorunun 04.05.2021 tarixli əmri ilə UNEC-in Distant, qiyabi və əlavə təhsil mərkəzinin bazasında yenidən təşkil edilmişdir.

Mərkəz UNEC-in təhsilin bakalavriat səviyyəsində qiyabi təhsil forması və əlavə təhsilin istiqamətləri üzrə tədris prosesini həyata keçirən, həmçinin UNEC üzrə Yay semestrini təşkil edən struktur bölmədir.

*Mərkəzin tərkibində fəaliyyət göstərən şöbələr:*

Qiyabi təhsil şöbəsi
Əlavə təhsil şöbəsi

*Mərkəzdə həyata keçirilən təhsil formaları:*

Qiyabi təhsil
Təkrar ali təhsil

Qiyabi təhsil. Qiyabi təhsil seçimini edən abituriyenlər adətən çalışanlar, ya da ikinci təhsil alanlardır. Bu təhsil formasının əsas xüsusiyyəti işləyərək oxumaq imkanının əldə olunmasıdır. Qiyabi təhsil tələbələrə oxumaqla yanaşı hər hansı bir sahədə işləməyə də şərait yaradır. Çünki Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən əyani təhsil alan şəxslərə işləmək icazəsi verilmir. Mərkəzdə qiyabi təhsilalma formasında tədrisin təşkili "Təhsil haqqında Azərbaycan Respublikasının qanunu", "Ali təhsil pilləsinin dövlət standartı və proqramı", "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları", "Bakalavriat təhsilinin məzmunu və təşkili qaydaları", "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında əsasnamə" və təhsil haqqında digər qanunvericicilik aktları əsasında aparılır.

*Mərkəzdə qiyabi təhsilalma formasında tədrisi həyata keçirilən ixtisaslar:*

- Maliyyə
- Mühasibat
- İqtisadiyyat
- Ekologiya
- Beynəlxalq ticarət və logistika
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Dövlət və bələdiyyə idarəetməsi
- İnformasiya texnologiyaları
- İnformasiya təhlükəsizliyi
- Sosial iş
- Beynəlxalq münasibətlər

Təkrar ali təhsil. Təkrar ali təhsil ilkin baza peşə-ixtisas təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisasın baza təhsil proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda

mütəxəssislərə verilən əlavə təhsil növüdür. Proqramlar arasındakı fərq təkrar ali təhsil və orta ixtisas təhsili verən müəssisə tərəfindən müəyyən edilir.

Mütəxəssis hazırlamaq işində çevikliyi və ayrı-ayrı şəxslərin əlavə ixtisas təhsili almaq arzusunu təmin etmək məqsədi ilə təkrar ali təhsil və orta ixtisas təhsili bu təhsili almaq istəyən şəxslərlə və ya onların işlədikləri idarə və təşkilatlarla müvafiq təhsil müəssisəsi arasında bağlanmış müqavilələr əsasında həyata keçirilir.

Əvvəl aldığı ixtisasın baza proqramında öyrənilmiş fənlərin məzmunu yeni almaq istədiyi əlavə ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda tələbə həmin fənlər üzrə məşğələlərdən və attestasiyadan azad olunur.

Təkrar ali təhsil üzrə proqram və tədris planı əsasında ali təhsilini müvəffəqiyyətlə başa vuranlara bakalavr dərəcəsi və ali təhsil haqqında diplom verilir.

Təkrar ali təhsilə qəbul olunan tələbələr öz seçimləri əsasında əyani və ya qiyabi təhsilalma formasında təhsillərini davam etdirirlər.

*Təkrar ali təhsilə qəbul həyata keçirilən ixtisaslar*:

- Maliyyə
- Mühasibat
- İqtisadiyyat
- Beynəlxalq ticarət və logistika
- Statistika
- Menecment
- Dövlət və bələdiyyə idarəetməsi
- Biznesin idarə edilməsi
- Marketinq
- Sosial iş
- Ekologiya
- Beynəlxalq münasibətlər
- İnformasiya texnologiyaları
- İnformasiya təhlükəsizliyi
- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Sənaye mühəndisliyi
- Ekologiya mühəndisliyi
- Qida mühəndisliyi
- Maşın mühəndisliyi
- Materiallar mühəndisliyi
- Kommunikasiya sistemləri mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Dizayn

*UNEC-in Zaqatala filialı üzrə:*

- Maliyyə
- İqtisadiyyat

- Mühasibat
- Menecment
- İnformasiya texnologiyaları
- Biznesin idarə edilməsi
- Marketinq
- Turizm işinin təşkili
- Dövlət və bələdiyyə idarəetməsi

## Ümumi fənlərin tədrisinin təşkili departamenti

UNEC-in qeyri-ixtisas kafedralarının idarəedilməsinin təkmilləşdirilməsinin məqsədilə UNEC Elmi Şurasının qərarına əsasən 03.02.2020-ci il tarixində "Ümumi fənlərin tədrisinin təşkili departamenti" yaradılmışdır. Qeyri-ixtisas fənləri tədris edən kafedralar fakültələrin tabeliyindən çıxarılaraq "Ümumi fənlərin tədrisinin təşkili departamenti"nin tabeliyinə verilmişdir.

*DEPARTAMENTİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ:*

- departamentin nəzdində olan kafedaralarda tədris olunan fənlər üzrə tədrisin təşkili, təkmilləşdirilməsi və modernləşdirilməsi;
- departamentin nəzdində olan kafedraların fənn sillabuslarınının və tədris materiallarının müntəzəm olaraq təkmilləşdirilməsi;
- departamentə daxil olan kafedraların professor-müəllim heyətinin kafedraların istiqamətinə uyğun elmi potensialının artırılması istiqamətində Web of Science və Scopus indeksli jurnallarda professor-müəllim heyətinin nəşr aktivliyinin artırılması ;
- Departamentin nəzdində fəaliyyət göstərən müəllimlərin peşəkarlığının innovativ metodların tətbiqi ilə artırılması məqsədilə təlimlərin təşkili;
- Kafedraların profüssor-müəllim heyətinin mübadilə proqramlarında iştirakının təşviqi;
- Xarici ali təhsil müəssisələrinin müvafiq kafedraları ilə əməkdaşlıq münasibətlərinin qurulması.

*Departament üzrə təhkim edilən kafedralar:*

- "Azərbaycan dili"
- "Humanitar fənlər"
- "Karyera planlaşdırılması və inkişafı"

*Departamentdə tədris olunan fənlər:*

- Azərbaycan dilində işgüzar və akademik kommunikasiya
- Xarici dildə işgüzar və akademik kommunikasiya
- Azərbaycan tarixi
- Fəlsəfə
- Türk xalqlarının müasir tarixi
- Multikulturalizmə giriş
- Politologiya
- Sosiologiya

- Psixologiya
- Sosial psixologiya
- Siyasi elmin əsasları
- Mülki müdafiə
- Sosial pedaqogika
- Defektologiya
- Psixi saglamlıq
- Nevrobiologiya
- Ali məktəb pedoqogikası
- Ali məktəb psixologiyası
- Azərbaycan multikulturalizmi
- Estetikanın əsasları
- İqtisadiyyatın fəlsəfəsi
- İctimaiyyətlə əlaqələr
- Karyera planlaması
- Kritik düşünmə
- Sərt bacarıqlar (Hard skills)
- Təhsil və karyera planlaması
- Yumşaq bacarıqlar (Soft skills)

## Xarici Dillər departamenti

*Azərbaycan Dövlət İqtisad Universitetində xarici dillərin tədrisinin keyfiyyətinin artırılması zəruriliyini nəzərə alaraq, Xarici dillər departamentinin yaradılması haqqında UNEC-in Elmi Şurasının 14.07.2023-cü il tarixli EŞ 188 -li qərarının icrasını təmin etmək məqsədilə 06.09.2023-cü il tarixdən "Xarici dillər" kafedrası ləğv edilərək onun bazasında müstəqil struktur bölmə kimi "Xarici dillər departamenti" yaradılmışdır.*

Xarici dillər departamentinin tərkibində aşağıda göstərilən struktur bölmələr yaradılıb:

- *"*Xarici dillərin tədrisi mərkəzi*";*
– *"Xarici dil üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi mərkəzi"*

–"UNEC Dil mərkəzi"*;*
– "Tərcümə mərkəzi".

Xarici dillərin tədrisi mərkəzində ingilis, fransız, alman, rus dilləri tədris olunur.

**"Xarici dillərin tədrisi mərkəzi"** UNEC-də xarici dil fənnini dörd bacarıq (oxu yazı, dinləmə və danışıq) üzrə təşkil edir.

**"Xarici dil üzrə təhsilalanların biliyinin qiymətləndirilməsi mərkəzi"** UNEC-də tələbələrin imtahan zamanı 4 bacarıq üzrə qiymətləndirməsini həyata keçirir.

*"***UNEC Dil Mərkəzi"** (ULC) UNEC-də müxtəlif dillər üzrə hazırlıq kursları təşkil edir. UNEC Language Centre 7 oktyabr 2022-ci il tarixindən Azərbaycan Dövlət İqtisad Universitetinin daxilində fəaliyyətə başlamışdır. Dərslərimiz 4 dil bacarığının (yazı, oxu, dinləmə və şifahi nitq) inkişafına yönəlib. Tədris IELTS nəticəsi 8.5 və 8.0 olan CELTA, TEFL, həmçinin British Council tərəfindən verilmiş beynəlxalq Aptis C sertifikatlı müəllimlər tərəfindən aparılır.

ULC British Council-ın IELTS imtahanı üzrə rəsmi tərəfdaşıdır.

"**Tərcümə Mərkəzi"** 2016-cı ildə yaradılan Tərcümə Mərkəzi Azərbaycan Dövlət İqtisad Universitetində tədris işinin daha da təkmilləşdirilməsi, tədrisin yeni, müasir dövrün tələblərinə cavab verəcək iqtisadi ədəbiyyatlarla təmin edilməsi, universitetdə elm, təhsil, mədəniyyət və iqtisadiyyatın müxtəlif sahələrinə dəstək verilməsi, bu sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsini təmin edən təsisatdır.

# Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi

Universitetimizdə magistrant hazırlığı 1 sentyabr 1997-ci ildə Magistratura şöbəsi tərəfindən həyata keçirilirdi. 2001-ci ildə şöbənin əsasında Magistratura fakültəsi yaradılmış, 27 yanvar 2005-ci ildən isə magistr hazırlığını daha da təkmilləşdirmək, həmçinin müasir dövrün kəskin rəqabəti şəraitində hərtərəfli biliklərə yiyələnmiş və ölkə iqtisadiyyatının müxtəlif sahələrində aparılan islahatları həyata kecirə biləcək yüksək ixtisaslı mütəxəssislərin hazırlanması prosesinin gücləndirilməsi, magistratura təhsilinin Avropa kredit sisteminə inteqrasiyasının sürətləndirilməsi məqsədilə magistratura fakültəsi bazasında Magistr Hazırlığı Mərkəzi yaradılmışdır.

Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Şurasının 29 iyun 2015-ci il tarixli qərarı ilə magistr və doktorantların hazırlığının təkmilləşdirilməsi məqsədi ilə müasir tələblərə cavab verən Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi (BMDM) fəaliyyətə başlamışdır. Tədrisini beynəlxalq təhsil təcrübəsinə uyğun şəkildə formalaşdıran BMDM, Azərbaycan Respublikasında Ali Təhsilin Magistratura pilləsi üzrə iqtisadiyyat və idarəetmə ixtisas qrupları üzrə ixtisas və ixtisaslaşmaların beynəlxalq standartlara cavab verən yeni standartlarını hazırlayaraq AR Təhsil Nazirliyinə təqdim etmişdir. AR Təhsil Nazirinin 13 sentyabr 2016-cı il tarixli əmrinə əsasən hazırlanan bu yeni standartlar qüvvəyə minmişdir. 15.09.2020-ci il tarixdən UNEC-in idarə edilməsində paralelliyi aradan qaldırmaq və səmərəliliyi artırmaq məqsədilə Doktorantura şöbəsi Beynəlxalq magistratura və doktorantura mərkəzinin strukturuna daxil edilmişdir.

Beynəlxalq Magistratura və Doktorantura Mərkəzində həyata keçirilən tədris prosesinə xarici universitetlərin professor-müəllim heyəti cəlb edilir. Mərkəzdə magistrantların tədrisi 4 dildə – azərbaycan, ingilis, rus və türk dillərində həyata keçirilir.

Mərkəzin magistrantları Azərbaycan Dövlət İqtisad Universitetinin diplomu ilə yanaşı, Avropanın və Türkiyənin nüfuzlu universitetlərinin diplomlarını almaq imkanını da qazanırlar. Bu istiqamətdə Litvanın Mykolas Romeris Universiteti, Türkiyənin Süleyman Dəmirəl Universiteti, Makedoniyanın Beynəlxalq Vizyon Universiteti ilə müvafiq razılaşmalar əldə olunmuşdur.

Hazırda BMDM-də 1995 magistr təhsil alır.

**Doktorantura.** UNEC-in peşəkar akademik heyəti, çoxsaylı tədqiqat mərkəzləri, ən müasir avadanlıqlarla təchiz edilmiş laboratoriyaları, 7/24 saat rejimində online və offline formada işləyən zəngin kitabxanası keyfiyyətli doktorantura təhsilinin təşkil edilməsi üçün bütün imkanları təqdim edir.

Doktoranturada təhsil prosesləri Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Elm haqqında" Qanunları, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları", Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq qərarları, Azərbaycan Respublikası Təhsil Nazirliyinin normativ-hüquqi aktları və UNEC-in daxili qaydaları ilə tənzimlənir.

Doktoranturada təhsil fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə həyata keçirilir. Doktoranturada təhsilalma əyani (istehsalatdan ayrılmaqla) və qiyabi (istehsalatdan ayrılmamaqla) formalar üzrə həyata keçirilir. Doktorantura təhsili dissertantlıq (dissertantura) yolu ilə də reallaşdırır. Doktoranturada təhsil dövlət hesabına və (və ya) ödənişli əsaslarla həyata keçirilir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir. Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir. Müstəsna hallarda bütün təhsil formaları üzrə təhsil müddəti uzadıla bilər.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan Azərbaycan Respublikasının vətəndaşları sənəd verə bilərlər. Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti

olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər. "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər. Dissertant kimi təhkim olunmaq istəyən şəxslər azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olmalıdırlar.

*Mərkəz üzrə təhkim edilən kafedra:*

"İqtisadiyyat və texnoloji elmlər"

# UNEC Biznes Məktəbi

MBA (Master of Bussines of Administration) proqramı Azərbaycan Dövlət İqtisad Universiteti ilə Moskva Dövlət İqtisad, Statistika və İnformatika Universiteti arasında "Biznesin təşkili və idarə edilməsi üzrə magistrlərin hazırlanması, professor-müəllim heyətinin və inzibati işçilərin təkmilləşdirilməsi" sahəsində bağlanmış müqavilə əsasında 2001-ci ilin dekabrında yaradılmışdır. 2001-2014-cü illər ərzində MBA (Master of Bussines of Administration) proqramı Magistr Hazırlığı Mərkəzinin tərkibində struktur bölməsi kimi fəaliyyət göstərmişdir. 2014-cü il noyabr ayından etibarən MBA Departamenti yaradılmış və MBA Proqramı Magistr Mərkəzinin tərkibindən çıxarılaraq bu yeni strukturda fəaliyyətini davam etdirir. Hazırda qurum UNEC Biznes Məktəbi adlanır.

Proqram ali təhsilli ixtisaslı mütəxəssislərə öz rəhbərlik keyfiyyətlərinin təkmilləşdirilməsi, sistemli bilik, bacarıq və işgüzar idarəetmə vərdişlərinin öyrədilməsi və ixtisaslarının davamlı olaraq artırılması, müasir biznes informasiyalarının araşdırılması, analitik düşünmə və qərarvermə qabiliyyətinin qazanılması hüququ verir, onların müəssisə və təşkilatların idarə olunmasında məsul vəzifələr tutmasına imkan yaradır.

*UNEC Biznes Məktəbinin əsas dəyərləri:*

sistemlilik, peşəkarlıq, uğurluluq, fikir müxtəlifliyinə hörmət.

*UNEC Biznes Məktəbinin missiyası:*

– Biznes təcrübəsini və cəmiyyətdə biznesin rolunu təkmilləşdirmək üçün tətbiqi yönümlü tədqiqatlar və informasiya mübadiləsi vasitəsilə fundamental bilikləri öyrənmək və ötürmək;

– Tələbələrin tənqidi düşünmə qabiliyyəti, ünsiyyət, problemi həll etmə bacarığı və liderlik vərdişlərini inkişaf etdirmək; etik davranış və fikir müxtəlifliyinə hörmətin sosial faydasının anlaşılması;

– Azad fikir mübadiləsi vasitəsilə akademik və fərdi inkişafın əldə edilməsinin mümkün olduğu açıq və kollegial mühitdən faydalanmaq;

– İqtisadiyyatda biliyin və biznes təhsilində bacarıqların hüdudlarını təcrübədən keçirməklə UNEC Biznes məktəbinin yüksək nüfuzlu imicini formalaşdırmağa davam etmək;

UNEC Biznes Məktəbi akademik biliyin öyrənilməsi və bölüşdürülməsinə, fərdlərin tənqidi düşüncə, ünsiyyət və ötürüləbilən biznes bacarığı və liderlik qabiliyyətinin təkmilllədirilməsinə öhdəlik daşıyır. UNEC Biznes Məktəbi iş qüvvəsinin dayanıqlı idarəedilməsi və insanların fəal liderlirlik prinsipinə əsaslanan biliyin yaradılması və ötürülməsinə sonsuz səy göstərir. UNEC Biznes Məktəbi öz missiyasına tətbiqi biliklərin öyrənilməsi, uzun müddətli elmi dəyəri olan, özəl və ictimai əhəmiyyətli tədqiqatların nəşr edilməsi və paylanması vasitəsi ilə fundamental və interdissiplinar ixtisaslaşmaları həyata keçirərək nail olur.

*Vizyon:* Sistemli bilik, stateji bacarıq və fikir müxtəlifliyinin yetişdirdiyi həqiqi liderlərin öz biznesində və cəmiyyətdə uğurlu nümunə olduğu regionun ən peşəkar və təsir gücünə malik olan biznes məktəblərindən biri kimi tanınmaq.

Hazırda UNEC Biznes Məktəbində 2800 magistr təhsil alır.

*Mərkəz üzrə təhkim edilən kafedra:*

"İqtisadiyyat və biznesin idarə edilməsi"

# Ömürboyu Təhsil Mərkəzi

Ömürboyu Təhsil Mərkəzi Azərbaycan Dövlət İqtisad Universitetinin tərkibində 2021-ci ildə yaradılmışdır. Ömürboyu Təhsil Mərkəzinin məqsədi ixtisası və peşəsindən asılı olmayaraq hər kəsə iş mühitində tətbiq edə biləcəyi yeni bacarıqlar öyrətmək, özəl sektorda trend olan kursları təşkil etməklə rəqəmsal əmək bazarının tələbinə uyğun kadrların yetişməsinə dəstək olmaqdır. Mərkəz keyfiyyətli və innovativ öyrənmə imkanlarını təmin etməklə sənaye imkanlarını genişləndirmək və cəmiyyətin ömür boyu peşəkar və şəxsi inkişafına marağını gücləndirmək missiyasına malikdir.

UNEC Ömürboyu Təhsil Mərkəzində xidmətlər iki istiqamətə həyata keçirilir. Bunlar fərdi şəxslərvə bizneslərə uyğun təsnifləndirilir. Mərkəz tərəfindən təklif olunan kurslar həm fərdlər, həm də bizneslər və dövlət qurumları üçün təşkil olunur. Tələbata əsasən mərkəzimizdə xüsusi kursların, seminarların təşkili də mümkündür. Bundan əlavə korporativ əməkdaşlıq çərçivəsində konsultasiya xidmətimiz də mövcuddur. Mütəxəssis komandamız birbaşa unikal biznes problemlərinizlə əlaqəli öyrənmə təcrübələrini birgə yaratmaq üçün təşkilatınızla əməkdaşlıq edir və bir sıra virtual, qarışıq və fərdi formatlar vasitəsilə çatdırılır. Fərdi şəxslər üçün təklif olunan xidmətlər arasında kurslar vəseminarlar ilə yanaşı mentorluq və təcrübə proqramları da var.

Kurslar real bazarın tələbinə uyğun bilik və bacarıqların öyrədilməsi və tam ixtisaslı kadrın formalaşdırılmasını hədəfləyir. Vəzifəsindən və peşəsindən asılı olmayaraq hər kəs xidmətlərdən istifadəedə bilər. Kursu bitirənlər rəsmi UNEC sertifikatı ilə təmin edilir. Kurs bitdikdən sonra 2 ay müddətindədinləyicilərin mentor xidmətindən istifadə etmə imkanı var. Kurslar təşkil olunarkən sonlara doğru iştirakçılarla praktik seminar görüşləri də təşkil olunur.

*Bloomberg laboratoriyası.* UNEC Ömürboyu Təhsil Mərkəzinin nəzdində fəaliyyət göstərən Bloomberg maliyyə laboratoriyası nəinki tehsil sektorunda, hətta Azərbaycanda yeganə belə laboratoriyadır. Bu laboratoriya ölkədə maliyyə bazarlarının inkişafına mühüm töhfə verəcək və

məzunlarının əmək bazarında işlə təmin olunmasında mütləq üstünlüyə malik olacaq.

*Sayt:* https://lifelong.unec.edu.az/

***Kurslar***

*Sosial Media Marketinqi*

*Yumşaq bacarıqlar*

*Elektron ticarət*

*Kriptovalyuta*

*Biznes və marketinq analitikası*

*Məhsul Sahibliyi*

*İR analitikası*

*Rəqəmsal marketinq*

## İXTİSASLAR VƏ TƏDRİS PLANLARI

UNEC-də ali təhsilin bakalavriatura səviyyəsi üzrə 5 ixtisas qrupuna daxil olan 25 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir:

### I ixtisas qrupu

1. 050616 - İnformasiya texnologiyaları (az, ingilis, rus)
2. 050615 - İnformasiya təhlükəsizliyi (az, ingilis, rus)
3. 050620 - Kompüter mühəndisliyi (az, ingilis)
4. 050509 - Kompüter elmləri (az, rus)
5. 050619 - Kommunikasiya sistemləri mühəndisliyi (az, rus)
6. 050638 - Sənaye mühəndisliyi (az, rus)
7. 050623 - Materiallar mühəndisliyi (az)
8. 050622 - Maşın mühəndisliyi (az, rus)
9. 050606 - Ekologiya mühəndisliyi (az)
10. 050607 - Elektrik və elektronika mühəndisliyi (az)
11. 050635 - Qida mühəndisliyi (az, rus)
12. 050635 - Qida mühəndisliyi (Ege Universiteti ilə ikili diplom) (az, türk)

### II ixtisas qrupu

1. 050406 - Maliyyə (az, türk, ing, rus)
2. 050409 – Mühasibat (az, türk, ing, rus)

3. 050401 - Beynəlxalq ticarət və logistika (az, türk, ing, rus)
4. 050405 – İqtisadiyyat (az, türk, ing, rus)
5. 050402 - Biznesin idarə edilməsi (az, türk, ing, rus)
6. 050407 – Marketinq (az, türk, rus)
7. 050408 – Menecment (az, rus)
8. 050410 – Statistika (az)
9. 050404 - Dövlət və bələdiyyə idarəetməsi (az, türk)

**III ixtisas**

1. 050201 - Beynəlxalq münasibətlər (az, türk, rus)
2. 050807 - Sosial iş (az, rus)

**IV ixtisas qrupu**

1. 050504 – Ekologiya (az, rus)

**V ixtisas qrupu**

1. Dizayn (sahələr) (az, rus)

- Qrafik dizayn
- Sənaye dizaynı
- Mühit dizaynı
- Geyim dizaynı

# BAKALAVRİATURA

## MALİYYƏ ixtisası

Maliyyə ixtisasının əsas məqsədi ölkənin dövlət və özəl qurumları üçün maliyyə sahəsində ehtiyac duyduqları istedadlı və bilikli kadrlar hazırlamaqdır. Maliyyə ixtisasında tədris olunan fənlər tələbələrə həm dövlət maliyyəsi üzrə (vergi inzibatçısı, maliyyə auditoru), həm də özəl sektor üçün maliyyəçi (sığorta üzrə mütəxəssis, bank işçisi, maliyyə meneceri) kimi ixtisaslaşmaq üçün tələb olunan nəzəri bilikləri qazanmağa imkan verir.

Dövlət və özəl sektorun maliyyə məsələləri ilə bağlı üzləşdiyi problemlərə elmi metodlardan istifadə etməklə lazımi həll yollarını hazırlamaq üçün ixtisaslı işçi qüvvəsi hazırlanır. Bu ixtisas üzrə məzun olanlar dövlət maliyyə institutlarında, banklarda, investisiya, audit və maliyyə məsləhətçi şirkətlərində karyera imkanları əldə edə bilərlər.

Maliyyə ixtisasında Dövlət maliyyəsi, Korporativ maliyyə, Maliyyə bazarları, Maliyyə risklərinin idarəedilməsi,Vergitutma, Maliyyə menecmenti və s. fənlər tədris olunur.

Maliyyə ixtisası 4 dildə (azərbaycan, ingilis, türk, rus) tədris olunur.

**Tədris Planı**

| | |
|---|---|
| Ali təhsil səviyyəsi | Bakalavriatura |
| İxtisas qrupu | 4. İqtisadiyyat və idarəetmə ixtisasları qrupu |

| | | |
|---|---|---|
| İxtisasın adı | Maliyyə | |
| İxtisasın kodu | 050406 | |
| İxtisasın işarəsi | FİN | |
| Normativ təhsil müddəti | 4 il | |
| Tədris dili və fakültəsi | azərbaycan | Maliyyə və mühasibat |
| | rus | Rus iqtisad məktəbi |
| | türk | Türk dünyası iqtisad |
| | ingilis | Beynəlxalq iqtisad məktəbi |
| | ingilis | SABAH mərkəzi |

İxtisasın tədris illəri üzrə işçi tədris planı aşağıdakı kimidir:

| | | | **kredit** | **saat** |
|---|---|---|---|---|
| | | **I SEMESTR** | **30** | **330** |
| FIN | 001 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 60 |
| FIN | 002 | Xarici dildə işgüzar və akademik kommunikasiya-1 | 4 | 90 |
| FIN | 003 | İqtisadiyyata giriş | 6 | 60 |
| FIN | 004 | Xətti cəbr və riyazi analiz | 8 | 60 |
| FIN | 005 | İKT -baza komputer bilikləri | 8 | 60 |
| | | | | |
| | | **II SEMESTR** | **30** | **285** |
| FIN | 006 | Azərbaycanın tarixi | 5 | 60 |
| FIN | 007 | Xarici dildə işgüzar və akademik kommunikasiya-2 | 3 | 75 |
| FIN | 008 | Ehtimal nəzəriyyəsi və riyasi statistika | 8 | 60 |
| FIN | 009 | Karyera planlaması | 5 | 45 |
| FIN | 010 | Yumşaq bacarıqlar (Soft skills) | 9 | 45 |
| | | | | |
| | | **III SEMESTR** | **30** | **315** |
| FIN | 011 | Xarici dildə işgüzar və akademik kommunikasiya-3 | 4 | 90 |
| FIN | 012 | Mikroiqtisadiyyat | 10 | 60 |
| FIN | 013 | Maliyyə uçotu | 6 | 60 |
| FIN | 014 | Menecment | 7 | 60 |
| FIN | 015 | *Seçmə fənn 7 (II blok (ümumi))* | 3 | 45 |
| | | | | |
| | | **IV SEMESTR** | **30** | **330** |
| FIN | 016 | Xarici dildə işgüzar və akademik kommunikasiya-4 | 4 | 90 |
| FIN | 017 | Makroiqtisadiyyat | 10 | 60 |
| FIN | 018 | Korporativ maliyyə | 6 | 60 |
| FIN | 019 | Maliyyə risklərinin idarəedilməsi | 4 | 60 |
| FIN | 020 | *Seçmə fənn 2 (IV blok)* | 6 | 60 |
| | | | | |
| | | **V SEMESTR** | **30** | **285** |

| | | | | |
|---|---|---|---|---|
| FIN | 021 | Dövlət maliyyəsi | 6 | 60 |
| FIN | 022 | Maliyyə bazarları | 4 | 60 |
| FIN | 023 | *Seçmə fənn 3 (I blok)* | 6 | 60 |
| FIN | 024 | *Seçmə fənn 5 (III blok)* | 6 | 60 |
| FIN | 025 | *Seçmə fənn 4 (VII blok)* | 8 | 60 |
| | | | | |
| | | **VI SEMESTR** | **30** | **270** |
| FIN | 026 | Statistika | 10 | 60 |
| FIN | 027 | İnvestisiyanın idarəedilməsi | 6 | 60 |
| FIN | 028 | *Seçmə fənn 1 (V blok)* | 6 | 60 |
| FIN | 029 | *Seçmə fənn 6 (VIII blok)* | 4 | 45 |
| FIN | 030 | *Seçmə fənn 8 (IX blok)* | 4 | 45 |
| | | | | |
| | | **VII SEMESTR** | **30** | **285** |
| FIN | 031 | Ekonometrika | 10 | 60 |
| FIN | 032 | Vergitutma | 4 | 60 |
| FIN | 033 | Mülki müdafiə | 3 | 45 |
| FIN | 034 | *Seçmə fənn 9 (II blok )* | 7 | 60 |
| FIN | 035 | *Seçmə fənn 10 (X blok)* | 6 | 60 |
| | | | | |
| | | **VIII SEMESTR** | **30** | **210** |
| FIN | 036 | Maliyyə menecmenti | 4 | 60 |
| FIN | 037 | Sərt bacarıqlar (Hard skills) | 10 | 45 |
| FIN | 038 | İstehsalat təcrübəsi / layihə | 6 | 0 |
| FIN | 039 | *Seçmə fənn 11 (I blok (ümumi))* | 3 | 45 |
| FIN | 040 | *Seçmə fənn 12 (VI blok)* | 7 | 60 |

| | | | ***SEÇMƏ FƏNLƏR*** | kredit | saat |
|---|---|---|---|---|---|
| FIN | 015 | | ***V blok*** | 6 | 60 |
| | | 1 | Biznesin əsasları | | |
| | | 2 | Liderlik | | |
| | | 3 | Təşkilat nəzəriyyəsi | | |
| | | 4 | Sosial sahibkarlıq | | |
| | | 5 | Könüllülük fəaliyyəti | | |
| FIN | 020 | | IV blok | 6 | 60 |
| | | 1 | Marketinq | | |
| | | 2 | Reklam işi | | |
| | | 3 | Beynəlxalq marketinq | | |
| | | 4 | Qiymət siyasəti | | |
| | | 5 | Xidmətlərin marketinqi | | |
| | | 6 | Yeni məhslların inkişaf etdirilməsi | | |
| | | 7 | İctimaiyyətlə əlaqələr | | |
| | | 8 | İdman marketinqi | | |
| FIN | 022 | | ***I blok*** | 6 | 60 |
| | | 1 | Maliyyə uçotu* | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 2 | Maliyyə hesabatlılığı | | |
| | | 3 | Xərclərin idarəedilməsi | | |
| | | 4 | Risk və nəzarət | | |
| | | 5 | Mühasibatda proqram təminatı | | |
| FIN | 023 | | ***VII blok*** | 8 | 60 |
| | | 1 | İqtisadi dinamikanın əsasları | | |
| | | 2 | İnnovasiya iqtisadiyyatı | | |
| | | 3 | Firmanın iqtisadiyyatı | | |
| FIN | 024 | | ***III blok*** | 6 | 60 |
| | | 1 | Rəqəmsal iqtisadiyyat (Sahə iqtisadiyyatı) | | |
| | | 2 | Sənaye iqtisadiyyatı | | |
| | | 3 | Ətraf mühitin iqtisadiyyatı | | |
| | | 4 | Azərbaycan iqtisadiyyatı | | |
| | | 5 | Sosial sahələrin iqtisadiyyatı | | |
| | | 6 | İnstitusional iqtisadiyyat | | |
| | | 7 | Aqrar iqtisadiyyat | | |
| | | 8 | Davranış iqtisadiyyatı | | |
| | | 9 | Könüllülük fəaliyyəti | | |
| FIN | 025 | | ***VIII blok*** | 4 | 45 |
| | | 1 | Sabit gəlirli qiymətli kağızlar və törəmə maliyyə alətləri | | |
| | | 2 | Opsiyonlar və fyuçerslər | | |
| | | 3 | Sahibkarlıq maliyyəsi və vençur kapitalı | | |
| | | 4 | Büdcə sistemi | | |
| FIN | 029 | | ***II blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | | |
| | | 2 | İnformasiyanın idarə edilməsi | | |
| | | 3 | Sahibkarlığın əsasları və biznesə giriş | | |
| | | 4 | Politologiya | | |
| FIN | 030 | | ***IX blok*** | 4 | 45 |
| | | 1 | Maliyyə təhlili | | |
| | | 2 | Şirkət birləşmələri, satınalmalar və özəl kapital | | |
| | | 3 | Dövlətin gəlir və xərclərinin idarəedilməsi | | |
| FIN | 034 | | ***II blok*** | 7 | 60 |
| | | 1 | Bank işi | | |
| | | 2 | Sığorta | | |
| | | 3 | Maliyyə riyaziyyatı | | |
| | | 4 | Davranış maliyyəsi | | |
| | | 5 | Aktivlərin qiymətləndirilməsi və idarəedilməsi | | |
| | | 6 | Maliyyə mühəndisliyi | | |
| | | 7 | Könüllülük fəaliyyəti | | |
| FIN | 035 | | ***X blok*** | 6 | 60 |
| | | 1 | Alternativ investisiyalar | | |
| | | 2 | Portfelin idarəedilməsi | | |
| | | 3 | Maliyyə modelləşdirilməsi | | |
| | | 4 | Beynəlxalq vergitutma | | |
| FIN | 039 | | ***I blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | Fəlsəfə | | |
| | | 2 | Sosiologiya | | |
| | | 3 | AR Konstitusiyası və hüququn əsasları | | |
| | | 4 | Məntiq | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 5 | Etika | | |
| | | 6 | Multikulturalizmə giriş | | |
| FIN | 040 | | ***VI blok*** | 7 | 60 |
| | | 1 | Proseslərin idarə edilməsi | | |
| | | 2 | Beynəlxalq menecment | | |
| | | 3 | Müasir idarəetmə metodları | | |
| | | 4 | İnkişafın idarəedilməsi | | |

## BİZNESİN İDARƏ EDİLMƏSİ ixtisası

Biznesin idarə edilməsi ixtisası, iş dünyası üçün sahibkarlıq və idarəçilik keyfiyyətlərinə malik işçilər yetişdirməyi, biznes elmi sahəsində akademik inkişafa töhfə verəcək tədqiqatlar aparmağı, davamlı inkişafı daimi hala gətirməyi, əlavə dəyər yaradan və yenilikçi məlumatı yaradaraq maraqlı tərəflərlə bölüşməyi öhdəsinə götürmüşdür. Biznesin idarə edilməsi ixtisasının əsas məqsədi dünyada baş verən hadisələrə uyğunlaşan uğurlu, bilikli və yaxşı təchiz olunmuş menecerlər yetişdirməkdir.

Biznesin idarə edilməsi ixtisası müəssisələrin fəaliyyəti, funksiyaları və əlaqələri barədə məlumat vermək və bu sahədə təcrübə təmin etmək üçün nəzərdə tutulmuşdur. İxtisas həmçinin bakalavrın praktiki, idarəetmə, ünsiyyət bacarıqları və qərar qəbuletmə bacarıqlarını inkişaf etdirməyi hədəfləyir. Bununla yanaşı, kafedranın bir məqsədi qloballaşmanın yalnız yerli çərçivədə deyil, həm də beynəlxalq ölçüdə nəzərə alınması yolu ilə getdikcə rəqabət mühitinə uyğunlaşa biləcək tələbələrə təhsil verməkdir.

Məzunlar həm özəl, həm də hökumət sektorlarında ixtisas üzrə aldıqları təlim proqramı ilə geniş bir sahədə iş tapmaq imkanı əldə edirlər. Eyni zamanda, departament kursları tələbələrə sahibkarlıq bacarıqlarını yaratmaq, öz bizneslərini qurmaq, riskləri qəbul etmək və yaradıcı düşünmək kimi kömək edir.

Biznesin idarə edilməsi ixtisası 4 dildə (azərbaycan, ingilis, türk, rus) tədris olunur.

### Tədris Planı

| | | |
|---|---|---|
| Ali təhsil səviyyəsi | Bakalavriatura | |
| İxtisas qrupu | 4. İqtisadiyyat və idarəetmə ixtisasları qrupu | |
| İxtisasın adı | Beynəlxalq ticarət və logistika | |
| İxtisasın kodu | 050401 | |
| İxtisasın işarəsi | BTL | |
| Normativ təhsil müddəti | 4 il | |
| Tədris dili və fakültəsi | azərbaycan | Biznes və menecment |
| | rus | Rus iqtisad məktəbi |
| | türk | Türk dünyası iqtisad |
| | ingilis | Beynəlxalq iqtisad məktəbi |
| | ingilis | SABAH mərkəzi |

İxtisasın tədris illəri üzrə işçi tədris planı aşağıdakı kimidir:

| | | | kredit | saat |
|---|---|---|---|---|
| **BTL** | | **I SEMESTR** | **30** | **330** |
| BTL | 001 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 60 |
| BTL | 002 | Xarici dildə işgüzar və akademik kommunikasiya-1 | 4 | 90 |
| BTL | 003 | İqtisadiyyata giriş | 6 | 60 |
| BTL | 004 | Xətti cəbr və riyazi analiz | 8 | 60 |
| BTL | 005 | İKT -baza komputer bilikləri | 8 | 60 |
| | | **II SEMESTR** | **30** | **285** |
| BTL | 006 | Azərbaycanın tarixi | 5 | 60 |
| BTL | 007 | Xarici dildə işgüzar və akademik kommunikasiya-2 | 3 | 75 |
| BTL | 008 | Ehtimal nəzəriyyəsi və riyasi statistika | 8 | 60 |
| BTL | 009 | Karyera planlaması | 5 | 45 |
| BTL | 0010 | Yumşaq bacarıqlar (Soft skills) | 9 | 45 |
| | | **III SEMESTR** | **30** | **330** |
| BTL | 011 | Xarici dildə işgüzar və akademik kommunikasiya-3 | 4 | 90 |
| BTL | 012 | Mikroiqtisadiyyat | 10 | 60 |
| BTL | 013 | Logistikanın əsasları | 6 | 60 |
| BTL | 014 | Beynəlxalq ticarət hüququ | 4 | 60 |
| BTL | 015 | *Seçmə fənn 1 (I blok)* | 6 | 60 |
| | | **IV SEMESTR** | **30** | **315** |
| BTL | 016 | Xarici dildə işgüzar və akademik kommunikasiya-4 | 4 | 90 |
| BTL | 017 | Makroiqtisadiyyat | 10 | 60 |
| BTL | 018 | Biznesin əsasları | 6 | 60 |
| BTL | 019 | Təchizat zəncirinin idarəedilməsi | 4 | 45 |
| BTL | 020 | *Seçmə fənn 2 (IV blok)* | 6 | 60 |
| | | **V SEMESTR** | **30** | **300** |
| BTL | 021 | Beynəlxalq nəqliyyat əməliyyatları | 6 | 60 |
| BTL | 022 | Beynəlxalq iqtisadiyyat | 4 | 60 |
| BTL | 023 | *Seçmə fənn 3 (V blok)* | 6 | 60 |
| BTL | 024 | *Seçmə fənn 4 (III blok)* | 6 | 60 |
| BTL | 025 | *Seçmə fənn 5 (VII blok)* | 8 | 60 |
| | | **VI SEMESTR** | **30** | **285** |
| BTL | 026 | Beynəlxalq biznes | 6 | 60 |
| BTL | 027 | Beynəlxaql ticarət | 4 | 60 |
| BTL | 028 | Statistika | 10 | 60 |
| BTL | 029 | Menecment | 7 | 60 |
| BTL | 030 | *Seçmə fənn 6 (II blok (ümumi))* | 3 | 45 |
| | | **VII SEMESTR** | **30** | **270** |
| BTL | 031 | Ekonometrika | 10 | 60 |
| BTL | 032 | *Seçmə fənn 7 (VIII blok)* | 4 | 45 |
| BTL | 033 | *Seçmə fənn 8 (II blok)* | 7 | 60 |
| BTL | 034 | *Seçmə fənn 9 (I blok (ümumi))* | 3 | 45 |
| BTL | 035 | *Seçmə fənn 10 (IX blok)* | 6 | 60 |

| | | VIII SEMESTR | 30 | 195 |
|---|---|---|---|---|
| BTL | 036 | Sərt bacarıqlar (Hard skills) | 10 | 45 |
| BTL | 037 | İstehsalat təcrübəsi / layihə | 6 | 0 |
| BTL | 038 | Mülki müdafiə | 3 | 45 |
| BTL | 039 | *Seçmə fənn 11 (VI blok)* | 7 | 60 |
| BTL | 040 | *Seçmə fənn 12(X blok)* | 4 | 45 |

| | | | ***SEÇMƏ FƏNLƏR*** | **kredit** | **saat** |
|---|---|---|---|---|---|
| BTL | 015 | | ***I blok*** | 6 | 60 |
| | | 1 | Maliyyə Uçotu | | |
| | | 2 | Maliyyə Hesabatlılığı | | |
| | | 3 | Xərclərin idarəedilməsi | | |
| | | 4 | Risk və nəzarət | | |
| | | 5 | Mühasibatda proqram təminatı | | |
| BTL | 020 | | ***IV blok*** | 6 | 60 |
| | | 1 | Marketinq | | |
| | | 2 | Reklam işi | | |
| | | 3 | Beynəlxalq marketinq | | |
| | | 4 | Qiymət siyasəti | | |
| | | 5 | Xidmətlərin Marketinqi | | |
| | | 6 | Yeni məhslların inkişaf etdirilməsi | | |
| | | 7 | İctimaiyyətlə əlaqələr | | |
| | | 8 | İdman marketinqi | | |
| | | 9 | Könüllülük fəaliyyəti | | |
| BTL | 023 | | ***V blok*** | 6 | 60 |
| | | 1 | Biznesin əsasları | | |
| | | 2 | Liderlik | | |
| | | 3 | Təşkilat nəzəriyyəsi | | |
| | | 4 | Sosial Sahibkarlıq | | |
| | | 5 | Könüllülük fəaliyyəti | | |
| BTL | 024 | | ***III blok*** | 6 | 60 |
| | | 1 | Rəqəmsal iqtisadiyyat (Sahə iqtisadiyyatı) | | |
| | | 2 | Sənaye iqtisadiyyatı | | |
| | | 3 | Ətraf mühitin iqtisadiyyatı | | |
| | | 4 | Azərbaycan iqtisadiyyatı | | |
| | | 5 | Sosial sahələrin iqtisadiyyatı | | |
| | | 6 | İnstitusional iqtisadiyyat | | |
| | | 7 | Aqrar iqtisadiyyat | | |
| | | 8 | Davranış iqtisadiyyatı | | |
| BTL | 025 | | ***VII blok*** | 8 | 60 |
| | | 1 | İqtisadi dinamikanın əsasları | | |
| | | 2 | İnnovasoya İqtisadiyyatı | | |
| | | 3 | Firmanın iqtisadiyyatı | | |
| BTL | 030 | | ***II blok  (ümumi)*** | 3 | 45 |
| | | 1 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | | |
| | | 2 | İnformasiyanın idarə edilməsi | | |
| | | 3 | Sahibkarlığın əsasları və biznesə giriş | | |
| | | 4 | Politoloqiya | | |
| BTL | 032 | | ***VIII blok*** | 4 | 45 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 1 | İdxal/İxrac əməliyyatları | | |
| | | 2 | Qlobal logistika və təchizat sistemi | | |
| | | 3 | Xarici ölkələrin iqtisadiyyatı | | |
| | | 4 | Beynəlxalq biznes iqtisadiyyatı | | |
| BTL | 033 | | ***II blok*** | 7 | 60 |
| | | 4 | Bank işi | | |
| | | 2 | Sığorta | | |
| | | 6 | Maliyyə riyaziyyatı | | |
| | | 1 | Davranış maliyyəsi | | |
| | | 5 | Aktivlərin qiymətləndirilməsi və idarəedilməsi | | |
| | | 3 | Maliyyə mühəndisliyi | | |
| | | 7 | Könüllülük fəaliyyəti | 0 | 0 |
| BTL | 034 | | ***I blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | Fəlsəfə | | |
| | | 2 | Sosiologiya | | |
| | | 3 | AR Konstitusiyası və hüququn əsasları | | |
| | | 4 | Məntiq | | |
| | | 5 | Etika | | |
| | | 6 | Multikulturalizmə giriş | | |
| BTL | 035 | | ***IX blok*** | 6 | 60 |
| | | 1 | Ehtiyyatların idarəedilməsi | | |
| | | 2 | Beynəlxalq multimodal daşımalar | | |
| | | 3 | Qlobal biznes strategiyası | | |
| BTL | 039 | | ***VI blok*** | 7 | 60 |
| | | 1 | Proseslərin idarə edilməsi | | |
| | | 2 | Beynəlxalq menecment | | |
| | | 3 | Müasir idarəetmə metodları | | |
| | | 4 | İnkişafın idarəedilməsi | | |
| BTL | 040 | | ***X blok*** | 4 | 45 |
| | | 1 | Anbar təsərrüfatı | | |
| | | 2 | Beynəlxalq risk menecmenti | | |
| | | 3 | Mədəniyyətlərarası idarəetmə və beynəlxalq danışıqlar | | |

## MENECMENT ixtisası

Menecment idarəetmə münasibətlərini formalaşdıran və tənzimləyən idarəetmə prinsiplərini və dəyərini (ümumilikdə idarəetmədə mədəniyyətini) araşdırır. O, təşkilatın daxili və xarici mühit amilləri arasında qarşılıqlı dinamikanı və münasibətləri müəyyənləşdirir. Menecment və ya idarəetmə işgüzar təşkilatın məqsədlərinə çatmaq üçün istifadə olunan metodları, o cümlədən iqtisadi, inzibati sosial-psixoloji metodları və onların elementlərini öyrənir. Menecment insani resurslarını-qrupları kollektivləri, kollektivdaxili dinamkanı, qrupun fəaliyyətinə təsir edən amilləri, kollektivdəki sosial-psixoloji mühiti tətqiq edir. Təşkilat rəhbərlərin (liderlərin) əsas keyfiyyətləri onların hakimiyyət mənbələri (resusrları) və mexanizmləri, rəhbərlik üslübları-direktiv, demokratik və liberal menecerlər tərəfindən əhatə edilir.

İstehsalın təşkili və idarə olunması, o cümlədən maliyyə, informasiya, texnoloji, material (xammal), insani kimi resursların cəlb edilməsi və təşkili menecment sisteminə daxildir. Təşkilatın zaman baxımından qısa müddətli, orta müddətli və strateji idarə edilməsi menecmentin yanaşmasına aiddir. Bu ixtisas işgüzar təşkilatlarla yanaşı dövlət və bələdiyyə sahəsində idarəetmə ona çatma vasitələrinin seçilməsi ilə yanaşı, bu prosesdə yaranan münaqişələrə, streslərə dəyişikliklərə müqavimət və onların idarə edilməsini məhz menecment öyrənir.

Menecment qaydaları, normaları, dəyərləri, həmçinin bütövlükdə təşkilati mədəniyyət və menecment etikasının tərkibində işıqlandırır.

Menecment ixtisası 2 dildə tədris olunur (azərbaycan, rus).

## Tədris Planı

| | | |
|---|---|---|
| Ali təhsil səviyyəsi | Bakalavriatura | |
| İxtisas qrupu | 4. İqtisadiyyat və idarəetmə ixtisasları qrupu | |
| İxtisasın adı | Menecment | |
| İxtisasın kodu | 050408 | |
| İxtisasın işarəsi | MEN | |
| Normativ təhsil müddəti | 4 il | |
| Tədris dili və fakültəsi | azərbaycan | Biznes və menecment |
| | rus | Rus iqtisad məktəbi |
| | | |
| | | |

İxtisasın tədris illəri üzrə işçi tədris planı aşağıdakı kimidir:

| | | | | |
|---|---|---|---|---|
| | | **I SEMESTR** | **30** | **330** |
| MEN | 001 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 60 |
| MEN | 002 | Xarici dildə işgüzar və akademik kommunikasiya-1 | 4 | 90 |
| MEN | 003 | İqtisadiyyata giriş | 6 | 60 |
| MEN | 004 | Xətti cəbr və riyazi analiz | 8 | 60 |
| MEN | 005 | İKT -baza komputer bilikləri | 8 | 60 |
| | | **II SEMESTR** | **30** | **285** |
| MEN | 006 | Azərbaycanın tarixi | 5 | 60 |
| MEN | 007 | Xarici dildə işgüzar və akademik kommunikasiya-2 | 3 | 75 |
| MEN | 008 | Ehtimal nəzəriyyəsi və riyasi statistika | 8 | 60 |
| MEN | 009 | Karyera planlaması | 5 | 45 |
| MEN | 010 | Yumşaq bacarıqlar (Soft skills) | 9 | 45 |
| | | **III SEMESTR** | **30** | **330** |
| MEN | 011 | Xarici dildə işgüzar və akademik kommunikasiya-3 | 4 | 90 |
| MEN | 012 | Mikroiqtisadiyyat | 10 | 60 |
| MEN | 013 | Biznesin əsasları | 6 | 60 |
| MEN | 014 | *Seçmə fənn 1 (IX blok)* | 4 | 60 |
| MEN | 015 | *Seçmə fənn 2 (I blok)* | 6 | 60 |
| | | IV SEMESTR | **30** | **330** |
| MEN | 016 | Xarici dildə işgüzar və akademik kommunikasiya-4 | 4 | 90 |
| MEN | 017 | Layihələrin idarəedilməsi | 6 | 45 |
| MEN | 018 | Əməliyyatların idarəedilməsi | 4 | 30 |
| MEN | 019 | Menecment | 7 | 60 |
| MEN | 020 | Mülki müdafiə | 3 | 45 |
| MEN | 021 | *Seçmə fənn 3 (IV blok)* | 6 | 60 |
| | | **V SEMESTR** | **30** | **240** |
| MEN | 022 | Koorporativ idarəetmə | 6 | 60 |
| MEN | 023 | Makroiqtisadiyyat | 10 | 60 |

| | | | | |
|---|---|---|---|---|
| MEN | 024 | Statistika | 10 | 60 |
| MEN | 025 | İnsan resurslarının idarəedilməsi | 4 | 60 |
| | | **VI SEMESTR** | **30** | **270** |
| MEN | 026 | Ekonometrika | 10 | 60 |
| MEN | 027 | *Seçmə fənn 4 (II blok (ümumi))* | 3 | 45 |
| MEN | 028 | *Seçmə fənn 5 (II blok )* | 7 | 60 |
| MEN | 029 | *Seçmə fənn 6 (X blok)* | 6 | 60 |
| MEN | 030 | *Seçmə fənn 7 (VIII blok)* | 4 | 45 |
| | | **VII SEMESTR** | **30** | **300** |
| MEN | 031 | Keyfiyyətin idarəedilməsi | 4 | 60 |
| MEN | 032 | Strateji menecment | 6 | 60 |
| MEN | 033 | *Seçmə fənn 8 (III blok)* | 6 | 60 |
| MEN | 034 | *Seçmə fənn 9 (VII blok)* | 8 | 60 |
| MEN | 035 | *Seçmə fənn 10 (V blok)* | 6 | 60 |
| | | **VIII SEMESTR** | **30** | **210** |
| MEN | 036 | Sərt bacarıqlar (Hard skills) | 10 | 45 |
| MEN | 037 | İstehsalat təcrübəsi / layihə | 6 | 0 |
| MEN | 038 | Innovasiya menecmenti | 4 | 60 |
| MEN | 039 | *Seçmə fənn 11 (I blok (ümumi)* | 3 | 45 |
| MEN | 040 | *Seçmə fənn 12 (VI blok* | 7 | 60 |

| | | | ***SEÇMƏ FƏNLƏR*** | kredit | saat |
|---|---|---|---|---|---|
| MEN | 014 | | ***IX blok*** | 4 | 60 |
| | | 1 | Təşkilati davranış | | |
| | | 2 | Biznes hüququ | | |
| | | 3 | Əmək qanunvericiliyi | | |
| | | 4 | Qərarvermədə riyazi metodlar | | |
| MEN | 015 | | ***I blok*** | 6 | 60 |
| | | 1 | Maliyyə uçotu | | |
| | | 2 | Maliyyə hesabatlılığı | | |
| | | 3 | Xərclərin idarəedilməsi | | |
| | | 4 | Risk və nəzarət | | |
| | | 5 | Mühasibatda proqram təminatı | | |
| MEN | 021 | | ***IV blok*** | 6 | 60 |
| | | 1 | Marketinq | | |
| | | 2 | Reklam işi | | |
| | | 3 | Beynəlxalq marketinq | | |
| | | 4 | Qiymət siyasəti | | |
| | | 5 | Xidmətlərin marketinqi | | |
| | | 6 | Yeni məhslların inkişaf etdirilməsi | | |
| | | 7 | İctimaiyyətlə əlaqələr | | |
| | | 2 | Maliyyə hesabatlılığı | | |
| | | 3 | Xərclərin idarəedilməsi | | |
| | | 4 | Risk və nəzarət | | |
| | | 5 | Mühasibatda proqram təminatı | | |
| | | 6 | Könüllülük fəaliyyəti | | |
| DBL | 025 | | ***III blok*** | 6 | 60 |
| | | 1 | Rəqəmsal iqtisadiyyat (Sahə iqtisadiyyatı) | | |
| | | 2 | Sənaye iqtisadiyyatı | | |
| | | 3 | Ətraf mühitin iqtisadiyyatı | | |
| | | 4 | Azərbaycan iqtisadiyyatı | | |
| | | 5 | Sosial sahələrin iqtisadiyyatı | | |
| | | 6 | İnstitusional iqtisadiyyat | | |
| | | 7 | Aqrar iqtisadiyyat | | |
| | | 8 | Davranış iqtisadiyyatı | | |
| | | 9 | Könüllülük fəaliyyəti | | |
| DBL | 028 | | ***I blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | Fəlsəfə | | |
| | | 2 | Sosiologiya | | |
| | | 3 | AR Konstitusiyası və hüququn əsasları | | |
| | | 4 | Məntiq | | |
| | | 5 | Etika | | |
| | | 6 | Multikulturalizmə giriş | | |
| DBL | 029 | | ***II blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | | |
| | | 2 | İnformasiyanın idarə edilməsi | | |
| | | 3 | Sahibkarlığın əsasları və biznesə giriş | | |
| | | 4 | Politoloqiya | | |
| DBL | 030 | | ***IV blok*** | 6 | 60 |
| | | 1 | Marketinq | | |
| | | 2 | Reklam işi | | |
| | | 3 | Beynəlxalq marketinq | | |
| | | 4 | Qiymət siyasəti | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 5 | Xidmətlərin marketinqi | | |
| | | 6 | Yeni məhslların inkişaf etdirilməsi | | |
| | | 7 | İctimaiyyətlə əlaqələr | | |
| | | 8 | İdman marketinqi | | |
| DBL | 032 | | ***VII blok*** | 8 | 60 |
| | | 1 | İqtisadi dinamikanın əsasları | | |
| | | 2 | İnnovasiya iqtisadiyyatı | | |
| | | 3 | Firmanın iqtisadiyyatı | | |
| DBL | 033 | | ***II blok*** | 7 | 60 |
| | | 1 | Bank işi | | |
| | | 2 | Sığorta | | |
| | | 3 | Maliyyə riyaziyyatı | | |
| | | 4 | Davranış maliyyəsi | | |
| | | 5 | Aktivlərin qiymətləndirilməsi və idarəedilməsi | | |
| | | 6 | Maliyyə mühəndisliyi | | |
| | | 7 | Könüllülük fəaliyyəti | | |
| DBL | 034 | | ***VI blok*** | 7 | 60 |
| | | 1 | Proseslərin idarə edilməsi | | |
| | | 2 | Beynəlxalq menecment | | |
| | | 3 | Müasir idarəetmə metodları | | |
| | | 4 | İnkişafın idarəedilməsi | | |
| DBL | 035 | | ***IX blok*** | 4 | 45 |
| | | 1 | Müasir siyasi nəzəriyyələr | | |
| | | 2 | Media münasibətləri | | |
| | | 3 | Beynəlxalq hüquq | | |
| | | 4 | Beynəlxalq münasibətlərə giriş | | |
| DBL | 036 | | ***V blok*** | 6 | 60 |
| | | 1 | Biznesin əsasları | | |
| | | 2 | Liderlik | | |
| | | 3 | Təşkilat nəzəriyyəsi | | |
| | | 4 | Sosial Sahibkarlıq | | |
| DBL | 040 | | ***X blok*** | 7 | 60 |
| | | 1 | Müqayisəli siyasi sistemler | | |
| | | 2 | İnzibati hüquq | | |
| | | 3 | Mülki hüquq | | |
| | | 4 | Qlobalsiyasət | | |
| | | 5 | Beynəlxalq təşkilatlar | | |
| DBL | 041 | | ***VIII blok*** | 3 | 45 |
| | | 1 | Sosiologiya* | | |
| | | 2 | Şəhərləşmə və ekologiya | | |
| | | 3 | AR Konstitusiyası və hüququn əsasları * | | |
| | | 4 | Azərbaycanın xarici siyasəti | | |
| | | 5 | İnsan hüquqları | | |

## Dizayn ixtisası

Dizayner dövrümüzün müasir peşələrindən biri sayılır və bu ixtisas çox profilli mütəxəssis hazırlığı ilə məşğul olur. Təhsil zamanı tələbələr dizayn tarixinin, incəsənət və memarlıq tarixinin dövri, məhəlli xüsusiyyətləri, üslublar, tanınmış memarlar və onların dəyərli əsərləri haqqında bilgilərə malik olur, bədii-sənaye istehsal məmulatlarının, poliqrafiya, geyim, nəqliyyat vasitələrinin tərtibat həllərini və müxtəlif mühit obyektlərinin qrafiki təsvirini verməyi, şəhərin, memarlıq, landşaft obyektlərinin və mühit avadanlıqlarının layihə - qrafik sənədlərini hazırlamağı, cizgilərin tərtibat qaydalarını, dizayn materiallarını, onların müvafiq standart və işlədilmə normalarını bilməli və bədii - estetik aspektdən tətbiqini bacarırlar. Məzunlar fabriklərdə, moda evlərində, reklam agentliklərində və s. işləyə, müstəqil şəkildə fəaliyyət göstərə bilərlər.

Dizayn ixtisası üzrə tədris azərbaycan və rus dillərində aparılır.

### Tədris Planı

| | | |
|---|---|---|
| Ali təhsil səviyyəsi | Bakalavriatura | |
| İxtisas qrupu | 3. Mədəniyyət və incəsənət ixtisasları qrupu | |
| İxtisasın adı | Dizayn | |
| İxtisasın kodu | 050306 | |
| İxtisasın işarəsi | DİZ | |
| Normativ təhsil müddəti | 4 il | |
| Tədris dili və fakültəsi | azərbaycan | UNEC Dizayn məktəbi |
| | rus | UNEC Dizayn məktəbi |
| | | |
| | | |

| | | | kredit | saat |
|---|---|---|---|---|
| | | **I SEMESTR** | **30** | **330** |
| DIZ | 001 | Azərbaycan tarixi | 5 | 60 |
| DIZ | 002 | Xarici dildə işgüzar və akademik kommunikasiya-1 | 4 | 60 |
| DIZ | 003 | Rəsm-1 | 6 | 45 |
| DIZ | 004 | Rəngkarlıq-1 | 5 | 60 |
| DIZ | 005 | Dizaynın əsasları-1 | 5 | 45 |
| DIZ | 006 | Dizayn tarixi | 5 | 60 |
| | | **II SEMESTR** | **30** | **330** |
| DIZ | 007 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 60 |
| DIZ | 008 | Xarici dildə işgüzar və akademik kommunikasiya-2 | 3 | 45 |
| DIZ | 009 | Rəsm-2 | 5 | 60 |
| DIZ | 010 | Rəngkarlıq-2 | 5 | 60 |
| DIZ | 011 | Dizaynın əsasları-2 | 5 | 45 |
| DIZ | 012 | *Seçmə fənn 1 (III blok)* | 8 | 60 |
| | | **III SEMESTR** | **30** | **330** |
| DIZ | 013 | Xarici dildə işgüzar və akademik kommunikasiya-3 | 4 | 60 |

| | | | | |
|---|---|---|---|---|
| DIZ | 014 | Rəsm-3 | 5 | 60 |
| DIZ | 015 | Rəngkarlıq-3 | 4 | 60 |
| DIZ | 016 | Perspektiva | 6 | 45 |
| DIZ | 017 | Erqonomika | 5 | 45 |
| DIZ | 018 | *Seçmə fənn 2 (X blok)* | 6 | 60 |
| | | **IV SEMESTR** | **30** | **330** |
| DIZ | 019 | Xarici dildə işgüzar və akademik kommunikasiya-4 | 4 | 60 |
| DIZ | 020 | Rəsm-4 | 4 | 60 |
| DIZ | 021 | Rəngkarlıq-4 | 4 | 60 |
| DIZ | 022 | *Seçmə fənn 3(IIblok (ümumi)* | 3 | 45 |
| DIZ | 023 | *Seçmə fənn 4 (XI blok)* | 7 | 60 |
| DIZ | 024 | *Seçmə fənn 5 (XIII blok)* | 8 | 45 |
| | | **V SEMESTR** | **30** | **330** |
| DIZ | 025 | *Seçmə fənn 6 (I blok)* | 5 | 60 |
| DIZ | 026 | *Seçmə fənn 7 (VIII blok)* | 5 | 45 |
| DIZ | 027 | *Seçmə fənn 8 (IX blok)* | 5 | 60 |
| DIZ | 028 | *Seçmə fənn 9XVI blok)* | 5 | 60 |
| DIZ | 029 | *Seçmə fənn 10 (XV blok)* | 5 | 60 |
| DIZ | 030 | *Seçmə fənn 11 (XVII blok)* | 5 | 45 |
| | | **VI SEMESTR** | **30** | **315** |
| DIZ | 031 | Mülki müdafiə | 3 | 45 |
| DIZ | 032 | *Seçmə fənn 12 (II blok)* | 6 | 45 |
| DIZ | 033 | *Seçmə fənn 13 (V blok)* | 6 | 60 |
| DIZ | 034 | *Seçmə fənn 14 (VIblok)* | 6 | 60 |
| DIZ | 035 | *Seçmə fənn 15 (VII blok)* | 6 | 60 |
| DIZ | 036 | *Seçmə fənn 16 (XII blok)* | 3 | 45 |
| | | **VII SEMESTR** | **30** | **330** |
| DIZ | 037 | Multikulturalizmə giriş | 3 | 45 |
| DIZ | 038 | *Seçmə fənn 17 (Iblok (ümumi)* | 3 | 45 |
| DIZ | 039 | *Seçmə fənn 18 (IV blok)* | 6 | 60 |
| DIZ | 040 | *Seçmə fənn 19 (XIV blok)* | 6 | 60 |
| DIZ | 041 | *Seçmə fənn 20(XVIII blok)* | 6 | 60 |
| DIZ | 042 | *Seçmə fənn 21 (XIX blok)* | 6 | 60 |
| | | **VIII SEMESTR** | **30** | **0** |
| DIZ | 043 | Təcrübə | 21 | 0 |
| DIZ | 044 | Buraxılış işi | 9 | 0 |

| | | | ***SEÇMƏ FƏNLƏR*** | **kredit** | **saat** |
|---|---|---|---|---|---|
| DIZ | 012 | | ***III blok*** | 8 | 60 |
| | | 1 | Qrafik dizayn | | |
| | | 2 | Reklamda firma stili | | |
| | | 3 | Aydentika və brend-dizayn | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| DIZ | 018 | | ***X blok*** | 6 | 60 |
| | | 1 | Konstruktivləşmənin əsasları | | |
| | | 2 | Geyimin konstruksiyası | | |
| | | 3 | Bədii konstruksiyalaşdırma | | |
| DIZ | 022 | | ***II blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | İnformasiya texnologiyaları (ixtisas üzrə) | | |
| | | 2 | İnformasiyanın idarə edilməsi | | |
| | | 3 | Sahibkarlığın əsasları və biznesə giriş | | |
| DIZ | 023 | | ***XI blok*** | 7 | 60 |
| | | 1 | Layihə qrafikası | | |
| | | 2 | Məmulatların bədii layihələndirilməsi | | |
| | | 3 | Layiləndirmənin əsasları | | |
| DIZ | 024 | | ***XIII blok*** | 8 | 45 |
| | | 1 | Heykəltəraşlıq | | |
| | | 2 | Kompozisiya | | |
| | | 3 | Plastik anatomiya | | |
| DIZ | 025 | | ***I blok*** | 5 | 60 |
| | | 1 | Qrafik dizayn proqramları | | |
| | | 2 | Dizayn məhsullarının bədii layihələndirməsi | | |
| | | 3 | Məhsul dizaynı | | |
| DIZ | 026 | | ***VIII blok*** | 5 | 45 |
| | | 1 | Geyimin modelləşdirilməsi | | |
| | | 2 | Geyim formalarının və dizayn-layihələndirmənin əsasları | | |
| | | 3 | Kostyum dizaynında ornament | | |
| DIZ | 027 | | ***IX blok*** | 5 | 60 |
| | | 1 | Koloristika | | |
| | | 2 | Dizaynda rəng qammaları | | |
| | | 3 | Dizaynda staylinq | | |
| DIZ | 028 | | ***XVI blok*** | 5 | 60 |
| | | 1 | Məhsulların bədii tərtibatı | | |
| | | 2 | «SketchUp», «Blender» | | |
| | | 3 | Mühit və interyer dizaynı | | |
| DIZ | 029 | | ***XV blok*** | 5 | 60 |
| | | 1 | Bədii qrafika | | |
| | | 2 | Art-dizayn obyektlərinin layihələndirilməsi | | |
| | | 3 | Sənaye dizaynı | | |
| DIZ | 030 | | ***XVII blok*** | 5 | 45 |
| | | 1 | Geyimin layihələndirilməsi | | |
| | | 2 | İnteryer və tekstil dizaynı | | |
| | | 3 | Reklam və dizayn | | |
| DIZ | 032 | | ***II blok*** | 6 | 45 |
| | | 1 | Moda və kostyum tarixi | | |
| | | 2 | Kostyumda estetik mədəniyyət | | |
| | | 3 | Müasir geyim sənəti | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| DIZ | 033 | | ***V blok*** | 6 | 60 |
| | | 1 | Moda və stil | | |
| | | 2 | Fashion illyustrasiya | | |
| | | 3 | Moda tendensiyaları | | |
| DIZ | 034 | | ***VI blok*** | 6 | 60 |
| | | 1 | Dekorativ tətbiqi sənət | | |
| | | 2 | Şərq xalqlarının dekorativ tətbiqi sənəti | | |
| | | 3 | Ornament tarixi | | |
| DIZ | 035 | | ***VII blok*** | 6 | 60 |
| | | 1 | Kostyumun kompozisiyası | | |
| | | 2 | Dizayn və texniki estetika | | |
| | | 3 | Azərbaycan incəsənət tarixi | | |
| DIZ | 036 | | ***XII blok*** | 3 | 45 |
| | | 1 | Material, texnika və texnologiya | | |
| | | 2 | Tekstil məmulatların bədii tərtibatı | | |
| | | 3 | Tekstildə ornament kompozisiyaları | | |
| DIZ | 038 | | ***I blok (ümumi)*** | 3 | 45 |
| | | 1 | Fəlsəfə | | |
| | | 2 | Sosiologiya | | |
| | | 3 | Hüququn əsasları | | |
| | | 4 | Məntiq | | |
| | | 5 | Etika və estetika | | |
| | | 6 | Yaradıcılıq psixologiyası | | |
| DIZ | 039 | | ***IV blok*** | 6 | 60 |
| | | 1 | Parçaların bədii tərtibatı | | |
| | | 2 | Geyim və aksessuarların dizaynı | | |
| | | 3 | Müasir incəsənət | | |
| DIZ | 040 | | ***XIV blok*** | 6 | 60 |
| | | 1 | Tətbiqi mexanika | | |
| | | 2 | Brend və reklam | | |
| | | 3 | Gön-dəri məmulatlarının bədii layihələndirilməsi | | |
| DIZ | 041 | | ***XVIII blok*** | 6 | 60 |
| | | 1 | Portfolio | | |
| | | 2 | Moda portfoliosu | | |
| | | 3 | Dizayn layihələrinin portfoliosu | | |
| DIZ | 042 | | ***XIX blok*** | 6 | 60 |
| | | 1 | Maketləşdirmə | | |
| | | 2 | Geyim dizaynında maketləşdirmə | | |
| | | 3 | Mühit dizaynında maketləşdirmə | | |

# MAGİSTRATURA

## Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin (BMDM) ixtisas və ixtisaslaşmaları

| Sıra N-si | İxtisasın şifri | İxtisaslar və ixtisaslaşmaların adı |
|---|---|---|
| 1 | 060403 | **Maliyyə** |
| | | Bank işi |
| | | Vergi və vergiqoyma |
| | | Sığorta işinin təşkili |
| | | Maliyyə nəzarəti və audit |
| | | Maliyyə menecmenti |
| | | Maliyyə bazarları |
| 2 | 060402 | **Mühasibat uçotu və audit** |
| | | İstehsal sferasında mühasibat uçotu və audit |
| | | Xidmət sferasında mühasibat uçotu və audit |
| 3 | 060406 | **Statistika** |
| | | Müəssisələrin statistikası |
| 4 | 060404 | **İqtisadiyyat** |
| | | İqtisadi nəzəriyyə |
| | | İqtisadiyyatın tənzimlənməsi |
| | | İqtisadiyyatın hüquqi tənzimlənməsi |
| | | Qiymətləndirmə |
| | | Əməyin iqtisadiyyatı |
| | | Turizmin iqtisadiyyatı |
| | | Makroiqtisadi siyasət |
| | | Ekonometriya |
| | | Aqrar sahənin iqtisadiyyatı |
| 5 | 060405 | **Sənayenin təşkili və idarə olunması** |
| | | Müəssisənin iqtisadiyyatı |
| | | İnnovasiya strategiyasının işlənməsi |
| | | İnvestisiyanın iqtisadi qiymətləndirilməsi |
| 6 | 060401 | **Dünya iqtisadiyyatı** |
| | | Beynəlxalq iqtisadi münasibətlər |
| | | Gömrük işi |
| | | Beynəlxalq ticarət |
| | | Beynəlxalq maliyyə və valyuta kredit münasibətləri |
| 7 | 060407 | **Menecment** |
| | | Menecment (sahələr üzrə) |
| | | Strateji idarəetmə |
| | | İnnovasiyaların və layihələrin idarə olunması |
| | | Heyətin idarə edilməsi |

| | | |
|---|---|---|
| 8 | **060408** | **Marketinq** |
| | | Marketinq |
| | | Logistika |
| 9 | **060409** | **Biznesin idarəedilməsi** |
| | | Biznesin təşkili və idarə edilməsi |
| 10 | **060410** | **Dövlət və bələdiyyə idarəetməsi** |
| | | Dövlət strukturlarında menecment |
| | | Bələdiyyə menecmenti |
| | | Regional idarəetmə |
| | | Elektron idarəetmə |
| 11 | **060411** | **Kommersiya** |
| | | Kommersiya fəaliyyəti |
| | | Reklam işi |
| 12 | **060509** | **Kompüter elmləri** |
| | | İqtisadi informasiya sistemləri |
| | | İqtisadi fəaliyyətin riyazi və informasiya təminatı |
| | | İntellektual sistemlər |
| | | Verilənlərin təhlili (Data analitikası) |
| | | İnformasiya sistemləri |
| | | İdarəetmənin informasiya texnologiyaları |
| 13 | **060632** | **İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi** |
| | | İnformasiya muhafizəsi və təhlükəsizliyi |
| | | İdarəetmədə informasiya sistemləri |
| | | Tətbiqi proqram təminatı |
| | | Kiber təhlükəsizlik |
| | | İnformasiya texnologiyaları və telekommunikasiya sistemləri |
| 14 | **060625** | **Texnoloji maşın və avadanlıqlar mühəndisliyi** |
| | | Yüngül sənaye və məişət xidmətinin texnoloji maşın və avadanlıqları |
| | | Yeyinti sənayesi, iaşə və ticarətinin texnoloji maşın və avadanlıqları |
| 15 | **060642** | **Qida məhsulları mühəndisliyi** |
| | | İaşə məhsullarının texnologiyası və iaşənin təşkili |
| | | Qida təhlükəsizliyi |
| | | Şərabçılıq və qıcqırtma istehsalının texnologiyası |
| 16 | **060644** | **İstehlak mallarının ekspertizası və marketinqi** |
| | | İstehlak mallarının keyfiyyət ekspertizası |
| | | Ərzaq məhsullarının ekspertizası və marketinqi |
| | | Qeyri-ərzaq məhsullarının ekspertizası və marketinqi |
| | | Gömrük ekspertizası |
| 17 | **060647** | **Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi** |
| | | Metrologiya və metroloji təminat |
| | | Standartlaşdırma və sertifikatlaşdırma (sahələr üzrə) |
| 18 | **060321** | **Dizayn** |
| | | Dizayn və texniki estetika |
| | | Vizual dizayn və media |
| 19 | **060510** | **Ekologiya** |
| | | Ətraf mühitin mühafizə metodları və bərpası |
| | | **CƏMİ** |

# UNEC Biznes Məktəbinin (MBA) ixtisas və ixtisaslaşmaları (proqram 56)

| № | İxtisasın şfirəsi | İxtisaslar və ixtisaslaşmaların adı | Tədris dili |
|---|---|---|---|
| | 060409 | Biznesin idarə edilməsi | |
| 1. | | Maliyyə | az, ing, rus |
| 2. | | Beynəlxalq biznes | az, ing, rus |
| 3. | | Marketinq | az, ing |
| 4. | | Qiymətli kağızlar | az, ing |
| 5. | | Ümumi təyinatlı | az, ing, rus |
| 6. | | İnsan resurslarının idarə olunması | az, ing, rus |
| 7. | | Menecment | az, ing |
| 8. | | Mühasibat uçotu | az, ing, rus |
| 9. | | Bank və sığortanın idarə edilməsi | az, ing |
| 10. | | Səhiyyənin idarə edilməsi | az, ing |
| 11. | | İdmanın idarə edilməsi | az, ing |
| 12. | | Mühəndislik və idarəetmənin riskləri | az, ing |
| 13. | | Turizm və otelçiliyin idarə edilməsi | az, ing, rus |
| 14. | | Layihələrin idarə edilməsi | az, ing, rus |
| 15. | | Sosial media marketinqi | az, ing |
| 16. | | Biznes və data analitikası | az, ing |
| 17. | | Risklərin idarə olunması | az, ing |
| 18. | | Beynəlxalq logistika və təchizat zəncirinin idarə edilməsi | az, ing |
| 19. | | Kiber təhlükəsizlik | az, ing |
| 20. | | Vergi idarəetməsi və vergi planlaşdırması | az, ing |
| 21. | | Rəqəmsal marketinq | az, ing |
| 22. | | Rəqəmsal ekspertiza | az, ing |
| 23. | | Enerji menecment | az, ing |

| № | İxtisasın şifrəsi | İxtisaslar və ixtisaslaşmaların adı | Tədris dili |
|---|---|---|---|
| | 060409 | Biznesin idarə edilməsi | |
| 24. | | Blokçeyn idarə edilməsi | az, ing |
| 25. | | Rəqəmsal biznesin idarə edilməsi | az, ing |
| 26. | | Proqram təminatı mühəndisliyi | az, ing |
| 27. | | Süni intellekt | ing |
| 28. | | Ərzaq məhsullarının keyfiyyətinin idarə edilməsi | az, ing |
| 29. | | Ali təhsilin idarə edilməsi | az, ing |
| 30. | | Maliyyə analitikası | az, ing |

*UNEC Biznes Məktəbinin (MBA) Tədris Planı:*

https://unec.edu.az/unec-biznes-mektebinin-tedris-planlari/

# Doktorantura

## UNEC 2024-cü il üçün doktorantura və dissertantura üzrə ixtisaslar

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə | | | | Elmlər doktoru proqramı üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Doktorantura | | | Dissertantura | Doktorantura | | Dissertantura |
| | | Cəmi | Dövlət ifarişli və ödənişli əsaslarla | | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla*** |
| | | | əyani | qiyabi | | | qiyabi | |
| **Azərbaycan Dövlət İqtisad Universiteti** | | | | | | | | |
| 2203.01 | Elektronika | 1 | | 1 | | | | |
| 3309.01 | Qida məhsullarının texnologiyası | 2 | | 2 | 1 | | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | **1** | 1 | | **1** | | | |
| 3333.01 | İstehsalın təşkili (sahələr üzrə) | **1** | | 1 | | | | |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | **3** | 1 | 2 | | | | 1 (LDU üçün məqsədli yer) |
| 5302.01 | Ekonometriya-iqtisadi statistika | **4** | 2 | 2 | | | | |
| 5303.01 | Mühasibat uçotu | **3** | 1 | 2 | | | | |
| 5304.01 | İqtisadi fəaliyyətin növləri | **1** | | 1 | | | | |
| 5307.01 | İqtisadi nəzəriyyə | **2** | 1 | 1 | | | | |
| 5308.01 | Ümumi iqtisadiyyat | **5** | 2 | 3 | **4 (UNEC Zaqatala filialı üçün 3 məqsədli yer)** | | | |
| 5310.01 | Dünya iqtisadiyyatı | **4** | 2 | 2 | | | | |
| 5312.01 | Sahə iqtisadiyyatı | **5** | 2 | 3 | **3 (UNEC Zaqatala filialı üçün 2 məqsədli yer)** | **1** | 1 | |
| | **Cəmi:** | **32** | **12** | **20** | **9** | **1** | **1** | **1** |

Qəbul planında dövlət sifarişli yerlərin sayı qəbul imtahanları bitdikdən sonra Elm və Təhsil Nazirliyi tərəfindən müəyyən edilir. UNEC əməkdaşı olmayan şəxslər üçün dissertantura təhsili ödənişli əsaslarla aparılır.

# FİLİALLAR

## Zaqatala filialı

Regionların sosial-iqtisadi inkişafı üçün yüksək ixtisaslı kadrlara tələbatı təmin etmək, bölgələrdə yaşayan gənclərin seçdikləri ixtisaslar üzrə keyfiyyətli ali təhsilə çıxış imkanlarını genişləndirmək, eləcə də ali təhsil müəssisələrinin mövcud maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin 29 aprel 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Zaqatala filialı əsasında Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı yaradılmışdır.

2016-cı il sentyabrın 15-də UNEC-in Zaqatala filialının açılışı olub.

Filialda “İqtisadiyyat və idarəetmə”, ”Texniki və texnoloji” bölmələrdən ibarət “İqtisadiyyat və menecment” departamenti, Katiblik, Maliyyə və təminat şöbəsi, Təsərrüfat şöbəsi fəaliyyət göstərir.

UNEC-in Zaqatala filialında 9 ixtisas üzrə tədris prosesinin təşkili Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi “Bakalavriat Səviyyəsinin İxtisas üzrə Təhsil Proqramı”na uyğun hazırlanmış və UNEC Elmi Şurası tərəfindən təsdiq edilmiş Tədris Planları əsasında həyata keçirilir.

ZİM-də əyani təhsil formasında aşağıdakı ixtisaslar üzrə ali təhsilli peşəkar iqtisadçı mütəxəssislərin hazırlanması həyata keçirilir:

*Bakalavr*

- 050405 - İqtisadiyyat
- 050406 - Maliyyə
- 050408 - Menecment
- 050407 - Marketinq
- 050402 - Biznesin idarə edilməsi
- 050409 - Mühasibat
- 050810 - Turizm işinin təşkili
- 050616 - İnformasiya texnologiyaları
- 050404 - Dövlət və bələdiyyə idarəetməsi

*Magistratura*

Biznesin idarə edilməsi (MBA)

TƏHSİL PLANLARI və TƏDRİS PROQRAMLARI:
https://unec.edu.az/zaqatala-fillali/

# Dərbənd filialı

Filial azərbaycanlıların sıx yaşadığı Dərbənd şəhərində soydaşlarımızın ali təhsil almasına kömək məqsədi ilə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə yaradılıb.

Azərbaycan Respublikasının Prezidentinin göstərişi ilə İqtisad Universitetinin Dərbənd filialının yeni təhsil kompleksi tikilərək istifadəyə verilib. Muasir tələblərə cavab verən kampus 1500 tələbə üçün nəzərdə tutulub. Kampusa 200 nəfərlik tələbə yataqxanası, kitabxana, yeməkxana, idman zalı və hovuz, həmçinin 200 nəfərlik lisey də daxildir.

Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin 25 noyabr 2015-ci il tarixli 2220 saylı əmri ilə UNEC-in Dərbənd filialının fəaliyyəti üçün lisenziya verilib. 2016/2017-ci tədris ili üçün ali təhsilin bakalavr pilləsi üzrə UNEC-in Dərbənd filialına Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin 14 oktyabr 2015-ci il tarixli 1147 saylı əmrinə uyğun hazırlanan Qəbul Qaydaları təsdiq edilib. Qəbul Qaydaları UNEC-in Elmi Şurasının 25 dekabr 2015-ci il tarixli 142 saylı qərarı ilə təsdiq edilib.

2016-cı il noyabrın 28-də Azərbaycan Dövlət İqtisad Universitetinin Rusiya Federasiyasının Dağıstan Respublikasının Dərbənd şəhərindəki filialının rəsmi açılışı olub.

Filiala qəbul Rusiya Federasiyasında tələbələrin qəbul qaydalarına əsasən aparılır. Tədris əyani, əyani-qiyabi və qiyabi təhsil forması üzrə aparılır. Təhsil üzrə plan yerlərinə qəbul büdcə hesabına və müqavilə ilə ödənişli əsaslarla həyata keçirilir. Təhsil müddəti əyani forma üzrə 4 il, əyani-qiyabi forma üzrə 4 il 6 ay, qiyabi forma üzrə 5 ildir.

Əyani təhsil forması üzrə tədris rus dilində, əyani-qiyabi və qiyabi təhsil formaları üzrə isə rus və azərbaycan dillərində aparılır.

*Filialda 3 ixtisas üzrə bakalavr hazırlanır:*

- Maliyyə-kredit;
- Mühasibat uçotu, təhlil və audit;
- Ümumi iqtisadiyyat.

***Sayt:*** *ageu-derbent.ru*

***Ünvan:*** *Rusiya Federasiyası, Dağıstan Respublikası, Dərbənd şəhəri, H.Əliyev küçəsi, 10B*

# KOLLECLƏR

## UNEC nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci

Azərbaycan Maliyyə-İqtisad Kolleci 1934-cü ildə əsası qoyulmuş Bakı Xalq Təsərrüfatı uçotu məktəbinin müasir dövr varisidir.

Kollec 1934-1936-cı ilərdə Bakı Xalq Təsərrüfatı uçotu məktəbi, 1936-cı ildən isə Bakı Xalq Təsərrüfatı uçotu Texnikumu adı altında fəaliyyət göstərmişdir. 1946-1966-cı illərdə Bakı Statistika Texnukumu, 1966-1992-ci illərdə Bakı Maliyyə-Kredit Texnikumu adı altında fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 mart 1992-ci il tarixli 119 nömrəli Qərarı ilə H.Z.Tağıyev adına Bakı Maliyyə-Kredit Texnikumu H.Z.Tağıyev adına Azərbaycan Maliyyə-İqtisad Kollecinə çevrilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 avqust 2015-ci il tarixli 280 nömrəli Qərarı ilə Azərbaycan Maliyyə-İqtisad Kolleci Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci adlandırılıb və hal-hazırda həmin adda fəaliyyət göstərir.

Kollecdə aşağıdakı ixtisaslar üzrə (əyani) subbakalavr hazırlığı həyata keçirilir:

- Mühasibat uçotu
- Maliyyə işi
- Bank işi
- Vergi işi
- Sosial iş

*Ünvan:*

Əsas korpus: Y.Məmmədəliyev küçəsi, 8

II korpus: A.Cəlilov küçəsi, 22

*Kollecdə aşağıdakı fənn birləmə komissiyaları fəaliyyət göstərir:*

- Mühasibat uçotu və iqtisadi təhlil
- Kredit və bank işi
- Maliyyə, vergi və gömrük işi
- Statistika və menecment
- Humanitar sosial-iqtisadi fənlər
- İqtisadiyyat fənləri
- Texniki və texnoloji fənlər
- Ümumtəhsil fənləri
- Dillər

# UNEC nəzdində Qida Sənayesi Kolleci

Bakı Qida Sənayesi Kolleci Azərbaycan SSR Ərzaq Malları Sənayesi Nazirliyinin 30 avqust 1955-ci il tarixli əmri ilə Bakı Yeyinti Sənayesi Texnikumu kimi yaradılmışdır. Yarandığı dövrdən bu günə kimi respublikanın istehsalat və xidmət sahələrini qida sənayesi üzrə orta ixtisaslı mütəxəsislərlə təmin edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyun tarixli 112 saylı qərarı ilə Bakı Yeyinti Sənayesi Texnikumu Bakı Qida Sənayesi Kolleci adlandırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyul 2020-ci il tarixli 250 saylı qərarı ilə Bakı Qida Sənayesi Kolleci Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində publik hüquqi şəxs statusuna malik olan Qida Sənayesi Kollecinə çevrilmişdir.

Kollecdə aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlanır:

- Turizm işinin təşkili
- Marketinq (sahələr üzrə)
- İaşə müəssisələrinin servisi
- Qida məhsullarının təhlükəsizliyi
- Ətraf mühitin mühafizəsi və bərpası
- Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi
- İstehlak mallarının ekspertizası
- Ət və ət məhsullarının texnologiyası
- Şərabçılıq və qıcqırtma istehsalatının texnologiyası
- Konservləşdirmə və qida konsentratları texnologiyası
- Çörək və unlu qənnadı məmulatlarının texnologiyası
- Kimyəvi birləşmələrin keyfiyyətinə analitik nəzarət

*Şöbələr:*

- Qida texnologiyası -1
- Qida texnologiyası -2
- Qida ekspertizası
- Mehmanxana və turizm
- Qeydiyyat, qiymətləndirmə və monitorinq şöbəsi
- İstehsalat təcrübə rəhbəri

*Kollecdə aşağıdakı fənn birləmə komissiyaları fəaliyyət göstərir:*

- Humanitar
- Dillər və ədəbiyyat
- Kimya, biologiya, ekologiya və sanitar-gigiyena
- Ümumtəhsil və ümumtexnika
- Ümumi iqtisadiyyat və idarəetmə
- İstehlak mallarının ekspertizası
- Qida texnologiyası

Ünvan:
Əsas korpus – Bakı şəhəri, Nizami rayonu, R.Teymurov 73
Keşlə korpusu – Bakı şəhəri, Nizami rayonu Keşlə qəsəbəsi D.Aslan küçəsi 5A

# UNEC nəzdində Sosial-İqtisadi Kollec

Azərbaycan Respublikası Nazirlər Sovetinin 23 noyabr 1965-ci il tarixli qərarı və Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyinin 7 may 1966-cı il tarixli əmri ilə Bakı Plan-İqtisad Texnikumu yaradılmışdır. Bakı Plan-İqtisad Texnikumu 1966-cı ildən 2002-ci ilədək fəaliyyət göstərmişdir. "Orta ixtisas təhsili müəssisələri şəbəkəsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 avqust 2002-ci il tarixli, 140 nömrəli qərarı ilə həmin texnikumun bazasında Bakı Dövlət Sosial-İqtisad Kolleci yaradılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 iyul 2020-ci il tarixli 250 saylı qərarı ilə Bakı Dövlət Sosial-İqtisadi Kolleci Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) nəzdində publik hüquqi şəxs statusuna malik olan Sosial-İqtisadi Kollecinə çevrilmişdir.

*Şöbələr:*

- Bank işi şöbəsi
- Mühasibat ucotu şöbəsi
- İdarəetmə şöbəsi
- Qiyabi şöbə
- İnsan resusları və informasiya şöbəsi
- Qeydiyyat, qiymətləndirmə və informasiya şöbəsi
- İstehsalat təcrübə rəhbəri

*Kollecdə aşağıdakı fənn birləmə komissiyaları (FBK) fəaliyyət göstərir:*

- İctimai elmlər
- Maliyyə
- Mühasibat uçotu və audit
- Arxiv işi və sosial iş
- Ümumtəhsil
- Dil və ədəbiyyat
- İnformatika

*Kollecdə aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlanır:*

- 040202 - Kargüzarlıq və arxiv işi
- 040401 - Bank işi
- 040404 - Maliyyə

- 040406 - Mühasibat uçotu
- 040410 - Vergi işi
- 040713 - Sosial  iş
- 040530 - Komputer sistemlərində proqram təminatı

# Beynəlxalq əməkdaşlıq

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) beynəlxalq əlaqələri xarici ölkə universitetləri ilə ikitərəfli əməkdaşlığı, beynəlxalq təhsil proqramlarında iştirakı, əcnəbi tələbələrin cəlb olunmasını, müvafiq beynəlxalq təşkilatlarla işbirliyini və digər istiqamətləri əhatə edir.

Xarici ölkə universitetləri ilə əməkdaşlıq tələbə və müəllim mübadiləsinin həyata keçirilməsini, ortaq Yay Məktəblərinin və ikili diplom proqramlarının reallaşdırılmasını, birgə elmi konfransların və seminarların təşkilini, qarşılıqlı faydalı təcrübə mübadiləsinin aparılmasını nəzərdə tutur. Bu vaxta qədər, UNEC dünyanın 32 ölkəsinin 100-dən çox universiteti ilə ikitərəfli əməkdaşlıq müqaviləsi imzalamışdır.

Hazırda universitetimiz Almaniyanın Ziqen Universiteti (Siegen University), Macarıstanın Szeged Universiteti (University of Szeged) və Miskolc Universiteti (University of Miskolc), İtaliyanın Sapienza Universiteti (Sapienza University), İspaniyanın Malaqa Universiteti (University of Malaga), Litvanın Mikolas Romeris Universiteti (Mykolas Romeris University), Cənubi Koreyanın Vusonq Universitetinin Solbrij Beynəlxalq Biznes Məktəbi (Solbridge International School of Business, Woosong University), Türkiyənin Qazi, Hacettepe, Ege, Sakarya və s. universitetləri ilə əməkdaşlıq edir.

Hazırda UNEC tələbələri qeyd olunan tərəfdaş universitetlərdə bir semestrlik təhsil almaq imkanından geniş şəkildə istifadə edirlər. Eyni zamanda, həyata keçirilən müəllim mübadiləsi UNEC-də tədris prosesinin təkmilləşdirilməsi və professor-müəllim heyətinin qabaqcıl xarici universitetlərin müsbət təcrübəsindən faydalanması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Mobillik proqramları**

- İkili diplom və birgə diplom proqramları
- Erasmus+ mübadilə proqramı
- İkitərəfli əməkdaşlıq çərçivəsində mübadilə proqramları
- Mevlana mübadilə proqramı
- Orhun mübadilə proqramı

# İkili diplom və birgə diplom proqramları

İkili diplom proqramları ali təhsildə beynəlmiləlləşmə strategiyası olaraq tələbələrə təhsil dövrü ərzində iki fərqli universitetin diplomunu əldə etməyə imkan verəntəşəbbüsdür. Proqram üzrə qurulan akademik əməkdaşlıq həm bakalavr, həm dəmagistratura səviyyəsində daim yeni proqramlar və inkişaf edən tədris metodlarını özündə cəmləşdirməkdir. İkili diplom proqramları hər iki universitet tərəfindən birgə müəyyən olunmuş ixtisaslar daxilində əyani təhsil alan tələbələrə təklif olunmaqdadır. Əsas məqsəd təhsil qurumları arasında təhsilin beynəlmiləlləşməsinə töhvə verməkdir. Bu məqsədlə UNEC öz beynəlxalq inkişaf strategiyasında ikili diplom proqramlarına xüsüsi əhəmiyyət vermiş və dünyanın tanınmış universitetləri ilə bu istiqamətdə fəaliyyətlərini genişləndirmişdir. UNEC bakalavr təhsil səviyyəsi və magistratura təhsil səviyyəsi üzrə bir çox xarici universitetlə ikili diplom müqaviləsi imzalamış və UNEC tələblələrinin bu imkanlardan istifadə etməsinə şərait yaratmışdır.

Bunla yanaşı UNEC əlavə olaraq **Yunanıstanın Qərbi-Makidoniya Universiteti** ilə

magistratura təhsil səviyyəsi üzrə birgə diplom proqramına da başlamışdır. Proqramda iştirak edən əcnəbi tələbələrə sözügedən universitetin müəllimləri ilə yanaşı, UNEC müəllimləri də ildə iki dəfə Yunanıstana ezam olunaraq dərslərin keçirilməsində iştirak edir.

**Fransanın Montpellier Universiteti ilə həyata keçirilən bakalavriatura üzrə ikili diplom proqramı**

2016/2017-ci tədris ilindən başlayaraq UNEC-in Maliyyə, Mühasibatlıq, İqtisadiyyat və Biznesin idarəolunması ixtisasları üzrə təhsil alan tələbələri Montpellier Universitetinin "Beynəlxalq Menecment və Biznes" üzrə bakalavr diplomunu əldə edirlər. Həm Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), həm də Fransanın Montpellier Universitetinin diplomunu almağa imkan verən proqramda ilk iki tədris ilini UNEC-də təhsil almış və 120 kredit qazanmış mükəmməl ingilis dil bilikləri olan tələbələr iştirak edirlər. Təhsillərinin 3-cü ilini Fransanın Montpellier Universitetində keçirən tələbələr müvafiq kreditləri yığaraq UNEC-ə geri qayıdırlar. Daha sonra 4-cü kursu UNEC- də müvəffəqiyyətlə başa vuran tələbələr dörd ilin sonunda hər iki universitetin diplomlarını əldə edirlər.

**Fransanın ICD Biznes Məktəbi ilə həyata keçirilən bakalavr üzrə ikili diplom proqramı**

UNEC, Fransanın Leon şəhərində yerləşən Fransa və ABŞ-ın birgə təhsil müəssisəsi olan (CEFAM) təhsil konsorsiumuna aid olan ICD Biznes Məktəbi ilə (École de commerce et de Marketing) ikili diplom proqramı üzrə müqavilə imzalamışdır. Proqram çərçivəsində UNEC tələbələri iki semestr müddətinə 60 ECTS kreditdən ibarət müvafiq bakalavr proqramları üzrə ICD Beynəlxalq Biznes Məktəbində təhsillərini davam etdirirlər. Proqram çərçivəsində UNEC tələbələri Maliyyə, Mühasibatlıq, İqtisadiyyat, Biznesin idarəolunması ixtisasları üzrə təhsil alırlar.

Həm Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), həm də ICD-nin diplomunu almağa imkan verən proqramda ilk iki tədris ilini UNEC-də təhsil almış və 120 kredit qazanmış mükəmməl ingilis dil bilikləri olan tələbələr iştirak edirlər. 3-cü kursda proqram üçün artıq seçilmiş tələbələrə iki variant üzrə (ya Fransada, ya Azərbaycanda) təhsillərini davam etdirmək imkanı verilir. Proqramı uğurla bitirən tələbələr hər iki ali təhsil müəssisəsinin diplomunu əldə edirlər. Tədris ingilis dilində aparılır.

**Rusiyanın Moskva Dövlət Humanitar İqtisad Universiteti ilə bakalavr üzrə ikili diplom proqramı**

UNEC-in Rus İqtisad Məktəbinin və rus dilini bilən UNEC-in digər fakültələrinin tələbələri 1-ci kursdan bu proqrama qoşula bilərlər. Tələbələr birinci və ikinci tədris ilində UNEC-də təhsil alır, sonra üçüncü tədris ilində MDHİU-da təhsillərini davam etdirirlər. Dördüncü tədris ilində tələbələr UNEC-ə qayıdıb təhsillərini başa vururlar. Akademik tələbləri yerinə yetirən tələbələrə Rusiyanın təhsil və kvalifikasiya sənədi bakalavr diplomu və UNEC diplomu verilir. UNEC tələbələrinin proqramda iştirak etmək üçün əsas qəbul şərtləri rus dilində sərbəst danışmaq və 71-dən yuxarı ümumi orta balın müvəffəqiyyət göstəricisini sahib olmaqdır. Tədris rus dilində aparılır. İkili diplom proqramının ixtisas istiqaməti "Mühasibat uçotu və audit".

**Türkiyə Cumhuriyyətinin Ege Universiteti ilə bakalavriat səviyyəsi üzrə ikili diplom proqramı**

2023/2024-cü tədris ilindən başlayaraq UNEC-in Ege Universiteti ilə birgə Qida mühəndisliyi ixtisası üzrə ikili diplom proqramına qəbul aparılır. Tələbələr türk dili biliklərini təsdiq edən müvafiq sertifikata malik olmalıdırlar. Bu proqrama qəbul olunan tələbələr təhsilin I və IV ilini UNEC-də, təhsilin II və III ilini isə Ege Universitetində təhsil alırlar. Fənlər üzrə müvafiq kreditləri qazanan tələbələr təhsil proqramını bitirərək həm UNEC-in, həm də Ege Universitetinin dövlət nümunəli diplomlarını əldə edirlər.

**ABŞ-ın Linkoln Universiteti ilə magistratura üzrə ikili diplom proqramı**

UNEC-lə ABŞ-ın Linkoln Universiteti arasında MBA proqramı üzrə ikili diplom müqaviləsi imzalanmışdır. Müqaviləyə əsasən, UNEC tələbələri öz seçimlərinə uyğun olaraq, 1 və ya 2 il ABŞ-da oxumaqla, yaxud ABŞ-dan gələn professorların tədris etdiyi 9-12 fənni UNEC-də dinləyib uğurla imtahan verdikdən sonra UNEC diplomu ilə  yanaşı, həm də ABŞ Linkoln Universitetinin diplomunu əldə edə bilirlər.

**Fransanın Montpellier Universiteti ilə həyata keçirilən magistratura üzrə ikili diplom proqramı**

UNEC-də Montpellier Universitetinin diplomunu əldə etmək imkanı UNEC tərəfindən magistr tələbələri üçün də hazırlanmışdır. Proqramda UNEC-in magistratura pilləsinin Biznesin idarə edilməsi, marketinq, menecment, maliyyə, mühasibat uçotu, insan resurslarının idarə edilməsi, biznes analitikasi, qiymətli kağızlar, layihələrin idarə edilməsi ixtisasında təhsil alan tələbələr iştirak edə bilirlər. Magistr tələbələri təhsillərini tədrisin II ilinin yaz semestrində Montpellier Universitetində davam edərək nəticədə hər iki ali təhsil müəssisəsinin diplomlarını əldə edirlər. Tədris ingilis dilində aparılır.

**Litvanın Mykolas Romeris Universiteti (MRU) ilə magistratura üzrə ikili diplom proqramı**

Proqram çərçivəsində UNEC-də "Maliyyə bazarları", "Maliyyə menecmenti" və "Maliyyə nəzarəti və audit" ixtisası üzrə təhsil alan birinci kurs magistr tələbələrinə tədrisin 2-ci semestrində Litvanın Mykolas Romeris Universitetində təhsillərini davam etmək və hər iki universitetin diplomunu əldə etmək imkanı yaradılmışdır.

**Erasmus+ mübadilə proqramı çərçivəsində:**

UNEC tələbələrinə 2015-ci ildən Erasmus+ mübadilə proqramı çərçivəsində Avropa ölkələrinin ali təhsil müəssisələrində bir semestrlik təqaüdlü təhsil almaq imkanı yaradılmışdır. Bununla yanaşı sözügedən proqram çərçivəsində universitetimizin müəllim və inzibati heyəti də xarici universitetlərdə mübadilədə iştirak edir. 2015-ci ildən etibarən UNEC Erasmus+ mübadilə proqramı çərçivəsində Avropadan İngiltərənin Leicester Universiteti, Fransanın Montpellier Universiteti, CEFAM Universiteti, Niderland Krallığının Virje Amsterdam Universiteti, İtaliyanın Sapieza Universiteti, Kordoba Universiteti, Boloniya Universiteti, Macarıstanın Szeged Universiteti, Debrecen Universiteti, Miskolç Universiteti, Szeged Universiteti, Dunaujvaros Universiteti, Rumıniyanın Trnasilvaniya Braşov Universiteti, Babeş Bolyayi Universiteti, Pitesti Universiteti, Bolqarıstanın D.A. Tsenov adına İqtisad Akademiyası, Lüksemburq Krallığının Lüksemburq Universiteti, Almaniyanın Siegen Universiteti, Portuqaliyanın Avropa Biznes Məktəbi (ISAG), Polşanın Kozminski Universiteti, Bolqarıstanın A. D.Tsenov İqtisadiyyat Akademiyası,Litvanın Mikolos Romeris Universiteti, Slovakiyanın Pan Avropa Universiteti, eləcə də Türkiyənin nüfuzlu universitetlərindən Orta Şərq Texniki Universiteti (ODTÜ), Hacettepe Universiteti, Anadolu Universiteti, İzmir Ekonomi Universiteti, Kütahya Dumlupınar Universiteti ilə əməkdaşlıq edir.

İkitərəfli əməkdaşlıq çərçivəsində mübadilə proqramları:

İkitərəfli əməkdaşlıq (Non-erasmus) proqramı çərçivəsində universitetimiz Fransanın Montpellier Universiteti, Almaniyanın Siegen Universiteti, Litvanın Mikolos Romeris Universiteti, Koreyanın Solbridge Beynəlxalq Biznes Məktəbi, Türkiyənin Anadolu Unversiteti və Beykent Unversiteti ilə əməkdaşlıq edir. Bu proqramda tələbələr qeyd olunan xarici universitetlərin təhsil haqqından azaddır. Son beş ildə UNEC-də təqdim olunan beynəlxalq mübadilə proqramlarında iştirak hüququ qazanan tələbələrin sayı 6 dəfəyə yaxın, müəllimlərin sayı isə 4 dəfədən çox artıb.

**Mevlana mübadilə proqramı çərçivəsində:**

Türkiyənin Ali Təhsil Şurasının (YÖK) maliyyələşdirdiyi Mevlana proqramı çərçivəsində 2013-cü ildən etibarən UNEC ilə Türkiyənin müxtəlif universitetləri arasında əməkdaşlıq həyata keçirilir. Sözügedən proqram çərçivəsində hər iki ölkənin müəllim və tələbələri qarşı universitetdə dərslərdə iştirak edir, təlim-tədris prosesində qarşılıqlı təcrübə mübadiləsi həyata keçirir.

Mevlana mübadilə proqramı çərçivəsində UNEC hazırda Türkiyənin 51 universiteti ilə əməkdaşlıq həyata keçirir. 2014-cü ilin əvvəlində isə əməkdaşlıq edilən universitetlərin sayı 31 ədəd idi. Universitetimiz tərəfdaş universitetlərin sayına görə Respublikamızın ali təhsil müəssisələri arasında liderdir. Aşağıda bəzi universitetlərin adları qeyd edilir:

1. Akdeniz Universiteti
2. Atatürk Universiteti
3. Beykent Universiteti
4. Gazi Universiteti
5. Hacettepe Universiteti
6. İstanbul Universiteti
7. Ondokkuz Mayis Universiteti
8. Sakarya Universiteti
9. Süleyman Demirel Universiteti
10. Uludağ Universiteti
11. Yildiz Teknik Universiteti
12. Gaziantep Universiteti və s.